Ənvər ÇİNGİZOĞLU

# XALXAL XANLIĞI

AZƏRBAYCAN TARİX QURUMU

Ənvər ÇİNGİZOĞLU

104440

# XALXAL XANLIĞI

Azərbaycan Milli
Kitabxanası

Bakı
Mütərcim
2016

T3(2A) 46q 9

**Elmi redaktor:**
***Bəhram Məmmədli***

**Redaktor:**
***Natiq Qubadlı***

**Rəyçilər:**
***Güntəkin Nəcəfli***
*tarix üzrə fəlsəfə doktoru*

***Mahal Qacarlı***
*tarix üzrə fəlsəfə doktoru*

**Ənvər Çingizoğlu. Xalxal xanlığı.** *Monoqrafiya.*
– Bakı: Mütərcim, 2016. – 128 səh.

Monoqrafiyada XVIII yüziliyin Azərbaycan tarixinin, daha dəqiqi Xalxal xanlığının ictimai-siyasi hadisələri işıqlandırmışdır. Xanlığın tarixi kompleks şəkildə araşdırılır. Xalxal xanlığının təşəkkülü tarixindən söhbət geniş aparılır.

Kitab tarixçi alimlər, ali məktəb tələbələri və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

***Müəlliflik hüququ qorunur. Xüsusi icazə olmadan bu nəşri və ya-xud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri yaymaq qanuna ziddir.***

**ISBN: 978-9952-28-291-7**

© Ə.Çingizoğlu, 2016

ARXİV

# GİRİŞ

Azərbaycan tarixşünaslığında Cənub xanlıqları çox zəif öyrənilib. Bunun əsas səbəblərindən biri bu bölgəyə aid yazılı mənbələrin azlığıdır. Digər tərəfdən, Cənubi Azərbaycan tarixinin bir sıra dövrləri həddən artıq dolaşıq olduğundan onların ümumi tarix baxımından öyrənilməsi çətinlik törədir və bu dönəmi ayrıca tədqiq etmək lazım gəlir.

Xalxal xanlığı nə cənub xanlıqlarının tərkibində, nə də cənub xanlıqlarından ayrılıqda öyrənilməyib. Problemin aktuallığına baxmayaraq, o hələlik Azərbaycan tarixşünaslığında heç bir şəkildə tədqiq edilməyib. Buna baxmayaraq cənub xanlıqları ilə bağlı bir sıra tədqiqatlar aparılıb. Bu baxımdan Hüseyn Dəlilinin "Azərbaycanın cənub xanlıqları" və Nisə Mustafayevanın "Cənubi Azərbaycan xanlıqları" kitablarını qiymətləndirmək gərəkdir. H.Ə.Dəlili tariximiz üçün çox qiymətli olan əsərində baxmayaraq ki, Azərbaycanın cənub xanlıqlarının tədqiqi ilə məşğul olub, amma Xalxal xanlığının tarixinə diqqət yetirməyib.

Nisə Mustafayeva da Xalxal xanlığından bəhs etməyib. Maraqlıdır ki, ümumiyyətlə kim cənub xanlıqlarından bəhs edibsə, nədənsə Xalxal xanlığını nəzərdən qaçırıb.

Müəllif cənub xanlıqları ilə bağlı ciddi elmi tədqiqat və metodik işləri ilə məşğuldur. Bu istiqamətdə zəngin tarixi ədəbiyyat və mənbələr əsasında yazılmış bir neçə fundemental əsəri, eləcə də elmi məqalələri nəşr olunmuşdur. Bu ayaqdan müəllifin [Qaradağ xanlığı, Bakı, "Mütərcim", 2011, 212 s.], [Urmiya xanlığı, metodik vəsait, Bakı, "Mütərcim", 2013, 188 s.], [Sərab xanlığı, Bakı, "Mütərcim", 2013, 212 s.], [Marağa xanlığı, Bakı, "Mütərcim", 2013, 280s.], [Ərdəbil xanlığı, Bakı, "Mütərcim, 2014, 260 s.], [Zəncan xanlığı, Bakı, "Mütərcim, 2014, 176 s.], kitablarını göstərmək olar. Göstərdiyimiz monoqrafiya, dərs və metodik vəsaitlər XVIII yüzil-

liyin ikinci yarısı- XIX yüzilliyin əvvəllərində mövcud olmuş bəzi Cənubi Azərbaycan xanlıqlarının tarixinə həsr olunmuşdur.

Xalxal xanlığının öyrənilməsində bir sıra farsdilli ilk mənbələrə müraciət edilib. Mirzə Məhəmməd Sadiq "Nami" Musəvinin "Tarixi-Zəndiyyə" kimi tanınan "Tarix-i qitiquşa-yi Zəndiyyə" əsəri 1160/1747-ci ildən 1209/1794-cüilədək İran tarixini əhatə edir. İlk mənbələrdən Mirzə Məhəmmədhaşim Asəfin " Rüstəməttəvarix" [Rüstəmülhükəma Məhəmmədhaşim Asəf, Rüstəməttəvarix, Tehran, "Dünya kitab", 1382.], Mirzə Məḥəmməd Əbülhəsən Qaffari Kaşaninin "Gülşən-e murad" (Mirzə Məḥəmməd Əbülhəsən Qaffari Kaşani, Gülşən-e murad, nəşr. Q.-R. Ṭəbaṭəbai Məcd, Tehran, 1990.), Məḥəmməd Sadiq Naminin " Tarix-e qitiquşa" (Məḥəmməd Sadiq Nami, Tarix-e qitiquşa, təshih S. Nəfisi, Tehran, 1987.), Mirzə Məḥəmməd Kəlantərin " Ruz-name-ye Mirzə Məḥəmməd Kəlantər-e Fars" (Mirzə Məḥəmməd Kəlantər, Ruz-name-ye Mirzə Məḥəmməd Kəlantər-e Fars, təshih. 'A. Eqbal, Tehran, 1946.), Əbülhəsən Gülestanənin "Mücməl al-təvarix" (Əbülhəsən Gülestanə, Mücməl al-təvarix, təshih Məḥəmmədtağı Müdərrəs Rəzəvi, Tehran, 1970.) əsərlərini göstərmək olar. Bu əsərlərdə bir çox cənub xanlıqlarının siyasi tarixi, onların qonşu dövlətlərlə münasibətləri, dövlət quruluşu, inzibati-ərazi bölgüsü, əhalisi haqqında məsələlər öz əksini tapıb.

İran tarixşünaslığında bəzi kitablar da XVIII əsrdə mövcud olmuş xanlıqların tarixini öyrənmək baxımından maraqlıdır. Bunlardan Kərəmətullah Avşarın qələmə aldığı "Baft-e qədimi-e Şiraz" (Kərəmətullah Əfsar, Baft-e qədimi-e Şiraz, Tehran, 1974.) əsərində Şiraz xanlığının qonşu xanlıqlarla münasibətlərindən bəhs edir. Məşhur tarixçi Əbdülhüseyn Nəvai "Kərim xan Zənd" (Əbdülhüseyn Nəvai, Kərim xan Zənd, Tehran, 1965.) adlı əsərində İranda Nadir şah Avşardan sonra əmələ gələn müstəqil xanlıqların yaranmasının iqtisadi və siyasi kökləri, xanlıqlar dövründə mövcud olan vergi və mükəlləfiyyətlər, torpaq mülkiyyət formaları haqqında məlumatlar var. Hadi Hidayəti "Tarix-e Zəndiyə" əsəri (Hadi Hidayəti, Tarix-e Zəndiyə I: İran dər zaman-e Kərim xan, Tehran, 1955.) xüsusi əhəmiyyətə malikdir. Bu əsərdə İran xanlıqlarında inzibati-ərazi bölgü, şəhər və kənd həyatı, torpaq mülkiyyəti formaları, vergi və mükəlləfiyyətlər, əhalinin sayı, etnik, dini və silki tərkib haqqında müfəssəl məlumat var.



Xanlığın öyrənilməsində Rzaqulu xan Hidayətin "Rövzət üs-Səfa" (Rżaqulu xan Hidayət, Rövzət üs-şəfa IX cild, Tehran, 1960.) əsərindən geniş istifadə olunmuşdur.

Mövzunun tədqiqində Mehdi Bamdadın zəngin arxiv materialları, müxtəlif sənədlər əsasında yazdığı altı cildlik "Tarixi-ricali-İran" adlı əsərindən də yararlanmışdır.

Monoqrafiya, müəllifin Sankt-Peterburq, Tiflis və Bakı arxivlərindən topladığı külli miqdarda və müxtəlif materiallar, nəşr olunmuş ilk mənbələr, o cümlədən Qafqaz arxeoloqrafiya komissiyasının nəşr etdiyi Aktlar, Qafqaz təqvimi və s. inqilabdan əvvəl nəşr olunmuş mənbələr əsasında yazılmışdır. Müəllif bu mənbələrdən tənqidi surətdə istifadə etməyə çalışmışdır. Beləliklə, əsər külli miqdarda faktik material əsasında yazılmışdır.

Bu kitabı həm də Xalxal şəhərində apardığımız axtarışlar nəticəsində qələmə aldıq. Tədqiq etdiyimiz mövzuyla bağlı daha çox və daha qiymətli sənədlərin saxlandığı "Əsnadi Sazmani Milli İran" arxivinə giriş tapmadıq. Amma çalışdıq ki, toxunduğumuz mövzu yarımçıq, xam olmasın. İlk mənbələrdən başqa çoxsaylı elmi ədəbiyyatın tənqidi təhlili əsasında ərsəyə gətirdiyimiz bu əsər XVIII yüzilliyin ikinci yarısı-XIX yüzilliyin əvvəllərində Xalxal tarixinin əsas sahələrini əhatə edir, bəhs olunan dövrün dolğun elmi mənzərəsini yaradır.

Biz yerli mühitlə tanışlıq üçün üç dəfə Xalxalda olduq. Birinci dəfə dostumuz Murad Dirəxşanla şəhər və yaxın ətrafına baş çəkdik. Kitabxana və kitab mağazalarında vilayətin tarixi ilə bağlı kitablar axtardıq. Ziyalı, bilikli, bilgili şəxslərlə görüşdük. Məsləhət verdilər ki, bölgə irşad idarəsinə baş vurub, gərəkli qaynaq və ədəbiyyatla tanış olaq. İrşad idarəsinin rəisi ilə görüşdük. Kimliyimizi bildirib, xoş məramımızdan soraq verdik. Bu mədəniyyətdən kənar, irşaddan bixəbər "qəzil yumağı" rəis:

-Siz, "Xalxal tarixi" kitabı yazmaq üçün kimdən icazə almısınız?-deyə bizi qarşıladı.

Dərdimizə dərman tapmayıb dönməli olduq.

İkinci dəfə xanımım və oğlum Ərqunla Xalxala yollandıq. Bu dəfə bələdçimiz mühəndis İbrahim Muradi idi. Xalxalın tarixi, görməli yerlərini birər-birər gəzib, Ənzəli yolu ilə ayrıldıq.

Üçüncü dəfə dostum, BSU-nun dosenti, tarix üzrə fəlsəfə doktoru Mahal Qacarla bərabər Xalxala səfər etdik. Bu dəfə də bizi İbrahim Muradi müşaiyət edirdi. Hər guşə-bucağına baş çəkib, vilayətlə Astara yolu ilə vidalaşdıq.

Heç bir mübaliğəyə yol vermədən söyləmək olar ki, əsərimiz orijinaldır, birincidir və hələlik Azərbaycan tarixşünaslığında yeganədir.



# I FƏSİL

## Xalxalın tarixinə nəzər

"Xalxal" Cənubi Azərbaycanda yerləşən bir vilayətin adıdır. Bu adda oykonimlər XIII əsrdə indiki İran, XIX əsrdə Naxçıvan və Gürcüstan ərazilərində qeydə alınmışdır. Xalxal toponiminin tarixi bizim eranın ilk yüzilliklərinə aid edilir. Bu haqda danışan T.Hacıyev yazır ki, qərb qrupu dialektlərimizdə "mal-qara saxlanan daldanacaq", "koma", "xırda yaşayış yeri" mənasında işlənən "xalxal" sözü eramızın əvvəllərində hunlar tərəfindən tikilən Xalxal şəhərinin adı ilə bağlıdır.

Farsca qaynaqlara görə Xalxal kəliməsi, qadınların ayaq biləklərinə taxdıqları bilərziyin adı olub, şəhər adını bu zinyət əşyasından almışdır. Xalxal adının Türkcə əsilli olduğunu ifadə edən bir çox elm adamları da vardır.

Bu şəhər haqqında ilk məlumata Yaqut əl Həməvi və Həmdul-lah Qəzvininin əsərlərində də rast gəlirik. Digər bir müəllif M.Ka-lankatlının "Alban tarixi" əsərinə istinadən yazır: "Bizim eranın I minilliyində alban çarlarının indiki Qazax və Ağstafa zonasında qış iqamətgahları "Xalxal" adlanırdı. Bu söz Azərbaycan dilində son-rakı əsrlərdə də "mal ağılı", "qışlaq", "tövlə" mənalarında işlənmiş və bununla əlaqədar olaraq "Xalxal" kimi toponimlər yaranmışdır. Ehtimal ki, hələ V əsrdə mövcud olmuş Xalxal təkcə aran çarlarının qış iqamətgahı yox, ümumiyyətlə, aranlıların qışlağı olmuşdur".

Yuxarıdakı müəlliflərdən fərqli olaraq, M.Vəliyev (Baharlı) xalxallıları dərvişliklə məşğul olub, Səfəvilər dövründə Azərbay-cana gələn, köçəri həyat tərzi keçirən, sonralar ölkənin müxtəlif ərazilərində məskunlaşan bir tayfa kimi təqdim edir. Toponimin ilkin yaranışı heyvandarlıqla bağlı olsa da, sonralar məzmununu

itirmiş, zaman keçdikcə etnonim və oykonim kimi formalaşmışdır. Belə ki, XIX əsrdə Xalxallı tayfası kəngərlilərin bir qolu kimi Vayxır kəndində qeydə alınıb. Bu tayfaya məxsus ailələr kəndin indiki ərazisindən qışlaq kimi istifadə edib və zaman keçdikcə ərazini daimi yaşayış məntəqəsinə çevirmişlər.

Xalxal vilayətinin tarixi çox qədimdir. Tarixi qaynaqlarda eradan öncə 3-cü minillikdən eradan öncə 2-ci və 3-cü yüzilliklərə qədər alplar, iskitlər, kuttilərin buralara köçü və məskunlaşması, habelə assurların Xalxala hücumları və yağmalamaları ilə bağlı kifayət qədər məlumatlar mövcuddur. Bir sıra tarixçilərin qeydlərinə görə isə Xalxal və ətraf bölgələrinin əhalisinin soy kökü kaspilərə bağlanır. Nizami Gəncəvi özünün "Şərəfnamə" əsərində Makedoniyalı İskəndərin Şərqə hücumundan (eradan əvvəl 334-cü il) yazarkən Xalxalın adını çəkir və İskəndərin qoşununun buradan şərqə keçdiyini qeyd edir.

Bölgəyə aid arxeoloji məlumatlar demək olar ki, yox dərəcəsindədir. Bəzi bilgilərə rast gəlinir. 1964-cü ildə Xalxalda tapılan və tarixdən öncəyə aid olan saxsı küzə, eradan əvvəl birinci minilliyə aid olan bıçaq və başqa bu kimi tarixi tapıntılar bu şəhərin miladdan öncə mövcud olduğuna başqa bir sübutdur.

Xalxalın 5 kilometrliyində Azna (Kukavan) dağının şərq ətəyində mövcud olan mağara, Xucun yolunda mövcud olan tarixi kurqanlar da bu şəhərinin qədimiliyinə daha bir dəlildir.

Yaqut əl-Həməvi Xalxal haqqında belə deyir: "Xalxal şəhəri, Azərbaycanın şərq bölümündə, Gilana yaxın, əkinçilik sahələri və məmur məntəqələri çox olub, yüksək dağların arasında yerləşir. Xalxal-Qəzvin arası yeddi günlük, Xalxal-Ərdəbil arası isə iki günlük yoldur. Bölgə, dağlar və təpələrlə əhatə olunub. Əhalisi Monqol yürüşü sırasında buraya gəlib yerləşmişdir".

Yaqut əl-Həməvi Xalxal ətrafındakı dağlarda bir sıra alınmaz qalaların olduğunu bildirmişdir. Dağlar qoynunda səfalı və gözəl təbii şəraitə malik bir yer kimi təsvir etmişdir[1].

[1] Yaqut əl-Həməvi, Mucəmül-Büldan, C. III, s. 145.



Həmdullah Mustovfi "Nüzhətül-qulub" adlı əsərində bunu yazmaqdadır: "Xalxal, orta hallı bir şəhər olub, kənd özəlliyi daşımaqdadır. Xanəndəbil, Səcəsrud və Əncilabad nahiyələri ilə yanaşı, təxminən yüzə yaxın yaşayış məntəqəsi var. Qədimdən Firuzabad adındakı şəhər Dəlinir təpəsində, bölgəyə hakim bir mövqedə quruluydu. Bölgə hakimi burada əyləşir, bu hakimlərə Ağacəriyan/ Ağaçərilər (Ağaç+əri+yan) deyilirdi. Firuzabad xaraba halına gəlincə, Xalxal hakimlik mərkəzi/ hakimnişin oldu...".

Xanəndəbil, Xalxala bağlı kiçik bir bölgənin adıdır[2].

İlk İslam fütahtı dövründə adına mənbələrdə rast gəlinməyən Xalxal haqqında yalnız coğrafi əsərlərdə danışılır.

Səlcuqlular dövründə Xalxal Fəxrəddin Toğan Yürəkin iqtası idi. O, Sultan Mahmudun (Mahmud ibn Məhəmməd Təpər) əmirlərindən olmuşdu. Xalxalın sonrakı sahibi Əbdürrəhman Toğan Yürəkin oğludur. Bu şəxsin həyatının ilk illəri haqqında artıq bilgi tapılmamaqla birlikdə, ehtimalən atasının iqtası olan Xalxal bölgəsində böyüdü. 1138-ci ildə Fars əyaləti valisi Məngü Bars ilə Bozabanın Sultan Məsuda qarşı girişdikləri hərəkətə qatıldı. Ancaq daha sonra, Sultan Məsud tərəfindən bağışlanaraq onun əmirləri arasına daxil oldu. Biçili görüşləri və ölçülü harəkətləriylə qısa zamanda sultanın təvəccöhünü qazanaraq hacibIik mövqeyinə yüksəldi. 1145-ci ildə Rey hakimi Abbas və Fars valisi Bozaba, Sultan Məsuda qarşı yenidən hərəkətə keçincə, sultanla birlikdə Bağdada getmək məcburiyətində qaldı. Kürəkəni olan Arran valisi Çavlı Candarın Sultan Məsud ilə anlaşıb üsyançılara qarşı hərəkət etməsi və beləcə sultan üzərində nüfuz qazanmasına görə, kürəkəninin əleyhinə çalışmağa başladı. Çavlı bunu öyrənincə Bozabaya qatılaraq sultanın əleyhinə döndüysə də, Zəncana gəldiyi sırada öldü (1146).

Əbdürrəhman daha sonra kürəkənin ölümüylə boşalan Arran valiliyini əldə etmək istədi. Çünki bu bölgənin gəliri çox idi. Bundan dolayı Arrana hakim olanlar, dövlət idarəsində böyük bir güc və nüfuz sahibi olurdular. Buranı əldə etmək için Bozaba və

[2] Həmdullah Mustovfi Qəzvini, Nüzhətül-Qülub, s.81-82.

Abbas ilə anlaşmaqdan çəkinməyən Əbdürrəhman, bu əmirlər sayəsində Arran valiliyini ələ keçirdiyi kimi, oğlu Arqunu da Bağdad şihnəsi təyin etdirdi və idarədə söz sahibi oldu. Bu sırada gürcülərin Arran bölgəsinə basqınlarına görə bölgəyə getmək məcburyyətində qalması, onu ortadan qaldırmaq istəyən Sultan Məsuda gözlədiyi fürsətı verdi. Nəhayət, 1147-ci ildə Arranda səfər hazırlıqlarıyla məşğulikən Sultan Məsudun çox sevdiyi Əmir Xas Bəy tərəfindən öldürüldü.

Atabəylər dövründə Xalxalın hakimi Özbəkin məmlükü Balban əl-Xalxali idi.

Sultan Cəlaləddin Xarəzmişahın vəziri Şərəfülmülk sultan xəzinəsinə təyin olunmuş 50 min dinar məbləğində haqqı ödəməkdən boyun qaçıran Şirvanşahı cəzalandırmaq qərarına gəlir. Lakin Şirvana göndərilmiş cəza dəstələri vaxtında öz ölkəsini tərk edə bilmiş Şirvanşahla üzləşmədən geri dönməli olurlar. Bundan sonra Azərbaycana qayıdan vəzir, atabəy Cahan Pəhləvanın qızı Cəlaliyyənin mülkü olan Naxçıvanı ələ keçirmək istəyir. Lakin onun qoşunu şəhər müdafiəçilərinin əzmini qıra bilmir, özünü naxçıvanlıların köməyinə çatdıran hacib Hüsaməddin Əli döyüş meydanını tərk edərək, Şəmiran qalasında gizlənən vəziri əvvəl Mərəndə, oradan isə Təbrizə qaçmağa məcbur edir. Sonra isə Xoyu, Naxçıvanı, Mərəndi və Cəlaləddinin Azərbaycandakı digər mülklərini ələ keçirir. Lakin bu vaxt İraqdan qayıdan Cəlaləddin, vəzirin əldən verdiyi bütün nahiyələri geri qaytararaq, 1228-ci ildə Van gölünün şimal-şərqində yerləşən Bərkəri yanındakı döyüşdə hacib Hüsaməddin Əlinin ordusunu darmadağın edir. Bundan sonra o, atabəy Özbəyin sultana qarşı çıxış etmiş digər məmlükü - Balban əl-Xalxalinin sığındığı Firuzabad qalasını (Xalxal vilayətində) mühasirə edir. Təslim edilmiş Balban əlindəki qalaları Cəlaləddinə təhvil verməli olur. Sonralar, əvvəlcə əfv edilmiş, sonra isə yenidən hacib Hüsaməddin Əlinin tərəfində sultana qarşı çıxmış Balban həbs edilərək, sultanın əmrilə edam olunur.

Atabəylərin hakimiyyətindən sonra Xalxal monqolların əlinə keçir.



XIV əsrin əvvəllərində Xalxal haqqında məlumat verən Həmdullah Qəzvini isə Xalxalın bir vaxtlar kifayət qədər böyük şəhər olduğunu, indi isə yüzə yaxın məzrə ilə əhatə olunmuş kəndi xatırlatdığını qeyd edir[3]. Güman ki, Azərbaycanın digər şəhərləri, o cümlədən Avrasiyanın böyük bir qismindəki yaşayış məskənləri kimi, Xalxal da monqol vəhşətindən öz payına düşəni almışdı.

Tarixi mənbələr göstərir ki, ağacərilərin mühüm bir hissəsi Monqol yürüşləri ərəfəsində Təbrizdən Qəzvinə gedən yolun şərqindəki Xalxal bölgəsinə hakim olmuşlar[4].

Türk tarixçisi Z.V.Toğanın qənaətinə görə, qacarlar Azərbaycana Oğuz xanın İran səfərlərində gəlib yerləşmiş və monqolların Azərbaycana yürüşləri vaxtı Xalxal ətrafında yaşamışdılar. Hülaku ordusuna yardım edərək onlarla birlikdə Şam tərəflərinə göndərilmiş, Əmir Teymur və Qaraqoyunlular dövründə isə oradan təkrar Azərbaycana qayıtmışdılar[5].

Əmir Teymurun Səmərqəndə qayıtması ilə Azərbaycanda xalq azadlıq hərəkatı və hakimiyyət uğrunda mübarizə şiddətləndi. Əmir Teymurun işğal etdiyi ərazilərdən əmirlərinə qarşı əsasən, Sultan Əhməd Cəlayır və onun Əlincə qalasındakı əmirləri, Mahmud Xalxalinin idarə etdiyi feodal qrupu, Təbrizin yerli əmirləri, Marağa hakim Əmir Yadigarşah və Qara Yusifin başçılığı ilə qaraqoyunlular mübarizə aparırdı. Bu dövrdə Təbriz və ümumiyyətlə, Azərbaycan uğrunda mübarizədə iştirak edən qüvvələri iki hissəyə – xarici və yerli qüvvələrə bölmək olar. Xarici qüvvələrin (Təbriz əmirləri, Sultan Əhməd və Əmir Altun, Mahmud Xalxali, Marağa hakimi Yadigar şah) mübarizəsində Azərbaycanın müstəqilliyini təmin etmək cəhdləri mühüm yer tuturdu.

Göstərilən dövrdə Təbriz və ətrafı feodal ara müharibələrinin və xarici işğalçı yürüşlərin meydanına çevrilmişdi.

---

[3] Qəzvini, Nüzhətül-Qülub, s. 84.

[4] Toğan Z.V. Ümumi türk tarixinə giriş, c. 1, s. 171.

[5] Toğan Z.V. Azerbaycan etnografisine dair, Azerbaycan Yurt Bilgisi, c.II, sayı 14, İstanbul,1933, s. 56.

Təbriz şəhərinin ələ keçirilməsi bütün Azərbaycanı tutmaq üçün əsas olduğundan şəhər uğrunda mübarizə olduqca ciddi şəkil almışdı. Təbriz 22 dəfə hücuma məruz şalmışdı, bunlardan 14-ü yerli, 8-i isə xarici feodallar tərəfindən edilmiş, 18 hücumun nəticəsində şəhərdə hakimiyyət bir feodaldan digərinin ixtiyarına keçmişdi. Nəhayət, Təbriz 1392-ci ildə ikinci dəfə İrana və Cənubi Qafqaza hücum edən Əmir Teymurun qoşunları tərəfindən tutulmuşdu.

Azərbaycanın digər bir tanınmış feodalı Əmir Vəli də Əmir Teymura qarşı mübarizə aparırdı. Tarixçi Zeynəddin Qəzvini yazır: "Əmir Vəli Təbrizə çatan kimi Mahmud Xalxalinin yanına adam göndərib onu özü ilə müttəfiq etdi"[6]. Mahmud Xalxali sonra Əmir Teymurla birləşmişdi.

Adları ilk dəfə Monqol imperiyası dağılınca duyulan Ağ və Qaraqoyunlular bir-birlərinə rəqib, birər el federasiyası idilər. İlkinə Bayındır oymağı rəisləri, ikincisinə isə Barani (Baranlu) ailəsi hakimdi. Ağqoyunluların ilk mərkəzləri Diyarbəkir, Qaraqoyunlularınkı isə Ərciş idi.

Əmir Teymur cəlairləri təhdid edərkən qaraqoyunlular onları müdafiəyə qalxdılar. Bir neçə qələbə qazansalar da, saysız ordunun basqısı altında Anadolu tərəfə çəkildilər. El başçıları Osmanlı sarayına sığındılar. Əmir Teymur Anadoluda görünəndə qaraqoyunlular qaçıb Misir məmlüklərinə pənah apardılar. Məmlük sultanı Əmir Teymurun basqısı altında el başçısını zindana atdı.

Əmir Teymurun vəfatından sonra zindandan çıxan el başçısı tez bir zamanda qaraqoyunluları toplayıb, teymurluları yenib, Azərbaycanda, paytaxtı Təbriz olan dövlət qurdu.

***

İkisi də köçəri el federasiyaları olaraq tanınan Ağ və Qaraqoyunluların Qərbi Azərbaycan, Yuxarı Mesopotamiya və Anadoluya Səlcuqlular dövründə yerləşdikləri və buralardan

[6]Zeynəddin bin Həmdullah Qəzvini, Zeyle-tarixe-qozide, Bakı, "Elm", 1990, səh.49.



hərəkətlə ətrafa doğru yayıldıqları da qeyd edilir. Bir görüşə görə bu adların qaynağı onların öz bayraqlarında Ağ və Qara rəngli qoyun rəsmləri daşımalarıdır. Daha yayğın bir görüşə görə isə bu adlar ovçuluqla yaşadıqları dönəmdən qalma bir totem inancını ifadə etməkdədirlər.

Amma Faruq Sümerin də işarət etdiyi kimi bu ana qədər nə onların bayraqlarında bu cür rəsmlər olmadığı, nə də totemlərinin hamısı "əti yeyilməyən ovçu quşlardan" olan Oğuz boylarında qoyun toteminə rastlandı.

Minorski bu adların onlara aid sürülərin rəngi və ya cinsi ilə ilgili ola biləcəyini düşünür ki, bu mümkünlüyü Faruq Sümer də ağla uyğun hesab edir[7]. Müxtəlif qaynaqlarda Ağqoyunlu konfederasiyasına daxil olan oymaqlar belə verilir: Bayındır, Bayat, Dügər, Çəpni, Ərəbgirli, Duxarlı, Hacılı, Pörnək, İnallı, Özər, Çakırlı, Köpəkli, Biçənli, Bayramlı, Mosullu, Xoca Hacılı, Avşar, Cahangirli, Ağmalı, Ağacəri, Zülqədər, Saatlı, Alpavut, Qacar və Qaramanlı.

Bu oymaqların bir çoxuna ilkin Qaraqoyunlu, sonra Ağqoyunlu, daha sonra da Səfəvilər səfində rastlaşırıq. Oymaqlar səf dəyişib, yüksəliş halındakı gücə qatılmışlar.

F. Sümer XIV və XVI yüzillərdə Anadolunun cənubunda Qaraqoyunlu (və ya Qaracaqoyunlu) oymağı ilə bağlı və ya onlarla siyasi ilişki içində görünən el və oymaqların siyahısını verir: Qaraqoyunlu oymağı (əsas oymaq), Səədli (Qaraqoyunlu ulusunu təşkil edən ən qüvvətli iki oymaqdan biri), Baharlı (Həmədan bölgəsindən olan bu oymaq Qaraqoyunlu dövlətinin əsl dayanağını təşkil edən iki oymaqdan biri olaraq görünür), Duxarlu (Qədimdən bəri Ərzurum-Bayburd ətrafında yaşayırdı), Qaramanlı (F. Sümer, bu oymağın öz adını Qara Yusifin çağdaşı Gəncə və Bərdə hakimi Əmir Qaramandan aldığını və Şah İsmayılın bəylərindən Bayram bəyin bu oymaqdan olduğunu düşünür), Alpavut, Çəkirlu/Cakirlu (Adını Cəlayirli əmirlərdən Əmir Cakirdən aldığı söylənilir), Ayinli, Hacılı, Ağacəri, Dügər, Bayramlı (Adını Xoy şəhərinə sahib

[7] Faruk Sümer, Kara Koyunlular: Başlangıcından Cahan-Şaha qədər, I. Cilt, TTK Basımevi, 1967.

Qara Yusifin əmirlərindən Bayram bəydən almışdı), Süleymani, Zırki, Mahmudi və başqaları.

Qaraqoyunlular Kürd aşirətlərindən 50 min evlik bir el vücuda gətirib buna Qara Ulus adını vermiş və Qaraqoyunluların xidmətində olmuşlar[8].

Qaraqoyunlu eli göstərdiyimiz kimi ayrı-ayrı oymaqlardan təşkil olmuşdu. Elə Ağacarı, Ayinli, Alpovut, Arqun, Baranlı, Baharlı, Bayramlı, Qaramanlı, Dügərli, Əmirli, Səədli, Cəgirli, Hacılı və digər oymaqlar bağlıydılar. Elin aparıcı oymağı Baranlı idi[9].

Şirvanşahı İbrahim ilə Gürcü kralı II Konstantinin birləşmiş qüvvələrinə qarşı savaşa hazırlanan Qara Yusif bəy, bu siyasətlə Güney Azərbaycanın yerli feodallarının dəstəyini almaq hədəfləməkdəydi. Bu səbəblə o, ən yaxınlarından başlayaraq bir çox nəfərə soyurgallar dağıtmaya başladı; məsələn bacısoğlu Əmirəlümərə Bəstam bəyə, Ərdəbil və Xalxal bölgələrini soyurgal olaraq verdi. Əsasən, Bəstam bəy və onun sələfləri öncələri də Ərdəbil və civarını idarə edirdilər. Qara Yusif bəy, bu hərəkətiylə bunu feilən təsdiq etdi[10].

Cagir bəyin ikinci oğlu Mənsur bəy Azərbaycanın tanınmış əmirlərindən idi. 1392-ci ildə Təbriz şəhərinin hakimi olmuşdu. Qara Yusif bəyə qarşı üsyan etmişdi. 1413-cü ildə Qara Yusif bəy onu tutdu. Zindana atdırdı. Az sonra azad edib Ərdəbil, Xalxal və Şahruda hakim təyin etdi. Yerində möhkəmlənən kimi yenidən üsyana başladı.

Mənsur bəyin Məhəmməd bəy adlı oğlu vardı.

Məhəmməd bəyin Ərdəbil və Xalxalda soyurqal torpağı vardı. Əbdürrəzzaq Səmərqəndi bildirir ki, o, Qara Yusifə qarşı çıxmışdı.

---

[8] F. Sümer, gös. əsəri, s. 13-32.

[9] Çingizoğlu Ə. Baharlılar, Bakı, "Mütərcim", 2012, 176 s.

[10] F. Sümer, Kara Koyunlular, Ankara, 1984, səh. 84; O. A. Əfəndiyev, "Институт Суйуркал Тсентраллистыская Политика Правителей Аккойунлу и Первых Сефевидов" Форми Феодалной Земелной Собственности и Владенийа на Ближнем и Среднем Востоке. Бартолдовскийе Чтенийа 1975, səh. 168.



***

Ağqoyunlu tayfa ittifaqının Şərqi Anadoluya gəlişi tarixi haqqında ən dəqiq bilgini, Ağqoyunlu xanədanlığının tarixi olan, Əbu Bəkr Tihraninin «Kitabi-Diyarbəkiriyyə»sində tapmaq mümkündür. Dövlətin qurucusu Qara Yuluq Osman bəyi, Bayandur xan vasitəsiylə, 52-ci nəsldə Oğuz xana bağlayan tarixçi, oymağın ilk əvvəl XIII yüzilin əvvələrində Şərqi Anadoluya gəlib, Monqol istilasına qarşı qoyduqlarını, gedərək oranın camaatına hakim olub, bu arada Trabzon Rum dövlətinə və gürcülərə qarşı da səfərlərə girişdiklərini qeyd edib.

Tərəkəmə, köçəri bir türkmən toplumu olan Ağqoyunluların adlarının, bəslədikləri sürülərdən verilmiş olması dəqiqdir. Çeşidli farsca və ərəbcə qaynaqlar, Ağqoyunluların mənşəyindən bilgi verməklə, Səlcuq və Artuqlu bəylərindən olduqlarını ifadə etmələrinə qarşı, yuxarıda adı çəkilən Ağqoyunlu tarixi olan «Kitabi-Diyarbəkiriyyə»də, Ağqoyunluların aparıcı oymağı olan bayandurların Oğuz xan nəslindən gəldikləri bildirir. Buna görə, oğuzların Bayandur boyunun başçılığı ilə qurulmuş Ağqoyunluların, Məhəmməd peyğəmbərin dövründə (VII yüzil) Qıpçaq ölkəsinə, oradan da Arrana gəldiklərini, Səlcuqların dönəmində bu dövlətin xidmətinə girdikləriini və Diyarbəkr bölgəsinin özlərinə iqta olaraq verildiyini qeyd etməkdədir.

Oğuzların Bayandur boyundan olan Ağqoyunluların tarixi, 1300-cü illərdən etibarən bilinir.

Ağqoyunlulardan bilinən ilk tarixi sima, Turəli bəydir. Qaraqoyunlu dövlətini yıxaraq (1469), onun yerinə böyük bir Türkmən dövləti halına gələn Ağqoyunlular Marağa vilayətini də əhatə edirdi.

Əlvənd bəy Bayandurun hakimiyyəti dönəmində (1498-1501) Cagir bəy Pörnək Xalxala başçılıq etmişdi. Ona Şeyx Heydər Səfəvinin oğlu İsmayılı tapmaq tapşırılmışdı. O, Gilan hakimi Müzəffərə məkyub yazıb şeyxzadənin tapılmasını istəmişdi.

***

Səfəvi sülaləsinin banisi Şah İsmayıl Səfəvinin Səfəvilər dövlətini qurmağa başladıqda Tarım mahalını aldıqdan sonra Xalxalda dayanaraq 1500 yeni savaşçı topladığı və buradan Ərdəbilə doğru yollandığı bildirilir. İskəndər bəy Münşi yazır: " Karkiya Mirzə Əli var-dövlətinin imkan verdiyi qədər peşkəşlər təqdim edərək, layiqincə xidmət göstərdi və bir neçə fərsəx onu müşayiət edərək, [İsmayılın] qulluğunda olan qüdrətli dövlət ağsaqqallarına lazımi məsləhətlər verdikdən sonra onları Allah amanında mətləbə tərəf yönəltdi. Elə ki Taruma çatdılar, Rum və Şam sufilərindən təqribən min beş yüz nəfəri sədaqət qapısından keçərək, [İsmayılın] fələk kimi uca dərgahında cəmləşdilər. Oradan Xalxala təşrif gətirdilər. Xalxaldan Ərdəbilə getdilər"[11].

Qaynaqlarda yazılır ki, İsmayıl mirzə və yandaşları öncə Deyləmdə sonra isə Tarumda düşərgə saldılar. Müşavirlərin təbliğatı nəticəsində Rum və Şam sufiləri gələrək onlara qatılan[12] müridlər, təqribən 120[13], digər bir bilgiyə görə 300[14] və başqa bir görüşə görə isə 1500[15] nəfər idilər[16]. Tarum hakimi Hüseyn sultan Türkman bu xəbəri alınca 700 nəfərlə birlikdə Tarumun dörd fərsəxliyinə gələrək onlarla savaşmağa hazır oldular. İsmayıl mirzənin bundan xəbəri olmasa[17] da sonunda oradan qaçaraq Xalxala doğru getdilər.

Orada Bərəndik[18] kəndində gecələdikdən sonra ertəsi gün İsmayıl, qovun yemək bəhanəsi ilə Qızıl Özən Şamı adı ilə də ünlü olan Şamlı məzrəsinə gedərək xanədanın Şamlı müridlərini

[11]İskəndər bəy Münşi Türkman, Tarixi-aləmarayi-Abbasi, Bakı, "Təhsil, 2009, I cild, 792 səh. s.66.

[12]Cahanqüşa-yi xaqan, s. 89; Əhsənüt-təvarix, s. 41.

[13]Aləm-ara-yi Şah İsmayıl, s. 44.

[14]Həbibüsiyər, s. 448.

[15]Cahanqüşa-yi Xaqan, s. 9; Əhsənüt-təvarix, s. 41; Minorski, Saziman-i İdari, s. 246; Xüld-i Bərin, s. 79.

[16]Cahan-qüşa-yi Xaqan, s. 9; Əhsənüt-təvarix, s. 41.

[17]Aləm-ara-yi I Şah İsmayıl, s. 44.

[18]Fərhəng-i coğrafiyai-yi İran, c. IV, s. 88; Yusif Cəmali, s. 127.



toplamaya çalışdı. Məzrənin sahibi Şeyx Qasım qonaqlarını ağırlamaq üçin 40 qoyun qurban etdi[19]. Bir neçə gün sonra İsmayıl mirzə Xalxala bölgəsində olan Neysaz (Nesaz) kəndinə gedərək orada iqamət etdi. Oradan da İsmayıl mirzə, Xalxala bağlı Küri (Kivi) kəndinə gedərək Xülafa bəy adı ilə də ünlü olan Məlik Müzəffər Toğacinin evinə düşdü. Məlik Müzəffər İsmayılın qardaşı Sultan Əli mirzənin müridi və toğaclı tayfasından idi. İsmayıl ilə yandaşları orada bir ay qaldıqdan sonra Ərdəbil yaxınlığındakı Səsabad[20] (bəlkə Hefezabad[21]) kəndinə gəldilər. İsmayılın yolu üstündəki kəndlərə başvurmasının səbəbi onun yolunu gözləyən mürid və sufiləri toplamaq idi.

104440

I Şah Təhmasibin hakimiyyəti dövründə də Xalxal və ətrafı önəmli rol oynamışdı.

1526-cı ildə ətrafına xeyli adam toplayan Mustafa bəy (Köpək sultan Ustaclı) Xalxaldan Sultaniyyəyə gəldi. Ona qoşulmuş Ustaclı əmirləri, Qılınc xan Təmişli, qorçubaşı Bədr bəy Şərəfli, Qurd bəy Şərəfli və başqaları ilə birgə şah qərargahına hərəkət etdi. Vəkil Əli bəy Rumlu barışıq üçün elçi göndərsə də ustaclılar ona etibar etmədilər. Səksəncək adlı yerdə qarşılaşdılar. Öncə ustaclılar qalib gəldilər. Onlar adlı-sanlı təkəli əmirlərindən olan Qaraca sultanı və Burun sultanı öldürdülər. Sonra şahdan və şahın qvardiyasından istifadə edən rumlular və təkəlilər üstünlük qazandılar. Ustaclı qoşunu basılıb qaçdı. Qaçanlar Rəştə üz tutub Müzəffər sultana sığındılar.

Sultan Şah Məhəmməd Xudabəndənin hakimiyyətinin ilk günlərində ölkə Qızılbaş əmirləri arasında bölüşdürüldü. İskəndər bəy Türkmən yazır: "İsgəndər şanlı nəvvab ölkənin məmləkətlərini əzəmətli qızılbaş əmirləri arasında böldü.

Təbriz darüssəltənəsinə Əmir xan Mosullu təyin edildi və onun məsləhəti ilə qardaşları İsmayıl sultan və Şahqulu sultan, oğlu

[19]Cahan-qüşa-yi Xaqan, s. 90; Xüld-i Bərin, s. 79.

[20]Əhsənüt-təvarix, s. 42.

[21]Fərhəng-i coğrafiyai-yi İran, c. IV, s. 178.

Sultan Murad xan və türkman piyadası İbrahim sultan əmirlik rütbəsi ilə sərəfraz oldular və onlara Azərbaycanda *ülkalar* verildi.

Çuxur-Sədin əmirülüməralığı cənnətməkan şahın fərmanı ilə Məhəmmədi xan Toxmaq Ustaclının əlində idi, lakin İsmayıl mirzənin əmri ilə İmamqulu xan Qacara verilən Qarabağ əmirülüməralığı Məhəmmədi xan Toxmağa tapşırıldı. Şirvan əmirülüməralığı və Şirvanın bütün mülkiyyəti Ərəs xan Rumluya şamil edildi. Ərdoğdu xəlifə Təkəliyə, rumlu və başqa tayfalardan olan əmirlərə də Şirvanda ülka verdilər. Vəli xan Təkəliyə Bəndan əyaləti verildi və o, ora göndərildi.

Ustaclı əmirlərindən Mürşüdqulu xan Yegana Dürtacir və Xorasanın bəzi yerləri, onun qardaşı İbrahim xana isə Əsfərayində *ülka* verildi. Tərşizi Mahmud xan Sufioğluya, Xafı isə Vəli xan Çərxçibaşıya inayət etdilər. Xəbuşanı və Xorasanın bəzi yerlərini Budaq xan Çekəniyə tapşırdılar, Ağzıvar xan Şamlının oğlu Əbülfəth xana - Xoşxəbər xana Kusuyə və Guryanda ülka verdilər.

Qorçibaşılardan olan Vəli xan Əfşara Kirman darüləmanı çatdı, Kuhguluyə isə Xəlil xan Əfşara verildi. İraq mahalı əksərən ali dərgahın əmirləri arasında bölüşdürüldü. Məğlubedilməz əmirlərdən olan Əmir xanın qohumu Məhəmməd xan Mosulluya Kaşan, Sultanhüseyn Şamlıya isə Qəzvin darüssəltənəsi verildi. Qum ülkası keçmişdə olduğu kimi Heydər sultan Çabuq Türkmana, Savə isə Əbülməsum sultan Tərxan Türkmana mərhəmət olundu. Rey ülkası Müseyib xan Təkəliyə, Xar və Semnan - Şahqulu sultan Beytoğlu Zülqədərə, Savə, Çeblağ, Cuşqan və ərəblərin yaşadıqları bəzi yerlər Şahrux xan Möhdara, Tarum, Xəlxal və oraların bəzi yerləri Pir Məhəmməd xan üçün müəyyən edildi"[22].

Pirə Məhəmməd bəy Ustaclı elinin Çavuşlu oymağından idi. O, I Şah Təhmasibin fərmanı ilə 1571-ci ildə Gilan əyalətinin Biyəpiş vilayətinin hakimi təyin olunmuşdu. Pirə Məhəmməd bəy şahın oğlu İmamqulu mirzənin ləl̇əsi idi.

[22]İskəndər bəy Münşi, Tarixe-aləmaraye-Abbasi, Bakı, "Təhsil", 2009, 792 s. səh.455.



II Şah İsmayıl ilk növbədə yerinə keçə biləcək şahzadələri məhv etməyi qərara aldı. O, bu məqsədlə Mustafa mirzəni «himayə etməyi» adlı-sanlı ustaclı əmirlərindən olan Pirə Məhəmməd xana tapşırdı. Ustaclı həmtayfaları başa düşürdülər ki, şah onların «taxt-taca sədaqətini» sınaqdan keçirmək üçün dəhşətli üsul düşünmüşdür. İskəndər bəy Münşinin dediyi kimi, Pirə Məhəmməd öz əlini şah sülaləsi nümayəndəsinin qanına bulamaq istəməsə də qəzəbli şahın əmrindən boyun da qaçıra bilməzdi. Çünki o, öz tayfasının şah qarşısındakı günahını yumaq istəyirdi. Beləliklə, Mustafa mirzə Pirə Məhəmməd xanın evinə çatdırıldı və bir neçə gündən sonra boğulub öldürüldü.

Pirə Məhəmməd bəy Şah Sultan Məhəmməd Xudabəndənin hakimiyyəti illərinin ilk çağında, 1578-ci ildə xan ünvanı ilə Ərdəbil hakimi təyin edildi. Bir müddətdən sonra, 1580-ci ildə saraya çağrıldı.

Əliqulu xan (Şamlı-Ə.Ç,) 200-300 nəfərdən ibarət əmir və qorçularla 1585-ci il martın 27-də Ərdəbilə daxil oldu və "müqəddəs türbəni" (Şeyx Səfiəddin Səfəvinin qəbrini) ziyarət etdi. Əliqulu xan səkkiz gün Ərdəbildə qaldıqdan sonra Xalxal şəhəri istiqamətində yola düşdü. Xalxalda qoşun toplamaq üçün 10-15 gün qaldı. Lakin bu şəhərdə qoşuna qoşulan olmadı[23].

1593-cü ildən etibarən qızılbaşlara tabe edilən Azərbaycan vilayətləri-Zəncan, Xalxal, Ərdəbil, Qaracadağ, Talış, Qızılağac, Lənkəran, Qızılüzən və Kür çayları arasında yerləşən geniş ərazi vahid Azərbaycan bəylərbəyliyində birləşdi. Bu bəylərbəyliyə Fərhad xan və Zülfüqar xan Qaramanlı qardaşları növbə ilə başçılıq edirdilər. 1595-ci ilə qədər bəylərbəyliyin qoşununun sayı 10 minə çatırdı (süvari və piyada) və "Azərbaycan qoşunu" adlanırdı. 1594-cü ildə Şah Abbas bəylərbəyliyin maddi bazasını möhkəmləndirdi. Beləliklə, Şah Abbas Azərbaycanın bütövlüyünü, qızılbaşların himayəsindəki ərazidə onun "vüqarlı adını qorudu, onun Səfəvilər dövlətinə mənsub olması fikrini sönməyə qoymadı".

[23]Qazi Əhməd Qumi. Xülasət ət-təvarix, Berlin nüsxəsinin fotosurəti, vərəq 493a.

# II FƏSİL

## Xalxal xanlığının yaranması tarixindən

XVIII yüzilliyin əvvəllərində Azərbaycan torpaqları inzibati cəhətdən dörd vahidə - Azərbaycan və ya Təbriz, Qarabağ (Gəncə), Şirvan və Çuxursəd (İrəvan) bəylərbəyliklərinə bölünmüşdü. Xalxal vilayətini də adətən şah tərəfindən təyin olunmuş hakimlər idarə edirdilər. Bəylərbəylik əyalət sayılırdı. Əyalət vilayətə, vilayət qəzaya, qəza mahallara, mahal nahiyələrə bölünürdü, lakin bu bölgü heç də həmişə gözlənilmir, çox vaxt xırda inzibati dairələr irsi mülklər – "ölkələr" kimi mövcud olurdu.

Başbakanlıq Osmanlı Arxivində saxlanılan Xalxal və Urmiya livalarının müfəssəl dəftərindən (N-910) aydın olur ki, Xalxal livasının ancaq Əzdəgin (Kağızkünan) nahiyəsində 101 kənd, 19 məzrə»ə, 1 yaylaq, 2 qışlaq və 1 duz mədəni varmış. Nahiyədə dənli bitkilərdən buğda, darı və mərcimək əkilirmiş. «Dəftər»dən nahiyə sakinlərinin maldarlıqla məşğul olduğu da anlaşılır[24].

Şah Sultan Hüseynin (1694-1722) hakimiyyəti çox zəif idi. XVII yüzilin sonu- XVIII yüzilin önlərində Səfəvi İranı qorxunc bir iqtisadi və siyasi böhran keçirirdi. Ölkənin mərkəzi və şərq hissəsi əfqan işğalı altına düşmüşdü. Azərbaycan, Şirvan, Qarabağ və bunlarla həmsərhəd ərazilər Türkiyə (Osmanlı dövləti) tərəfindən işğal olunmuşdu. Rusiya da Qafqazda böyük fəallıq göstərməyə başlayırdı. 1723-cü ildə I Pyotr Bakı üzərinə yürüş etmiş və Xəzərboyu əraziləri zəbt etmişdi.

İrana qalan Ərdəbil şəhərinin kənarından Təbriz tərəfə bir saat hərəkət edib orada bir nişan qoymaq, bu nişandan Kürlə Arazın

[24] Başbakanlıq Osmanlı Arxivi, NN, № 910, v.1-35.



qovuşduğu yerə bir düz xətt çəkmək, xətdən Ordubad və Təbriz tərəfdə olan Azərbaycan vilayət və mahalları (Ordubad, Təbriz, Mərənd, Marağa, Urmiya, Xoy, Çors, Salmas və digər yerlər, o cümlədən Qarabağ, Naxçıvan, İrəvan, Üçkilsə) Osmanlı dövlətinə keçməli idi; Ərdəbilin bir saatlığındakı nişandan Həmədana doğru Həmədandan Osmanlı imperiyasına keçəcək Kirmanşaha kimi düz xətt çəkməli, bu xəttin daxilinə düşən ərazilər (Ərdəlan, Kürdüstan və s.) osmanlılara qalmalı idi. Ərdəbildən Kürlə Arazın qovuşduğu yerə kimi çəkilən xətdən dənizə tərəf olan ərazi Rusiyaya keçməli, yerdə qalan ərazilər İranda qalmalı idi[25].

Rusiya layihəsindən fərqli olaraq, Osmanlı layihəsində tərəflərə onlara ayrılmış torpaqların hər hansı məntəqəsində hərbi istehkam qurmağa icazə verilirdi. Bu layihədə qeyd olunurdu ki, II Təhmasib yuxarıda qeyd olunmuş torpaqları verməkdən imtina etdiyi halda razılığa gələn tərəflər bu torpaqları, o cümlədən bufer kimi qalan torpaqları zorla almalıdırlar. Sonra Səfəvi taxt-tacına digər şəxsi oturtmaq gərəkdir[26]. Əgər Təhmasib nəzərdə tutulmuş əyalətləri Osmanlı imperiyası və Rusiyaya könüllü verərdisə, onda Osmanlı hökuməti onu İran şahı kimi tanımağı və ona İsfahanın əfqanlardan azad edilməsində kömək göstərməyi öhdəsinə götürürdü[27]. Ancaq Neplyuyev bu layihəni Osmanlının Ərdəbil şəhərinə aid iddialarını nəzərdə tutduğuna və onun qəsbkar Mir Mahmudla əlaqələr saxlamayacağı haqda bənd daxil edilmədiyinə görə qəbul etmədi[28]. De Bonak layihəni Mir Mahmud haqqında bəndsiz qəbul etmək üçün Neplyuyevi inadla dilə tutdu, əks halda vasitəçi rolundan imtina edəcəyi və rezidentin sazişi ağılsızcasına pozduğu, öz hökmdarına fayda arzu etmədiyi haqda Rusiyaya yazacağı ilə

[25] BOA. Name-i Humayun Defteri, nr. 7, s.78. Belgeler, II c., nr.21, s.32-33, 286-287.

[26] Архив Внешней Политики Российской Империи (АВПРИ), f.89, op.1, d.1724 q., d.6, ç.2, ll.380-382.

[27] Yenə orada, v.381-382.

[28] Yenə orada, vər. 366 arxası.

onu hədələdi[29]. Neplyuyev De Bonaka cavab verdi ki, əgər bu bənd müqaviləyə daxil edilməzsə, onda Osmanlı Mir Mahmudu, Hacı Davudla münasibətdə etdiyi kimi, himayəyə qəbul edər[30].

1724-cü ildə İyunun 11-də daha bir konfrans keçirildi. Osmanlı nümayəndələri İ.Neplyuyevə Səfəvi dövlətinin saxlanılması barəsində, həmçininn prinsipcə qəsbkar Mir Mahmuda münasibət haqqında razılaşdılar, lakin hələ müvafiq bəndin mətnə daxil edilməsinə razılıq verməmiş yenidən Ərdəbilə aid iddialarında israr etməyə başladılar. De Bonak da, Neplyuyev də buna etiraz edərək, dedilər ki, «çardan rezidentə ciddi surətdə Ərdəbilin osmanlılara keçməsinə razılıq verməmək tapşırılmışdır, o, «iki imperiya arasında sədd kimi qalacaq yeganə şəhərdir»[31]. Ərdəbilin əvəzində Sultaniyyə şəhərini tələb edən Osmanlı tərəfinə bildirildi ki, Ərdəbil də, Sultaniyyə də əzəli Osmanlı torpaqlarından uzaqlarda yerləşir, bundan əlavə, II Təhmasibə cəmi üç iri şəhər - Qəzvin, Ərdəbil və Sultaniyyə qaldığından bunlardan ikisini almaq yolverilməzdir[32].

1724-cü il iyunun 13 (24)-da keçirilən sonuncu konfransda Ərdəbil haqqında 6 saat səmərəsiz mübahisələr getdi. Osmanlı tərəfi Osmanlı torpaqlarının sərhədlərini Arazın Kürlə birləşməsindən Həmədana qədər elə müəyyən olunmasını tələb edirdi ki, Ərdəbil da Osmanlı zonasına düşsün. De Bonak taklif etdi ki, osmanlılar, Ərdəbili çıxaraq, bu xətti arzu etdiklari kimi aparsınlar. Lakin Neplyuyev bu təkliflə razılaşmırdı. Mübahisələr gecə saat 2-ya kimi çakdi. Nahayat, Osmanlı nümayəndələri dedilər ki, sülh arzu etdiklari üçün, onlar Ərdəbil şaharinin özünü İrana saxlamağa, ancaq ona bitişik bütün torpaqların Osmanlı dövlatina birləşdirilməsinə razıdırlar. Son nəticədə tərəflər de Bonakın Ərdəbilin və birsaatlıq məsafədə ona bitişik torpaqların II Tahmasibə saxlanmasını nəzərdə

[29] Yenə orada, v.316 a.ü., 366 a.ü., 367.

[30] Yenə orada, v.317 ob.

[31] Yenə orada, v.371 ob. –372 ob.

[32] Yenə orada, v.372, a.ü. –373.



tutan təklifi ila razılaşdılar. Qərara alındı ki, hər bir tərəf sonradan dəyişdirmək üçün müqavilanin mətnini hazırlasın[33].

Sülh danışıqlarının gedişini əks etdirən sənədlərin təhlili göstərir ki, 1723-1724-cü illərdə İstanbulda keçirilən danışıqlarda başlıca mübahisə obyekti Azərbaycan torpaqları idi. Osmanlı tərəfi Rusiyadan heç bir hüququ olmadığı üçün Dərbənd və Bakıdan əl çəkməsini tələb edirdi. Rusiya isə bütün sahilyanı zonanın ona, Ərdəbil, Təbriz və Sultaniyyə şəhərlərinin İrana qalmasını istəyirdi.

1725-ci ilin sonunda osmanlılar 1724-cü il İstanbul müqaviləsina əsasən İrana qalmalı olan Ərdəbili da tutdular[34]. Artıq Təbriz hakimi olmuş Abdulla paşa 1726-cı ilin avvalinda general Levaşova məktubunda yazırdı ki, Ərdəbili onlar II Tahmasibin özünü osmanlıların düşməni kimi aparmasına cavab olaraq alə keçirmişlər[35].

Ruslar və osmanlılar Xalxalı ələ keçirmək üçün çəkişirdilər. 1727-ci ildə ruslar Astaranı, bir qədər sonra Lənkəranı da ilhaq etdilər. 1724-cü il müqaviləsinə görə, Azərbaycanın Kür çayından cənubda rus işğal zonasına daxil olmuş Xəzəryanı əyalətlərin hakimlərinin əksəriyyəti rus ordusunun üstün qüvvələrinə müqavimətin qeyri-mümkünlüyünü başa düşürdülər. Xəzərdən bir az aralı olan Xalxal vilayəti hələlik nə ruslara, nə də osmanlılara tabe olmurdu.

Rus hərbçilərinin Xəzəryanı regionda özbaşına hərəkətləri Azərbaycanda Rusiya-Osmanlı münasibətlərini yenidən kəskinləşdirdi. Buna bəzi yaşayış məntəqələri, xüsusən onların Xalxal üstündə ixtilafı da təsir edirdi. 1728-ci il avqustun 2-də Ali Məxfi Şurada qarara alınmışdı ki, Xalxal Xəzər dənizi in yaxınlığında yerləşdiyindən va rus zonasında yerləşən Kərgərudla həmsərhəd olduğundan general Levaşov osmanlıları ora buraxmamalı, bunu, Rusiya-Osmanlı müqaviləsinə görə, Xalxalın İran zonasında yerləşməsi ilə əlaqələndirməlidir[36]. Osmanlı tərəfi öz iddialarından imtina etmədiyi halda Levaşov Xalxalın bitərəf ərazi sayılmasını təklif etməli

[33] AVPRİ, f.89, op.1, 1724 q.,, d.6, ç.2, l.374-376.

[34] AVPRİ, f.77 (SRT), op.1.

[35] Yenə orada, iş.4, v.273.

[36] BOA. Hatt-ı Hümayun, nr.6700 B.

idi[37]. Eyni zamanda, əgər osmanlılar Astara və Kərgəruda daxil olmağa cəhd etsə idilər, Levaşov buna yol verməməli, lazım gələrsə, silah işlətməli idi[38]. 1728-ci ilin iyununda Osmanlı hökuməti Neplyuyevdən Levaşova Xalxala qoşun göndərməməsi barədə məktub yazmağı tələb etdi[39]. Neplyuyev bu tələbi yerinə yetirmədi, ancaq onun barəsində öz hökumətinə məlumat verəcəyini bildirdi[40].

Xalxal vilayəti bir müddət üsyan mərkəzi olmuşdu. 1726-cı ilin yazında Gəncədən Təbriz və Ərdəbilə qədər geniş bir ərazidə Osmanlı dövləti əleyhinə silahlı çıxışlar baş verirdi.

1726-cı ilin mayında Köprülü Abdulla paşanın oğlu vəzir Əbdürrəhman paşa 20 min nəfərlik qoşunu üsyan etmiş şəqaqi tayfaları və şahsevənlərin üstünə yeritdi və Ərdəbil yaxınlığında onlarla vuruşmalı oldu[41].

1727-ci ildə ilk öncə Qaradağ vilayətində osmanlılara qarşı üsyan başlandı. Üsyana Səfəvilər və Osmanlılar dönəmində Qaradağın hakimi olan Əbdürrəzaq xan başçılıq edirdi.

Qaradağda Osmanlı hakimiyyətinin əleyhinə çıxışlar haqqında ilk məlumat 1728-ci ilin başlanğıcına aiddir. Fevralın 3-də general Levaşovun yanına gəlmiş Rəşt sakinlərinin sözlərinə görə, Məkkədən ziyarətdən geri qayıdarkən, onlar Təbrizdə eşitmişdilər ki, Osmanlı qulluğunda olan və hətta paşa ünvanı alan Əbdürrəzzaq xan Qaradaği Muğan düzündə yaşayan şahsevənləri öz yanına dəvət etmiş və onlara Osmanlı hakimiyyətinə qarşı birlikdə çıxış etməyi təklif edibmiş. Səfiqulu xan və şahsevənlər osmanlılara qulluq edən Əbdürrəzzaq xana əvvəlcə inanmamışlar. Əbdürrəzzaq xan şahsevənlərin etibarını qazanmaq üçün komandasındakı Osmanlı döyüşçülərini qətlə yetirmiş və sonra onlarla Osmanlı hakimiyyətinə qarşı birlikdə mübarizə aparmaq barədə saziş bağlamışdı. Bundan xəbər

[37] BOA. Hatt-ı Hümayun, nr.1700-A.
[38] Yenə orda.
[39] BOA. Hatt-ı Hümayun, nr.6680-B.
[40] BOA. Hatt-ı Hümayun, nr.6721-F.
[41] Küçük Çələbizadə Asim Ismail, Tarixi Çələbizadə, İstanbul-1153 hicri (1740 miladi), vər.96.



tutan Təbriz paşasının Əbdürrəzaq xana qarşı göndərdiyi cəza dəstəsi məğlubiyyətə uğramışdı. Belə olduqda Əbdürrəzzaq xana qarşı özü yürüşə hazırlaşan paşa osmanlılar ilə Əfqan hakimi Əşrəf arasında bağlanmış Həmədan sülhünə əsasən İrəvan vasitəsi ilə Krıma qayıdan Krım tatarlarından kömək istəmişdi. Lakin onlardan yardım ala bilməyən paşa Əbdürrəzzaq xana qarşı yürüşünü təxirə salmalı olmuşdu.

Bəzi məlumatlara görə, Əbdürrəzzaq xan 1728-ci ilin əvvəlində Təbrizə hücum etmək niyyətində imiş. Təbrizli Əli paşa şəhərin yaxınlığında yerləşən Şəmqazan kəndinin sakinlərini Əbdürrəzaq xanın adamların gizlətməkdə suçlandırıb, cəzalandırmaq istəyirmiş. Ancaq yeniçərilərin rəisi və digər Osmanlı zabitlərinin təklifi ilə aparılan yoxlamadan sonra şəmqazanlılara qarşı irəli sürülən ittihamın əssasız olduğu aydınlaşmış, buna baxmayaraq Əli paşa onları 20 kisə pul məbləğində cərimə ilə cəzalandırmışdı.

Ərdəbil və Təbriz şəhərlərinə yollanmış rus casusu 1728-ci ilin yanvar ayının 28-də Rəştə qayıdıb, general Levaşova məlumat vermişdi ki, türklərin hamısı Əhər şəhərciyindədir, Əbdürrəzzaq xan isə Qaracadağdadır. Onların arasında hələ indiyəcən toqquşma baş verməmişdir.

Tezliklə öz vədlərini yerinə yetirən şahsevənlər Əbdürrəzzaq xanın qüvvələri ilə birləşdilər və Osmanlı hakimiyyətinə qarşı silahlı mübarizəyə qalxdılar. Qaynaqların bilgisinə görə, üsyan etmiş şahsevənlərin başçısı Səfiqulu xan da Əbdürrəzzaq xan kimi bir müddət osmanlılara qulluq etmişdi. O zaman şahsevənlər əsasən Xalxal, Qaradağ, Meşkin, Ərdəbil vilayətlərində yaşayırdılar. Muğanlılar isə, İ. H. Herberin məlumatlarına görə, Araz çayı boyunca, Muğan düzündə yaşayırdılar ki, buna görə də belə adlanırmışlar. Bu tayfalar yaylaq-qışlaq maldarlığı ilə məşğul olurdular, onların qışlaqları Xəzərsahili zolaqda yerləşirdi, Araz çayı ətrafının düzən sahillərində olan otlaqlar isə Osmanlı zonasına daxil idi. Rusiya-Osmanlı sərhəd çəkilməsindən sonra şahsevən və muğanlıların böyük hissəsi osmanlı işğal zonasında qalmışdı. Osmanlı hökuməti onların tayfa hakimini - Səfiqulu xanı öz vəzifəsində təsdiq etmiş,

ancaq muğanlılar və şahsevənlər üzərinə vergilər qoymaqla onların narazılığına səbəb olmuşdu.

A.Çələbiyə görə, Azərbaycanda yaşayan şahsevən, şəqaqi və başqa tayfaların üzvləri hakimiyyət orqanlarına itaətsizlik göstərir, qonşu mahallara basqınlar edirdilər. Təbriz hakimi Abdulla paşa 1728-ci il martın sonunda vanlı Əbürrəhman paşaya 20 min nəfərlik qoşunla bu tayfalara qarşı çıxmağı əmr etmişdi[42].

J.F.Hammer bu hadisələri təsvir edərək, Osmanlı hakimiyyətinə qarşı çıxışların geniş vüsət aldığını qeyd edir. Onun sözlərinə görə, üsyançılar Osmanlı paşasının qoşunlarını darmadağın edərək, Ərdəbili mühasirəyə almışdılar. Çıxışlar tezliklə Xalxal, Marağa və Gərmruda da yayılırdı və üsyançıların sayı çoxalırdı. Üsyanın yatırılması üçün Təbriz paşası Şirvan, Tiflis, İrəvan, Diyarbəkr və digər ərazilərdəki hakimlərdən kömək tələb etdi[43].

1728-ci ilin əvvəlində saxta şahzadə «İsmayıl mirzə»nin də fəallığı güclənirdi. O, Xəzərin cənub sahilində fəaliyyətə başlamış, əvvəlcə Mazandaran hakimi tərəfindən məğlub edilmiş, lakin bundan sonra öz ətrafına daha çox tərəfdar toplayıb rus işğalı zonasında yerləşən Şaft və Qum mahallarında fəaliyyət göstərmişdi. Lakin rus dəstələri tərəfindən məğlub edilən saxta şahzadə Təbrizə tərəf yönəlmiş, öz ətrafına topladığı şahsevən və şəqqaqilərlə Xalxal və Ərdəbilə hücum etmişdi[44].

İsmayıl mirzə ətrafına 5 min döyüşçü toplayıb Xalxalı tutmuşdu. Bu şəhərdən sonra Ərdəbili, getdikcə bütün Azərbaycanı ələ keçirmək istəyirdi. Ona görə də Əbdürrəzzaq xan Qaradağlı ilə ilişkiyə girmişdi. 1728-ci ilin avqustunda osmanlılar üsyançıların birləşmiş qoşunlarını Ərdəbildə məğlub etməyə və onları Muğan düzü tərəfə oturtmağa müvəffəq oldular. Muğanın Balharud məzrəsində ruslar tərəfindən tutulmuş və Bakıya istintağa aparılmış

---

[42]Küçük Çələbizadə Asim İsmail, Tarixi Çələbizadə. İstanbul-1153 h (1740 mil.), vər.16.

[43] Æ. Von Hammer – Purqstale. Vekke. İ, band 7-8. Geschite des Osmanishen Reicher. Gras (Austriya), 1965, s.VIII, his. II, p. 351-354.

[44] Çələbizadə A., g.ə., v.147.



Cavad sakini Xanmirzə demişdi ki, keçmiş Salyan naibi Məhəmmədhüseyn bəy tərəfindən Savalan dağlarına Səfi xan Şahsevənin yanına yollanıbmış. Xanmirzə istintağa danışmışdı ki, o, Ərdəbildə olanda Əbdürrəzaq xanı görmüş, onun qoşunlarının ümumi sayını isə 15 min nəfər təxmin etmişdi. Daha sonra Xanmirzə davam edərək söyləmişdi ki, onun orada olduğu müdddətdə Səfi xanın və Əbdürrəzaq xanın qoşunları qəsəbəyə girmiş, osmanlılar isə Məhəmmədqulu xanın sarayında möhkəmlənmişdilər. Döyüş olmuş, lakin üsyançılar hələ Ərdəbili tutmamışdılar.

İran salnaməçisi Məhəmməd Kazım da yazır ki, saxta şahzadə «İsmayıl mirzə» ətrafına 5 minə yaxın tərəfdar toplayıb Xalxalı tutandan sonra təkcə Ərdəbil və Muğanı yox, bütün Azərbaycanı ələ keçirməyi qarşısına məqsəd qoymuşdu. Ərdəbilin keçmiş hakimi Osman paşa saxta şahzadəyə qarşı çıxmış, ancaq şəhər sakinləri «İsmayıl mirzə»yə qoşulduğundan Osmanlı qoşunları məğlubiyyətə uğrayaraq geri çəkilmiş, Təbrizə qayıtmışdı. «İsmayıl mirzə» təntənəli surətdə Ərdəbilə girmiş və «öz babası» Şeyx Səfinin məqbərəsini, həmçinin dağıdılmış evləri bərpa etməyə başlamışdı. Məhəmməd Kazımın sözlərinə görə, camaat onu öz hakimi kimi tanımışdı.

Qızılağac hakimi Becan sultan onunla birləşəndən sonra saxta şahzadə iki min tərəfdarı ilə yenidən rus işğal zonasına daxil olmuşdu. General Rumyansev ona qarşı 600 əsgər və kazakdan ibarət dəstə göndərmiş və Əliqulu xan da onlara kömək etmişdi. Bu döyüşdə saxta şahzadə məğlub olmuş və qaçmaqla canını qurtarmışdı[45].

Rus işğal zonasında məğlubiyyətə uğradılan «İsmayıl mirzə» yenə Osmanlı işğal zonasına - Xalxal və Ərdəbilə getmişdi.

Təbriz hakimi vəzir Əli paşanın sərəncamı ilə Mehmet ağanın komandanlığı altında 400 nəfərdən ibarət dəstə Xalxal hakimi Məhəmmədqulu xana kömək üçün göndərildi. Ancaq gələnədək saxta şahzadə üstün qüvvələrlə gözlənilmədən Xalxala hücum etdi. Məhəmmədqulu xan müdafiəni təşkil edə bilmədi və o vaxt bu dairədə olan II Təhmasibin Sultan III Əhmədin yanına yolladığı

---

[45]AVPRİ, 1729-cu il, iş.6, v.155-156.

nümayəndəsi Vəli Məhəmmədlə Gərmrud tərəfə, Maşkul nahiyyəsinə qaçdı. Mehmet ağa bu haqda Əli paşaya məlumat verdi və əlavə kömək xahiş etdi[46].

«İsmayıl mirzə» bu vaxta qədər pərakəndə hərəkət edən partizan dəstələrini, o cümlədən qaradağlı Əbdürrəzaq xanın və şahsevənlərin dəstələrini də tezliklə öz ətrafında birləşdirməyə nail oldu və bu qüvvələrlə Ərdəbilə hücuma başladı.

Saxta şahzadə «İsmayıl mirzə», Əbdürrəzaq xan və Səfi xanın rəhbərlik etdikləri hərəkat yatırılandan sonra üsyançı dəstələri səpələndilər, lakin ayrı-ayrı həmlə və hücumları hələ uzun müddət davam etdirdilər. Belə dəstələrdən birinə artıq adı xatırlanan Becan sultan başçılıq edirdi. General Levaşov feldmarşal Dolqorukiyə 1729-cu il 5 (16) fevral taprixli məlumatında sevinclə xəbər verirdi ki, Becan Ərdəbil ətrafında vuruşmada osmanlılar tərəfindən məğlub edilmiş, o, aldığı yaradan ölmüşdür, onun oğlanları və arvadları günahlarını boynuna alaraq rus komandanlığına gəlmişlər[47]. Lakin sonradan Becanın ölümü haqqında xəbər yalan çıxmışdı: 1729-cu ilin aprelinə qədər «o, qiyamçılarla bir yerdən digər yerə keçirdi». 1729-cu ilin yazında Becan sultan II Təhmasibə yazırdı ki, artıq yeddi ildir ki, 600-700 və bəzən 1000 nəfərlik qoşunla osmanlılar, əfqanlar və ruslarla döyüşür[48]. General Levaşov 1729-cu ilin avqustunda Dolqorukiyə xəbər verirdi ki, Becan sultan dağlarda Xalxal ərazisində, Tarım və Sultaniyyə arasında gizlənir, onun yanında 500 nəfərə yaxın adam var. Eyni zamanda Levaşov gizlicə Becana osmanlılara qarşı mübarizəni davam etdirməyi məsləhət görür. Levaşov hesab edirdi ki, lazım olanda Becan Gilanda da gizlənə bilər, onu orada axtarmaq osmanlıların ağlına gəlməz, belə ki, onlar Becanı Rusiyanın aşkar düşməni hesab edirlər[49]. Levaşovun bu etirafı rus siyasətçiləri və sərkərdələrinin riyakar, məkrli siyasət yeritdiyini göstərir.

[46] Çələbizadə A., g.ə., v.147.
[47] AVPRİ, f. 77, op.1, 1729 q., d.6. l.82. l.103 ll. ob.
[48] Yenə orada, iş.4, v. 125.
[49] Yenə orada, iş1, v.14.



İsmayıl mirzənin qiyamı yatırılandan sonra Xalxal hakimi Məhəmmədqulu xan altdan-altdan ruslara qarşı direniş hazırlamağa başladı. Ruslar onun hərəkətindən xəbər tutdular.

28 avqust 1730-cu ildə general Famıtsin Dolqorukiyə məlumat verirdi ki, astaralı Musa xan oğlanlarından birini Rəştdə, digərini isə Astarada qoyaraq özü Xalxal sərdarı Məhəmmədqulu xanla birləşib. Cəfər sultan və Gərgənrud hakimi Zərbəli bəy də onlara qoşulublar[50].

Astaralı Musa xanın özünün təsdiq etdiyinə görə, onun çıxıb getməsinin əsas səbəbi rus generalı Famıtsinin hüdudsuz şübhələri idi[51]. Buradan görünür ki, rus hökuməti nəinki yerli feodalların hakimiyyətini məhdudlaşdırır, həmçinin, onlara şübhə ilə yanaşaraq ciddi nəzarət altında saxlayırdılar.

Levaşov imperatriçaya məlumat verirdi ki, Musa xan kazak mühafizə dəstəsinə basqın etmiş, bu zaman 3 adam öldürülmüş və 3-ü yaralanmışdır. Musa xanın özünü isə bu zaman Ərdəbildə, Məhəmmədqulu xanın yanında görmüşlər[52].

Bu dönəmdə Xalxal vilayətinin tarixinə Nadirqulu xan Qırxlı-Avşar daxil olur. O, İran ordusunun baş komandanıdır. Ölkənin şərqi tamamilə təmizlənmişdir. İndi qarşıda yalnız Azərbaycanı və onun yaxınlığındakı torpaqları osmanlı türklərindən azad etmək qalırdı. 1731-ci ildəki hərbi əməliyyatlar nəticəsində Nadirqulu xan osmanlıları əzərək, Azərbaycanı, Həmədanı və Kirmanşahı azad edir. Osmanlılar yalnız Arazdan şimalda qalmaqdadırlar. II Şah Təhmasib özünün zəifləmiş nüfuzunu bərpa etməkdən ötrü həmin əyalətləri şəxsən azad etmək qərarına gəlir. Ancaq məğlub olaraq, 1731-ci ildə ölkə üçün biabır bir sülh müqaviləsi bağlayır. Həmin müqaviləyə əsasən, Araz çayının şimlındakı bütün ərazilər, eləcədə Kirmanşahın bir sıra əyalətləri osmanlılara verilirdi. Nadirqulu xan müqaviləni tanımaqdan imtina edir və qədim türk ənənələrinə görə, xan və əyanların qurultayını çağırır. Qurultay Şah Təhmasibi

[50] AVPRİ, SRP, f.77, siy.1, 1730, iş 9, v.75; 3, s.375.
[51] AVPRİ, SRP, f.77, siy.1, 1730, iş 14, v.225 arxa.
[52] AVPRİ, SRP, f.77, siy.1, 1730, iş 14, v.97 və arxa.

taxtından salaraq, onun III Şah Abbas adlandırılan səkkiz aylıq oğlunu şah elan edir. Faktiki olaraq, bütün hakimiyyət Nadirqulu xanın əlində cəmlənir[53].

1730-cu ilin sentyabr ayında Nadirqulu xan Qırxlı-Avşar Təbrizi osmanlılardan təmizlədi. Ərdəbil, Xalxal və Gilan yürüşünə hazırlaşmağa başladı.

Levaşovun va baron Şafirovun 1732-ci il 20 (31) mart tarixli raportundan Təbrizin ikinci dəfə osmanlılar tərəfindən tutulması haqqında məlum olur ki, II Tahmasib şəhəri müdafiəsiz qoymuş, onun idara edilməsini əvvəlcə xalxallı Məhəmmədqulu xana, sonra isa Bisütun xana həvalə etmiş imiş[54]. Məhəmmədqulu xan özünün vəzifədən götürüldüyünü bilərək karvansaranı və varlı evləri talayıb Xalxala getmişdi. Bisütun xan da Təbrizdə çox davam gətirmədi. Əli paşanın çoxsaylı qoşunlarla yaxınlaşdığını eşidən kimi, öz oğlunu 1500 döyüşçü ila orada qoyaraq şəhəri tərk etdi. Sakinlərin əksəriyyəti də şəhəri tərk etdi, yalnız iki minə yaxın ən yoxsulu qaldı. Osmanlı qoşunları Təbrizə yaxınlaşanda Bisütun xanın oğlu da döyüşçüləri ilə şəhəri tərk etdi[55]. Bir neçə şəhəri itirən II Təhmasibin sülh xahişini qəbul edən Osmanlı hökuməti sülh danışıqlarına başlamağı qərara aldı, amma eyni zamanda «sərhədlərdəki qoşunlarının sayıqlığını artırmağı» davam etdirdi[56]. 1731-ci ilin noyabrında rəis-ül-kittabın katibi İ.Neplyuyev və A.Vişnyakova xəbər verdi ki, Osmanlı sarayı şahla əvvəlki şərtlərlə, lakin Təbrizi özündə saxlamaqla sülh bağlamağı arzu edir[57]. 1731-ci ilin sonunda Təhmasibin elçiləri Məhəmmədrza xan Qorçubaşı, Mustafa xan Bəydilli və Şahqulu Becan bəy artıq Həmədana gəlmişdilər. Onlar

[53] Ənvər Çingizoğlu, Aydın Avşar, Avşarlar, Bakı, "Şuşa", 2008, səh.183-184.

[54] Dəlili H.Ə., XVIII əsrdə Azərbaycanın siyasi həyatı haqqında əfşarların mövqeyinə dair. Azərb.E.A. xəbərləri, fəls., hüquq ser., 1964, № 3, s.34-41.

[55] AVPRİ, f.77, op.1, 1732 q., d.5, ll.98 ob. – 99.

[56] Yenə orada, iş.8. 1731-ci il., v.293 arxası.

[57] Yenə orada, v.226.



Bağdad və Kirmanşah arasındakı və daha sonra Araz çayı boyu xətti sərhəd kimi təsdiq edərək, sülh bağlamağı təklif edirdilər[58].

1732-ci il fevralın 4-də İstanbulda bağdadlı Əhməd paşanın məlumatı alındı. Bildirilirdi ki, Kirmanşaha onun yanına gəlmiş II Təhmasibin nümayəndəsi 1730-cu ildə razılaşdırılmış əvvəlki şərtlərlə sülh müqaviləsi təklif edir. Bu şərtlərə görə, Osmanlı imperiyası Təbriz, Kirmanşah, Huveyz, Xuzistan və Həmədandan imtina etməli idi, Gürcüstan, Qərbi və Şimali Azərbaycan Türkiyəyə qalırdı. Bağdadlı

Əhməd paşa bu şərtləri qəbul etməyi tövsiyə edirdi, hesab edirdi ki, birincisi, Təbriz və Həmədan müflis edilmiş və boşaldılmışdır və ona heç bir gəlir gətirməyəcək, əksinə, bərpa üçün xeyli vəsait tələb edər[59], ikincisi, əgər sülh bağlanmasa, Məşhəd yaxınlığında əfqanları artıq məğlub edən Təhmasibqulu xan (Nadirqulu xan Qırxlı-Avşar-Ə.Ç.) öz qoşunlarını Osmanlı sərhədinə göndərər və bu halda müharibə uzana bilər[60].

1730-cu ilin yayında Təhmasibqulu xanın Təbrizi tutmaq və sonra Gilana doğru hərəkət etmək niyyəti haqqında məlumat alınandan sonra, Xarici İşlər Kollegiyası general Levaşova məsləhət gördü ki, Kür çayından cənuba Xəzərsahili əyalətləri Təhmasibqulu xanla rəsmi sülh bağlanmasını gözləmədən öz hakimiyyəti altına qəbul etməsini ona təklif etsin[61].

1732-ci ildə Nadirqulu xan Ərdəbil hakimini vəzifəsindən götürmüşdü[62]. Ordan Xalxala yollanmışdı.

Köhnə Səfəvi sülaləsinin nümayəndələri artıq feodal əyanlara və xalq arasında öz nüfuzlarını tamamilə itirmişdilər və ölkəni dağıntıdan xilas etmək iqtidarında deyildilər. Nadir öz nöqteyi-nəzərindən yeganə olaraq doğru yola əl atmaq, taxt-tacın həqiqi sahibi olmaq istəyir. Bundan ötrü o yenidən qədim türk qaydasına

[58] Yenə orada, f.77, siy.1, 1732-ci il, iş.5, v.98.

[59] Yenə orada, f.89, siy.1. 1732-ci il., iş.7, v.141 və arxası.

[60] Yenə orada, v.218 a.ü.

[61] Yenə orada, v.14.a.ü.

[62] Məhəmməd Hüseyn Quddusi, Nadir şah, Bakı, «Gənclik», 1999, səh.111.

görə, Muğan düzündə qurultay, bu dəfə böyük qurultay çağırır. Bu qurultaya hərbi, mülki və dini əyanlara, şəhər və kənd başçılarını yığır. Buraya 100 minə yaxın adam toplanır. Bunlardan ötrü məscid və bazarlar da daxil olmaqla ağac və qamışdan 12 min müvəqqəti tikili salınır. Novruz bayramı günü, 1736-cı ilin 21 martında Nadirqulu xan qurultaya iştirakçılar arasından yeni şah seçmək təklifi verir. Sözlərini bununla əsaslandırır ki, III Şah Abbas hələ ki uşaqdır, Nadir özü isə işləməkdən yorulub və hakimiyyətdən imtina edir.

Azərbaycanın hərbi elitası qızılbaşlar öz yüksəlişləri üçün Səfəvilərə minnətdar idilər və buna görə də hakimiyyət sülaləsinin dəyişməsinin əleyhinə idilər. Ancaq öz etirazını açıq şəkildə yalnız Qarabağ və Gəncə bəylərbəyisi Uğurlu xan Ziyadoğlu-Qacar bildirir ki, o da sonralar bunun müqabilində öz malikanələrinin böyük bir qismini itirmiş olur. Onun hakimiyyətində bircə Gəncə saxlanır və rütbəsi də Gəncə bəylərbəyi adlandırılır, qacarların çox hissəsi isə Xorasana sürgün edilir. Şah elan olunması məsələsi ortaya çıxanda, Nadir özünü zahirən elə göstərir ki, guya yorulub, doğrudan da şahlığı istəmir, qurultay az qala yalvarıb onun razılığını alır və tacqoyma mərasimi keçirilir. Hətta bu münasibətlə qurultay iştirakçılarına erməni və gürcü millətindən olan qul və kənizlər bağışlanılır.

Hakimiyyətin həqiqi sahibi olandan sonra da Nadir şah öz mövqeyini müharibələrlə möhkəmləndirir və onun hərbi dühası həmişə onun köməyinə çatır. Yer üzündə onun qədər parlaq hərbi qələbələr qazanmış sərkərdələri barmaqla saymaq olar. Nadir şah yürüşlərə çıxmaqla həm də ölkənin iqtisadiyyatını dirçəltmək, hakimiyyətdəki sülalə dəyişikliyindən narazı qalan qızılbaş əyanlarını varlandırmaqla onları öz tərəfinə çəkmək məqsədi güdürdü.

Nadir şah Qırxlı-Avşarın hakimiyyəti (1735-1747) dönəmində Ərdəbilə Məhəmmədqulu xan Səidli (1734-1735) və İmamqulu xan Avşar (1735-1747) başçılıq etmişdi.

Nadir şahın ölümündən sonra Cənubi Azərbaycanda xalq üsyanına başçılıq edən saxta şahzadə III Sam mirzə daha da fəallaşdı. Sam mirzə avşarların qatı düşməni olan Astara hakimi ilə



ittifaq bağlayıb ətrafına 15 min nəfərə kimi tərəfdar topladı və qoşununu Rəştin üzərinə yeritdi.

Bu zaman İranda özünü Adil şah adı ilə şah elan edən Əliqulu xan Qırxlı-Avşar Sam mirzənin bu əməlindən xəbər tutub ora qoşun göndərdi. Nizami ordu ilə qarşılaşmaq istəməyən Sam mirzə əvvəlcə Ərdəbilə çəkildi, Təbrizdə Səfəvi tərəfdarlarının daha çox olduğunu biləndən sonra isə ora getdi.

Sam mirzə hərəkətlərini qanuniləşdirmək üçün öz adına pul kəsdirdi və Azərbaycanın hər yerinə fərmanlar göndərərək, ali hakimiyyətinin tanınmasına çağırdı.

Azərbaycan xanları «Sam mirzənin» fərmanına cavab vermədilər. Belə olduqda saxta şahzadə sadə xalqa müraciət etdi və xalq kütlələrinin hər bir çıxışını müdafiə etməyə başladı. O, İrəvan sakinlərinin Nadir şahın bölgədə müstəqil hökmdar olmaq həvəsinə düşmüş bibisi oğlu Əmiraslan xan Qırxlı-Avşara qarşı üsyan qaldırdığını biləndə üsyançılara kömək məqsədilə İrəvana qoşun göndərdi. Lakin Sam mirzənin qüvvələri Əmiraslan xanla mübarizədə məğlub oldular. Bundan sonra Əmiraslan xanın qoşunları Təbrizə gəldi, və Sam mirzə tutulub edam edildi.

Sam mirzəyə qalib gəldikdən sonra Təbrizdə möhkəmlənmiş Əmiraslan xan mərkəzi Təbriz şəhəri olan müstəqil Azərbaycan dövləti yaratmaq qərarına gəldi. O, qısa müddətdə Xalxal vilayətini özündən asılı etdi.

Nadir şahın hakimiyyəti dönəmində Avşar elinin başçılarının hər birisi bir əyalətə və vilayətə hakim təyin edilmişdi. Məhəmmədmusa xan Məhəmmədqasım xan oğlu Qasımlı Ərak və Kaşana, Heydərqulu xan Qırxlı Şirvana, Bəhram xan Araşlı Şiraza, Məhəmmədqulu xan Araşlı Xorasanın Səbzivarına, Mehdi xan Həsən xan oğlu Qasımlı İrəvanın Qaramehdisinə, Lütfəli xan Kosaəhmədli Kermana, Musa xan Əmirli Taruma, Saleh xan Qırxlı Xorasanın Əbivərdinə, Əmiraslan xan Qırxlı Azərbaycana, Aşur xan Babalı Arasbara təyin olunmuşdular. İbrahim xan Qırxlı Urmiyanın divanbəyi, Fətəli xan Araşlı orduda çərxçibaşı vəzifəsini tuturdu. Qasım xan Araşlı süvari dəstədə sərkərdə idi. Hüseynəli xan,

Bisütun xan, Pero xan və başqaları Nadir şahın yaxınlarından sayılırdı. (Mirzə Rəşid Ədibüşşüara, Tarixi Əfşar, Təbriz, «Şəfəq», 1346 hicri şəmsi, səh.86-87).

Avşar elinin məşhur əmirlərindən biri də Bisütun bəydir. Nadirqulu xan Bisütun bəyi 1730-cu ildə Azərbaycan hakimi təyin etmişdi. Levaşovun və baron Şafirovun 1732-ci il 20 mart raportundan Təbrizin ikinci dəfə osmanlılar tərəfindən tutulması haqqında məlum olur ki, II Şah Təhmasib şəhəri müdafiəsiz qoymuş, onun idarə edilməsini əvvəlcə xalxallı Məhəmmədqulu xana, sonra isə Bisütun xana həvalə etmiş imiş. Məhəmmədqulu xan özünün vəzifədən götürüldüyünü bilərək karvansaranı və varlı evləri talayıb, Xalxala getmişdi. Bisütun xan da Təbrizdə çox davam gətirmədi. Əli paşanın çoxsaylı qoşunlarla yaxınlaşdığını eşidən kimi, öz oğlunu 1500 döyüşçü ilə orda qoyaraq şəhəri tərk etdi. Sakinlərin əksəriyyəti də şəhəri tərk etdi, yalnız iki minə yaxın ən yoxsulu qaldı. Osmanlı qoşunları Təbrizə yaxınlaşanda Bisütun xanın oğlu da döyüşçüləri ilə şəhəri tərk etdi.



# III FƏSİL

## Xalxal xanlığını qurmuş el və oymaqlar

### *Avşar eli*

Öncə adaçımı haqqında. F.Rəşidəddin [Cəmiəttəvarix], Yazıçıoğlu Əli [Səlcuqnamə] və Əbülqazi Bahadır xan Xivəliyə [Şəcərei-təraikəmə] görə Avşar adının anlamı «işlərini cəld görən və ova həvəsli»dir. K.Vamberi bu adı əsərinin bir yerində «toplayıcı» digər yerində «əfsər, zabit» kimi açıqlayır. K. Nemət isə Avşar adının «avş» felindən törəndiyini qeyd edib, «itaətli» mənasında olduğunu yazır[63].

Məşhur türkoloq M.Qaşqari (XI yüzil) məlum «Divani-Lüğət-it-türk» əsərində 22 oğuz tayfalarından biri Əfşar//Avşar tayfasının adını qeyd etmişdir[64]. F.Rəşidəddin oğuzların boyları, damğası, geneologiyasını daha dəqiq və stabil təsnif etmişdir.

Fəzlullah Rəşiddədində oğuzların boyları Boz-ok və Üç-ok deyə iki qrupa ayrılır. Avşar boyu Boz-ok qrupuna mənsub olub Ulduz xanın oğlu kimi təsvir olunmuşdur. O, yazır: «Avşar, çevik və vəhşi heyvan ovuna həvəsli»[65]. Yazıçıoğlu Əli bəy, Əbülqazi Bahadır xan Xivəli də oğuz tayfalarını 24 boya bölmüş, Avşar tayfasının da adını qeyd etmişlər.

"Zendəgani Şah Abbas-i Əvvəl/ I Şah Abbasın həyatı" adlı kitabın müəllifi Nəsrullah Fəlsəfi, Avşar/ Afşar eli adının Avşir xan اوشیرخان (Ovşar/ Avşar اوشار, Avuşar آووشار)dan qaynaqlandığını

[63] Faruk Sümer, "Avşarlar", TDAD, S. 62, Ekim 1989, s.119.
[64] M.Kaşğari, Divanü lüğat-it Türk, Ankara, 1939-1941, I, səh. 56.
[65] F. Rəşidəddin, Oğuznamə, Bakı, 1987. səh.65.

bildirir. Avşir (Avşar/ Afşar) xan, Oğuz xanın üçüncü oğlu Ulduz xanın büyük oğludur. Yəni Oğuz xanın nəvəsidir. Avşir xanın oğlu Abaqa xan, onun oğlu Hülagu xan, onun oğlu da Çingiz xandır[66].

Türkmən tədqiqatçısı Soltanşa Ataniyazov belə deyir: "Tarixi qaynaqlarda "Avşar, Əfşar" şəklində yazılan və söylənən Oğuz-Türkmən boylarından biridir. Kaşkarlı Mahmud və Salar Baba, 24 Oğuz boyunun altıncısı, Rəşidəddin, Yazıcıoğlu və Əbül-Gazi isə, doqquzuncusu olaraq qəbul edir. Salar Baba Avşarı Oğuz xanın oğlu Ay xanın ikinci oğlu olduğunu söyləsə də, digər müəlliflər onu Ulduz xanın birinci oğlu olduğunu bildirir. "Çevik, atik və vəhşi heyvan ovuna həvəsli (Rəşidədin), cəld hərəkət edən, sürətli və ova, heyvana, quşa həvəsli (Yazıcıoğlu), Çalak/ çox sürətli (Salar Baba), işini yıldam/ cəld görən (Əbül-Qazi)" şəklində açıqlamışdır. "Çalak/ çox sürətli" sözü, ehtimalən "çalasın/ çəpik hərəkət edən" anlamlarını daşıyır"[67].

Avşarlara türkmənlərin arasında da rast gəlinir[68].

M. Qaşqaridən, F. Mübarəkşahdan (əfşar) fərqli olaraq Fəzlullah Rəşidəddin və Əbulqazi xan Xivəlidə bu söz «avşar» formasında işlənmişdir.

Avşar adı yerlərə, yörələrə görə, müxtəlif cür səslənir. Avşar, ovşar, əfşar kimi deyiliş və yazılış biçimləri mövcuddur. Bu elin ilkin və dəqiq adı avşardır.

Bu adın Avşar adlı türk-Azərbaycan mənşəli etnonimdən törəməsi şübhə doğurmur. Avşarlar Azərbaycan xalqı və dilinin formalaşmasında əsas rol oynayan və Azərbaycan ərazisində onlarca eyni adlı toponimlərin yaranmasında fəal iştirak edən etnos olmuşlar. Türk xalqlarının abidələrində bu tayfanın adı dönə-dönə çəkilir.

[66] Nəsrullah Fəlsəfi, Zəndəgani Şah Abbas-i Əvvəl, I cild, Tehran, 1958, s.214.
[67] Ataniyazov, Soltanşa, Şəcərə, Türkmənifi Nəsil Daragtı, Aşqabad, "Turan-1", 1994, 288 s., səh.164-165.
[68] Дурдыев М., Кадыров Ш., Туркмены мира, (историко-демографический обзор). Ашхабад, Харп, 1991; 72 с. стр.58.



Bu dəlillər bir daha göstərir ki, etnik məna kəsb edən "avşar" istılahı tarixən daha geniş anlam olmuşdur.

Avşar tayfalarının İranda geniş ərazidə yayıldığını V.İ. Savina qeyd edir: «Avşarlar İranın türk əhalisinin arasında hazırkı dönəmdə böyük qrupları vardır. Səfəvilərə qədər Azərbaycanda (Cağatu çayından şərqdə) yaşayırdılar, sonra demək olar ki, hər tərəfə yayıldılar. İndi onlara Azərbaycanda rast gəlmək mümkündür.

Avşar etnonimi İran toponimiyasında çox yayılmışdır. Əfşar, Əfşarcıq (Azərbaycanda), Əfşaran, Təppəəfşar (Kermanşahda), Əfşarlı, Qışlaqəfşar (Zəncanda), Əfşarməhəhəmməd, Hüseynabadəfşar, Ərəbabadəfşar, Cərməəfşar, Cülgəəfşar, Siyahəfşar (Mərkəzi İranda), Qavəfşar (Yəzddə), Çəmənəfşar (Kermanda)»[69].

Hazırda Anadoluda Avşar adlı hələ yüzlərcə yer adı var. Avşarlar eləsə də Şimali Azərbaycana, Cənubi Azərbaycana və ümumən Qafqaz ərazisində geniş yayılmış, yayıldığı ərazinin toponimyasında izini qoruyub saxlamışdır.

Adnan Menderes Kaya yazır: «Xorasanın Birsand bölgəsində Abşar, Fars bölgəsində Abşar, Xuzistanda 2 ədəd Abşar, Ərdəbildə Afşar, Şərqi Azərbaycan da Afşarcıq və Çahar-Mahalda Afşarabad adlı məskənlər də avşarlardan qalmadır»[70].

Avşar etnoniminin paralellərinə Qərbi Azərbaycanda (hazırkı Ermənistanda) ürcah oluruq. Belə bir nəticəyə gəlirik ki, türk dilli avşar//afşar adlı tayfa Orta Asiya, İran (Cənubi Azərbaycana) və ümumən Qafqaz ərazisində geniş yayılmış, yayıldığı ərazinin toponimyasında izini qoruyub saxlamışdır.

Təbiidir ki, bu etnonim yerləşdiyi ərazidə və təsirin nəticəsində, eyni zamanda dilimizin monoformoloji qanunları, zonanın dialekt xüsusiyyətləri çərçivəsində müəyyən dəyişikliyə uğramışdır. Afşar//Ovşar //Əfşar və s. Variantları olan bu sözü özəyini «avşar» termini təşkil edir.

[69] Савина В. И. Этнонимы и топонимии Ирана // Ономастика Востока. М.: Наука, 1980. – С.150.
[70] Adnan Menderes Kaya, Avşar türkmənləri, Keçit Yay., Qayseri, 2004, səh. 24-25.

*İndi isə Avşar eli haqqında.* Avşar eli bir zamanlar Ağqoyunlu dövlətinə sığınmışdı. 1406-cı ildə özünü əl-Malük əl-Adil adı ilə Sultan elan edən Məmlük əmiri Çəkim türkmanları təhlükəli ünsür sayaraq onlara qarşı hərəkətə keçdi. Nəticədə avşar, bayat və inallıların mühüm bir qismi Qara Yuluq Osman bəyə sığındı. Qara Yuluq Osman bəy Çəkimin üzərinə getdi və o, döyüşdə öldürüldü. Həmin tayfalarından bəziləri öz yurdlarına qayıtdı.

Avşar elinin böyük bir qolu Qızılbaş tayfa ittifaqına qoşulmuşdu. Ünlü türkoloq Faruq Sümər Avşar elinin Qızılbaşları təşkil etməsi haqqında yazır: «Səfəvi dövlətini quran ünsür tamamilə türklərdən ibarətdir. Bu ünsürün böyük əksəriyyətini də anadolulu köçəri və kəndli türklər meydana gətirirdi. Yuxarıda deyildiyi kimi, Şah İsmayıl Ərzincan yaxınlığında Anadolu türklərini başına yığaraq, buradan Azərbaycana yürüyərək öz dövlətini qurmuşdur. Bu halət Səfəvi dövlətinin başlıca dayağı olan boy və obaların yurdlarının bilinməsilə daha düzgün anlaşılmaqdadır. Qızılbaş ulusunu təşkil edən birinci dərəcəli oymaqlar bunlardır: ustacalı-ustahacılı (Səfəvi dövründə ustaclı), rumlu, təkəlü, zülqədər, şamlı, əfşar, qaçar»[71].

Tarixçi Əhməd Zəki Vəlidi Toğan «Azərbaycan» adlı kitabında Səfəvilərin ilk dövrlərində Azərbaycana hakim olan türk və türkmanlar haqqında yazır: «Teymur Ərdəbildə Şeyx Səfiəddin türbəsini ziyarət etməyə gəldikdə Ərdəbil şeyxi Xoca Əlinin xahişi ilə rumlu, şamlı, musullu, quzanlu, kavanlı, zülqədir və qacarları Səfəvi şeyxinin tabeliyinə vermişdi. Ərdəbil və Muğan tərəflərində şeyxlərin «qızılbaş» ordusunu təşkil edənlər də ustaclı, şamlı təkəli, baharlı, zülqədir, əvşar, qacar və varsaqlar idi. Səfəvilər dövründə «Otuz iki cavanşir» adı ilə adlanan cavanşir qəbiləsi Şirvanda və Qarabağda görünür[72].

Podpolkovnik İ.F. Blaramberq 1837-1840-cı illərdə İranda olmuş və İranın statistik təsvirini tərtib etmişdi. İ.F.Blaramberq İranın türk mənşəli elatlarının tərkibinə avşar, qacar, müqəddəm,

[71]F. Sümər, Oğuzlar, Bakı, 1992, səh. 163.
[72]Ə. Z. V. Toğan, Azərbaycan, Bakı, 2007, səh. 52.



dümbüli, talış, qaragözlü, bayat, şahsevən, cavanşir, farsmadənlı, qoşavənd (və ya kosavənd) və şəqaqilərin daxil olduğunu bildirirdi. Müəllif Cənubi Azərbaycanda türk mənşəli elat tayfalarının ümumilikdə təqribən 68 min ailə təşkil etdiyini yazırdı. Avşarlardan bəhs edərkən bildirir ki, onlar Qazəli və Ərikli qollarına bölünürlər. Azərbaycanda, əsasən Urmiya yaxınlığında yaşayırlar. Başlıca yurdlarından biri Həmədan və Kirmanşah arasında, Əsədabad və Kəngavərdə yerləşir. Sayları 30.000 ailədir[73].

N. Q. Korsun Urmiya gölündən cənubda yerləşən qarapapaqlıların Azərbaycanın ən yaxşı süvariləri hesab olunduğunu və əvvəlki müharibələr zamanı onların İran qoşunlarının başlıca qüvvəsini təşkil etdiyini yazırdı. N.Q.Korsun digər müəlliflərə nisbətən əfşarların yayaşadığı əraziləri daha dəqiq göstərmişdir. Onun yazdığına görə, avşarlar bütün İran boyu səpələnsələr də, onlar əsasən Urmiya gölünün şimal-qərbində, Həmədan və Kermanşah əyalətləri və Məlair mahalının sərhəddində yaşayırdılar, onlara Xorasanda, Bucnurd və Kuçandan cənuba doğru, Səbzəvər və Nişapur arasında, Cümeyndən şimala doğru, tərəkəmə əfşarlara isə Xəmsə və Kirmanda rast gəlmək olardı[74].

Avşarlar - ən mühüm türk-tatar tayfası, həm ölçüsünə həm də silahlı qüvvələrdə iştirakına görə. Əfşarlar İranın bütün qərb hissəsində yayılmışlar, yayılmalarının şərq sərhədi kimi Rəşt- Kirman xəttidir. Onlar ən böyük hissəsi iki yerdə qruplaşır: Urmiya gölünün Şərq tərəfində Azərbaycanda və Həmədanla Kermanşah arasında, İraqla Lurestan sərhədində (Əsədabad bölgəsində) və Kəngavərdə. Bu tayfanın sayı barədə dəqiq məlumat yoxdur.

Əldə olan məlumatlara görə avşarları bütün İranda 40 min ailə və yaxud 200 min hər iki cinsdən olaraq hesablamaq olar.

Avşarlar arasında sünnülər də var, amma əsasən onlar şiə təriqətinə mənsubdurlar. Avşarlar və onlara qohum müqəddəmlər və başqa oturaq və yarıoturaq tayfalar Azərbaycanın qərb hissəsində

[73] Бларамберг И. Ф. Статистическое обозрение Персии. Саркт-Петербург, 1853, с.360. стр. 14-15.
[74]Корсун Н.Г. Персия, Москва, 1923, С. 36-40.

yerləşərək, dövri qədimdən indiki vaxta qədər İran-Türkiyə sərhədinin hər iki tərəfinə köç edən vəhşi və əhliləşdirilməyən kürdlərlə amansız mübarizə aparmışlar. Şiələrlə sünnülər arasında olan nifrətlə qızışdırılan və hər iki qonşu hakimiyyətin zəifliyi ilə qidalanan, bu əsrlik mübarizə bəzən əsl müharibə xarakteri alırdı –böyük kütlələrlə müdaxilələr, şəhərlərin uzun zamanlı mühasirələri və sairə. Öz qüvvələrinə güvənməli olan avşarlar və onların qohumları, təbii ki, daima hazır vəziyyətdə olmalı idilər, və həlledici məqamda az qala bütün elliklə silaha sarılıb, uğura güvənərək öz rəqibləri ilə, öz köçəri əcdadları təkin, haq-hesab çəkməyə gedirdilər.

Son zamanlar diyarda nisbətən sakitlikdir: belə ki əksər kürd tayfaları oturaqlaşıb, bəziləri isə, məsələn, Zərza tayfası Uşnu dairəsində hətta avşarlardan təhkimli vəziyyətə düşüblər, buna baxmayaraq əhalinin əmin-amanlığı tam təmin olunmayıb. Şeyx Ubeydullanın 1880-ci ildə dağıdıcı hucumu və şəkak tayfasının 1881-ci ildə üsyanı buna sübutdur. Bu üsyanlardan Urmu gölü ətrafında yaşayan avşar, müqəddəmlər və başqa oturaq türklər çox ziyan çəkmişlər. Hadisələrin belə gedişatı, əlbəttə, əhalinin əmin-amanlığına pis təsir etmişdir. Amma o biri tərəfdən, bu avşarlarda və başqa türk-tatar tayfalarında, Turan düzündən köç etmiş əcdadlarının döyüşkənliyini qorumuşdur.

Avşarlar İran ordusunun ən yaxşı piyada qoşunu hesab olunur. Onların atlı milisi(yığması) qarapapağların və mühacirlərin atlı milisindən bir az zəifdir. Onlar 7 batalyondan çox piyada və topçu(4000 adam) və atl milis verirlər ki, bu da 10 ailəyə bir nəfər deməkdir. 7 batalyondan çox ona görə deyirik ki, ehtimal ki , onlar qarışıq olaraq başqa oturaq tayfalarla birgə təşkil olunmuş hərbi hissələrlə də təmsil olunurlar. İstənilən halda avşarlar 10000 qədər əskər verə bilərlər ki, bunlardan işin yaxşı təşkil olunması şərti ilə çox yaxşı qoşun təşkil etmək olar.

2. Avşarlara qohum müqəddəmlər Mərqab dairəsində və Miandoab düzündə Azərbaycanda yaşayırlar. Miandobda yaşayanlar əsasən maldardırlar və yarıköçəri həyat tərzi sürürlər; Marağa müqəddəmləri yetərli qədər oturaqdır. Avşarlarla dostluq və mehribançılıqda yaşayaraq, onlarlar bilikdə kürdlərə qarşı fəal mübarizədə iştirak edirlər. Müqəddəmlərin hamısı şiədir. Ritter və Blamberqə görə onların sayı 5000 ailə, yaxud hər iki cinsdən olaraq 25000 nəfərdirlər. Müqəddəm adını yalnız bir topçu batalyon və atlı milisin bir hissəsi daşıyır. Marağa dairəsi 4 batalyon və, 2400 adam çıxarır. Aydındır ki, bunları sayca o qədər də çox olmayan ancaq müqəddəmlər təşkil etmir. Bu tayfa bir piyada (800 nəfər) və bir topçu(250 nəfər) batalyondan çox adam verə bilməz[75].

## *Avşar eli Səfəvilər dövründə*

Avşar eli və nümayəndələri Səfəvilər dövlətinin qurulmasında, yayılmasında, idarə olunmasında fəal iştirak etmişlər.

Şah İsmayıl, h/q. 905/ 1500-cü ildə fəth məqsədiylə Gilandan Azərbaycan və Ərzincan tərəflərinə hərəkət etdi. Oradakı Avşar, Ustaclı, Şamlı, Təkəli, Varsaq, Rumlu, Zülqədər, Qacar, Qaracadağ sufiləri və digərləri qədimdən bəri xanədanın müridləri və təqibçiləriydilər. Ona bağlı olaraq ardından Şirvana hərəkət etdilər. Şirvan padişahı Şirvanşah Fərrux Yəsar ilə savaşa tutuştular. Şirvanşah öldürüldü. Avşarların da daxil olduğu Türk ellərinin yardımı ilə Şirvan, Şah İsmayılın təsərrüfünə keçdi[76].

1500-cü ildə Qızılbaş qoşunu Şirvana yürüş edərkən Avşar sərkərdələrindən Sultanşah bəy, Xəlil bəy möhrdar, Hüseyn bəy süfrəçi, Piri bəy pərvanəçi və başqaları öz qoşunları ilə orduya qatılmış, oranın alınmasında fəal iştirak etmişlər.

1514-cü ildə Çaldıranda Osmanlı ordusuna qarşı savaşan Qızılbaş ordusunun cinahına Sultanəli mirzə Avşar başçılıq edirdi. I Şah İsmayılı əsir götürmək istəyən osmanlılara «Şah İsmayıl

---

[75] Колюбакин А.М. Состав населения Персии по племенам и провинциям. Сборник географических, топографических и статистических материалов по Азии. Выпуск 4, СПб., 18883 // История Ирана. Киев-Москва, 2003, с. 298-305.

[76] Yəhya bin Əbdüllətif Qəzvini, Lubbüt-Təvarix, s.240-241.

mənəm» demişdi. Osmanlılar onu əsir almışdılar. Sultanəli mirzə üzdən dayısıoğlu Şah İsmayıla oxşayırdı.

1527-ci ildə özbək xanı Ubeydulla xan Qızılbaşlar məmləkətinə qoşun çəkdi. I Şah Təhmasib ordu toplayıb qarşı çıxdı. Ustaclı elindən Abdulla xan 200 nəfər seçmə bahadırla toplantı yerinə gəldi. Elin digər qruplarından isə 16 mindən yuxarı atlı yığılmışdı. Yığılanlar içində Ustaclı eli birinci yeri 17 min atlıyla, ikinci yeri Avşar eli 16 min atlıyla tuturdu. Özbəklər məğlub olub geri çəkildilər.

1534-cü ildə Osmanlı padşahı I Sultan Süleyman Azərbaycana ikinci yürüş etdi. Təkəli və Zülqədər tayfaları osmanlıların tərəfinə keçdilər. Avşar eli ağır qoşunla şahın yanında dayandı. Əlvənd xan və Göyçə sultan I Təhmasibin məşvərətçiləri, yaxınları, sərkərdələri sırasında idilər[77].

1539-cu ildə Rey şəhəri qalasının mühasirəsi zamanı Zülqədər eli və avşarlardan ibarət bütün Fars əyaləti əmiləri bu mühasirədə iştirak etdilər və Həsən soltan Reyşəhrini şahın hüzuruna gətirdilər[78].

1544-cü ildə üsyandan qaçıb Səfəvilər dövlətinə sığınan Böyük Moğollar imperiyasının hökmdarı Sultan Hümayun şah Barlası Sultaniyyə yaxınlığında qorçubaşı Sevindik bəy Avşar qarşılamışdı[79].

1546-cı ildə Alxaz (bəzi qaynaqlarda Əliqasib) mirzə Şirvan bəylərbəyi idi. Qiyam edib qardaşına qarşı çıxdı. I Təhmasib onunla danışıq aparmaq üçün qorçubaşı Sevindik bəy Avşarı göndərmişdi[80].

1546-cı ildə Təbrizdə avşarlarla züləqədrlər arasında silahlı toqquşma baş verdi. Vəziyyətdən xəbərdar olan şah şəxsən Təbrizə gəlib onların arasındakı müxalifətə son qoydu. Şahqulu xəlifə Zülqədər, İbrahim xan Zülqədər, Əli sultan Zülqədər və bir neçə

[77] Əfəndiyev Oqtay, Azərbaycan Səfəvilər dövləti, Bakı, "Azərnəşr", 1993, 301 s. səh.65-66.

[78] Məhəmməd Möhsin Mustofi, Zübdətüt-təvarix, təshih Gudərzi Bəhruz, Tehran Universiteti nəşriyyatı 1375 h.ş. c.1 s. 289

[79] Шараф-хан ибн Шамсаддин Бидлиси. Шараф-наме. Т.2. Серия: Памятники письменности Востока. XXI, 2. М., Наука. 1976 г. 350 с. стр.191.

[80] Əfəndiyev Oqtay, Azərbaycan Səfəvilər dövləti, Bakı, "Azərnəşr", 1993, 301 s. səh.72.



Avşar əmiri Sevindik bəy Qorçibaşı, Soltan və Mahmud xanın müzakirələri ilə sona çatdı. Şah onlardan bir daha bir-birləri ilə müharibə etməyəcəklərinə dair söz verməlerini istədi və onlar buna dair söz verib, and içdilər[81].

1548-ci ildə Osmanlı ordusu yenidən Qızılbaşlar məmləkətinə yürüş etdi. I Şah Təhmasib düşmən ordusunu izləyə-izləyə Xoya gəldi. Oradan Çaldırana yürüş etdi. Burada ona Kirman hakimi Şahqulu sultan Avşar və Mahmud xan Avşar qoşuldu[82].

Şahqulu sultan böyük qoşunla Osmanlıların sərhəd-sınır bölgələrini viran qoymaq üçün göndərilir. Onlar Oxlat ərazisində tayfaları soyub taladılar və təqribən 5 min at, 100 min qoyun və 50 min qaramal sürüb gətirdilər. Sultan Süleyman Azərbaycandan geri çəkilən kimi I Şah Təhmasib Kiş qalasına sığınmış Dərviş Məhəmməd xanı cəzalandırmaq üçün Qarabağdan Sevindik bəy Avşarı 2500 qorçu ilə Şəkiyə göndərdi. Qızılbaşlar Şəkini dağıdıb çoxlu qənimət ələ keçirdikdən sonra geri döndülər[83].

1551-ci ildə I Şah Təhmasib Şəkinin müstəqilliyinə son qoymaq qərarına gəldi. Avşarların qatıldığı və Sevindik bəyin başçılıq Qızılbaş ordusu Şəkini tutub dövlətlərinə birləşdirdilər. Toygün bəy Qacar Şəkinin hakimi təyin edildi[84].

1552-ci ildə Osmanlı ordusu yenidən Qızılbaşlar məmləkətinə yürüş etdi. I Şah Təhmasib düşmən ordusuna qarşı dörd istiqamətdə qoşun tərtib etdi. Ərəb İraqı istiqamətində Şahqulu xan Avşar öz qoşunları ilə vuruşurdu[85].

1569-cu ildə Özbəklərlə döyüşdə qətlə yetirilən Həmzə bəy Səncər oğlu, Şiraz valisi Vəli Sultan Qalxançı oğlu, Lar şəhərinin hakimi Şahqulu xəlifə Zülqədər elindən olan tanınmış əmirlər idilər.

[81] Məhəmməd Möhsin Mustofi, Zübdətüt-təvarix, təshih Gudərzi Bəhruz, Tehran Universiteti nəşriyyatı 1375 h.ş.; c.1 s. 316.

[82] Əfəndiyev Oqtay, Azərbaycan Səfəvilər dövləti, Bakı, "Azərnəşr", 1993, 301 s. səh.75.

[83] Həsən Rumlu. Əhsənüt-təvarix, Tehran, h.1349, səh. 334.

[84] Əfəndiyev Oqtay, Azərbaycan Səfəvilər dövləti, Bakı, "Azərnəşr", 1993, 301 s. səh.79.

[85] Həsən Rumlu. Əhsənüt-təvarix, Tehran, h.1349, səh. 357.

Vəli sultan Qalxançı oğlu sonralar fərmanfərma rütbəsinə yüksəldi. Avşar elinin əmirləri bu döyüşdə fərqləndilər[86].

1575-ci ildə I Şah Təhmasib xəstələnir. Qəhqəhə qalasında həbsdə yatan oğlu İsmayıl mirzə ilə bağlı əndişələndi. Ağlına gəldi ki, onun xəstəliyindən istifadə edib ustaclılar və qaradağlılar şahzadəni öldürə bilərlər. İsmayıl mirzəni qorumaq üçün Avşar elindən olan qorçuları Qaradağa, Qəhqəhə qalasına yolladı[87]. 1576-cı ildə I Şah Təhmasib yenidən yorğan-döşəyə düşdü. Tayfalararası ədavət yenidən qızışdı. Hər el, hər qrup şahzadələr arasından öz namizədini dəstəklədi. Bu arada şah vəfat etdi. Avşar elinin işi irəli düşdü. Sarayın mühafizəsini, dərgahın keşiyini hərəmxana yüzbaşısı Vəli bəy Avşarın başçılığı ilə avşar, rumlu, qacar, bayat və varsaq tayfalarından olan qorçular çəkirdilər. Vəli bəy qapını bağlayıb heç kimi içəridən çölə, bayırdan daxilə buraxmadı[88].

II İsmayıl mirzə Səfəvinin tərəfdarları arasında Əmiraslan sultan və Məhəmmədqulu bəy Avşar da vardı. Saraydaxili çəkişmədə Avşar elinin dəstəklədiyi İsmayıl mirzə qalib gəldi[89].

1576-cı ildə II Şah İsmayıl taxta əyləşəndən sonra avşarların zəhmətini dəyərləndirdi. Kirman hakimi Allahqulu bəy Avşarı qorçubaşı vəzifəsinə təyin etdi. Kirman hakimliyini Mahmud sultan Avşara tapşırdı[90].

1577-ci ildə II Şah İsmayıl vəfat etdi. Əmirlər ayaqlandılar. Qiyam başlandı. Araya girən Xəlil xan Avşar qızılbaşları sakitləşdirdi[91].

[86] İskəndr bəy Münşi, Tarixe-Aləm arayi-Abbasi, c. 1, 2,3., təshih Rizvani İsmayıl, Dünyaye-kitab nəşriyyatı, 1377 h.ş.Tehran; c.I s. 205.

[87] Əfəndiyev Oqtay, Azərbaycan Səfəvilər dövləti, Bakı, "Azərnəşr", 1993, 301 s. səh.107.

[88] Həsən Rumlu. Əhsənüt-təvarix, Tehran, h.1349, səh. 466.

[89] Əfəndiyev Oqtay, Azərbaycan Səfəvilər dövləti, Bakı, "Azərnəşr", 1993, 301 s. səh.114.

[90] İskəndər bəy Münşi, Tarixe-aləmaraye-Abbasi, Bakı, "Təhsil", 2009, 792 s. səh.430.

[91] Yenə orda. səh.442.



II Şah İsmayıl öləndən sonra məmləkəti müvəqqəti idarə etmək üçün «ağsaqqalar şurası» yarandı. Şuraya Ustaclı elindən Pirə Məhəmməd xan Çavuşlu, Türkman elindən Əmir xan Mosullu, Şamlı elindən Sultan Hüseyn xan Bəydili, Təkəli elindən Müseyib xan Şərəfəddinli, Avşar elindən Məhəmmədqulu xan Araşlı daxil idi[92].

1578-ci ildə Şah Məhəmməd Xudabəndə şah elan edildi. Yeni şah gözdən qarav olduğu və zəif gördüyü üçün dövləti arvadı Xeyrənnisə bəyim Məhdi Ülya, oğlu Həmzə mirzə və vəziri Mirzə Salman Cabiri-Ənsari idarə edirdi. Şah taxta əyləşən kimi yeni təyinatlara başladı. Avşar elinin nümayəndələri əsasən, köhnə vəzifələrində saxlandılar. Kerman, Kuhgiluyə əyalətlərini, Fərah və başqa vilayətləri avşarlar idarə edirdilər. Şah Məhəmməd Xudabəndənin əmri ilə Kirman qorçubaşının qohumu Vəli xan Avşara tapşırıldı. Kuhgiluyə isə əvvəlki kimi Xəlil xanda qaldı[93].

1578-ci ildə Sistan əyalətində üsyan baş verdi. Yerli əhali Səfəvi hakimi Teymur xan Ustaclını vilayətdən qovub, qədim Səffari nəslindən Məlik Mahmudu hakim kimi tanıdılar. Şah Məhəmməd Xudabəndə Cəfər sultan Araşlı-Avşarı Sistana vali təyin edib, Avşar qoşunu ilə ora göndərdi. Cəfər sultan Gərmsar hakimi İnad sultan Avşardan yardım alaraq Sistana daxil olub, tez bir zamanda Səfəvi hakimiyyətini bərqərar etdi[94].

1578-ci ildə Osmanlı sultanı III Murad (1574-1585) Amasiya sülh müqaviləsini pozub, çoxsaylı ordu ilə Qızılbaşlar məmləkətinə hücum etdi. Osmanlı ordusuna qarşı vuruşan Qızılbaş qoşununun sərkərdələri içində Avşar elinin nümayəndələri də vardı.

1579-cu ildə Osmanlı sultanının göstərişi ilə Krım tatarları da Azərbaycana basqın etdilər. İmamqulu xan Qacar, Məhəmmədqulu xan Avşar, Şahrux xan Zülqədər, Məhəmməd xan Türkman, Pirməhəmməd xan Ustaclı, Museyib xan Təkəli, Həmzə xan Ustaclı

[92] Əfəndiyev Oqtay, Azərbaycan Səfəvilər dövləti, Bakı, "Azərnəşr", 1993, 301 s. səh.127.

[93] İskəndər bəy Münşi, Tarixe-aləmaraye-Abbasi, Bakı, "Təhsil", 2009, 792 s. səh.455.

[94] Yenə orda, səh.461.

və başqalarının başçılığı altında ordu toplanıb tatarların üzərinə hücuma keçdi. Tatarlar yenildilər.Şirvan tatarlardan təmizləndi. Bəylərbəyi Araz xan Rumlu osmanlılara qarşı döyüşdə öldürülmüşdü. Yeni bəylərbəyi təyin etmək gərəkliyi düşünüldü. Qızılbaş əmirləri Həmzə xan Təmişli-Ustaclının namizədliyini irəli sürdülər. Dəlil gətirdilər ki, onun atası Abdulla xan uzun müddət Şirvanın bəylərbəyisi olub. Şahın arvadı bu təklifə etiraz edib qışın şaxtasında saraya qayıtdı. Qızılbaş əmirləri də qeyzlənib Məhdi Ülyanın ardınca Qəzvinə getdilər.

1579-cu ildə baş vermiş bu hücumda Məhəmməd Gəray xan Krım tatarlarından ibarət qoşunu ilə Şirvana hücum etdiyi zaman Məhəmməd xan Zülqədər onlara müqavimət göstərdi lakin bu müqavimət uğurlu olmadı, Qızılbaş əsgərləri döyüş meydanında həlak oldular və tatarlar Şirvan və Qarabağı talan etdilər. Qızılbaş ordusu tatarlara ikinci dəfə göstərdikləri müqavimət zamanı da məğlubiyyətə uğradılar[95].

Qəzvinə toplanan qızılbaş əmirləri sözü bir yerə qoyub and içdilər ki, dövlət işinə qarışan şah arvadını öldürsünlər. Ustaclı elinin ağsaqqalı Pirə Məhəmməd xan Çavuşlu onları bu fikirdən daşındırmağa çalışdı. Lakin qızışmış əmirlər saraya hücum edib Məhdi Ülyanı və tat-tacik ünsürlü bir çox əyan-əşrəfi öldürdülər. Hətta özünün ağlı və təcrübəsi ilə tanınan qorçubaşı Məhəmmədqulu bəy Avşar kimi nüfuzlu əmir də bu qəsdə cəlb edildi. Baş vəzir Mirzə Səlman Cabiri-İsfahani Xəlil xan Avşara sığınıb himayəsini yalvar-yaxar etdi[96].

1580-ci ildə Qızılbaşlar arasına yenidən ədavət düşdü. Şirvana təzədən soxulan tatarlara qarşı vuruşan bəylərbəyi Məhəmməd xəlifə Hacılar-Zülqədər Əmir xan Mosullu-Türkmandan kömək istəmişdi. Əmir xan köməyə gəlsə də, döyüşə candan atılmamışdı. Bu dəfə Şahrux xan Zülqədər onu suçlayaraq özü vuruşmağa

[95]Məhəmməd Möhsin Mustofi, Zübdətüt-təvarix, təshih Gudərzi Bəhruz, Tehran Universiteti nəşriyyatı 1375 h.ş; c.2 s. 686.

[96] İskəndər bəy Münşi, Tarixe-aləmaraye-Abbasi, Bakı, "Təhsil", 2009, 792 s. səh.501.



getmək istədiyini bildirdi. Ustaclılar da onun tərəfini tutub Əmir xanı mühakimə etdilər. Təfriqə yenidən başlandı. Öncə türkmanlara tərəf duran zülqədərlər və şamlılar bu dəfə ustaclılara qahmar çıxdılar. Şahrux xan Zülqədər açıq-açığa Əmir xanla düşmənçilik edirdi. Məhəmmədqulu xan Avşar araya girərək barışıq yaratdı.

1581 (hicri qəməri 989) –ci ilin yazında Qazi Girey və Səfi Gireyin başçılığı ilə Krım tatarları dördüncü dəfə Şirvana hücüm etdilər. Bundan bir qədər əvvəl İmamqulu xan Qacar qızılbaşların güclü dəstəsini (əasən qarabağlıları) həmellisi Peykər xanın köməyinə göndərmişdi. Şamaxıya hərəkət edən tatarlar başda Şirvan bəylərbəyi Peykər xan olmaqla qacar, çəkirli, qaramanlı və başqa tayfaların əmirləri ilə qarşılaşdılar. Döyüş Şamaxı ilə Şabran arasında baş verdi. Tatarların əvvəlki uğurlarının təsiri altında özünə güvənən Qazi Girey at belində döyüşün ən qızğın yerinə yeridi və Qarabağ qacarları tərəfindən əsir alındı. Tatarların və türklərin birləşmiş qoşunu yenidən ağır məğlubiyyətə uğradı. Səadət Girey də az qala əsir düşəcəkdi. Sağ qalan tatarlar və türklər (osmanlılar) döyüş meydanından qaçdılar. Şirvanlı Əbubəkr mirzə də aradan çıxdı. Bu savaşda avşarlar da fəal iştirak etmişdilər. Tarixçilər avşarların qəhrəmanlığını xüsusi qeyd edirlər.

1582-ci ildə Ümmət bəy Zülqədər Kuhgiluyədə avşarlarla qələndərlərin arasında gedən döyüşdə Fars vilayətinin əmirləri və hakimləri ilə birlikdə Qələndərlərə qarşı mübarizəyə qoşuldu, döyüş əsnasında Zülqədər qaziləri hücum çəkib düşməni məhv etmək istəsələr də onların tərəfdaşı Avşar qaziləri bu işi gördülər[97].

1583-cü ildə Fərhad paşanın başçılığı altında Osmanlı ordusu Azərbaycana hərtərəfli hücum etmişdi. Çuxur Səd bəylərbəyi Məhəmmədi xan (Toxmaq) Ustaclı ilk zərbəni yenə öz üzərinə götürmüşdü.

Daim qızılbaşlar arasında təfriqənin olmasını arzulayan baş vəzir Etimadəddövlə Mirzə Salman Cabiri-İsfahani Həmzə mirzəni adlı-sanlı Qızılbaş əmirləri Məhəmmədqulu bəy Avşara, Şahrux xan

[97]İskəndər bəy Münşi, Tarixe-Aləm arayi-Abbasi, c. 1, 2,3., təshih Rizvani İsmayıl, Dünyaye-kitab nəşriyyatı, 1377 h.ş.Tehran; c.1 s. 422.

Zülqədərə və Məhəmməd xan Türkmana qarşı qaldırmağa çalışırdı. O şahzadəni inandırırdı ki, «bu üç xadim sağ olduqca, şahın canişinin gülüstanı ətir saçmayacaq və çiçək açmayacaq»[98].

Qızılbaş əmirləri vəzirin onlara qarşı fitnələrindən xəbərdar idilər və onu öldürmək qərarına gəlmişdilər. Heratda olarkən Mirzə Salman məiyyəti ilə şəhər ətrafına gəzintiyə çıxmışdı. Aralarında Məhəmmədqulu xan Avşarın oğlu Yusif xanın, Məhəmməd xan Türkmanın oğlu Vəlican xanın, Şahrux xan Zülqədərin qardaşıoğlu Xəlil sultanın və başqalarının olduğu qızılbaş gənclər dəstəsi qocaman əmirlərin göstərişi ilə onların arxasınca düşdü. Yolda təqib edənlər barədə məlumat alan Mirzə Salman tələsik geri qayıtdı. O, sığıncaq tapmaq ümidi ilə dövlətxanaya-şahın və Həmzə mirzənin yanına gəldi. Belə olduqda qızılbaş əmirləri şah sarayının yerləşdiyi Sultan Hüseyn mirzə mədrəsəsinə gələrək vəzirin onlara verilməsini tələb etdilər. Onlar açıq surətdə bildirdilər ki, Mirzə Salman qızılbaşların düşmənidir, tayfalar arasında ədavət və düşmənçiliyin səbəbkarıdır. Xorasan əmirləri arasında itaətsizliyin və qiyamın günahkarıdır və o sağ olduqca əmirlər arasında birlikdən söhbət gedə bilməz. Şahın və Həmzə mirzənin təslim olmaqdan başqa çarəsi qalmadı. Çünki əmirlər əks təqdirdə Abbas mirzə ilə birləşəcəkləri ilə hədələyirdilər. Əmirlər öncə vəzirin bütün əmlakını qarət etdilər. Bir neçə gündən sonra isə Mirzə Salmanı qətlə yetirdilər[99].

1584-cü ildə şah və şahzadə Təbrizə gəlmişdi. Burada qışı keçirdilər. Yeni ilin yaz mövsümünə hazırlaşan Qızılbaş ordusunda təfriqə yenidən alovlandı. Artıq böyüyüb yaşa dolan Həmzə mirzə anasının qisasını almağa girişmişdi.

Əliqulu xan Fəthoğlu-Ustaclı şahzadənin beynini doldurdu ki, qorçubaşı Məhəmmədqulu xan Avşar Məhəmməd xan Türkmanla bərabər ananın öldürməsində günahkardır. Bu öyrətmədən sonra Həmzə mirzə qorçubaşını hədələməyə başladı. Sarayda olan qardaşıoğlu Cabbarqulu bəy şahzadənin hədəsini Məhəmmədqulu

[98] Yenə orda.

[99] İskəndər bəy Münşi, Tarixe-aləmaraye-Abbasi, Bakı, "Təhsil", 2009, 792 s. səh.561.



xana gizlincə çatdırdı. Məhəmmədqulu xan qaçıb osmanlılara qoşuldu. Bəzi qaynaqlarda Məhəmmədqulu xanın adı Allahqulu xan, bəzilərində isə sadəcə Qulu xan yazılır.

Həmzə mirzə Təhmasibqulu sultan Araşlı-Avşarı Məhəmmədqulu xanın əvəzinə qorçubaşı təyin etdi.

1585-ci ilin yayında Osman paşanın başçılığı ilə Osmanlı ordusu Azərbaycana yürüş etdi. Şah və şahzadə Qarabağda yaylaqda idilər. Çuxur Səd bəylərbəyi Məhəmmədi xan (Toxmaq) Ustaclı qərargaha qatıldı. Müdafiə planı hazırlandı. Bütün əyalətlərə xəbər göndərildi. Bəylərbəylər və hakimlərin qoşunları ilə Təbrizə toplanmaları əmr olundu. Türkman və Təkəli elinin əmirləri şahın əmrini rədd etdilər. Həmzə mirzə 20 min nəfərlik ordu ilə Qarabağ yaylaqlarından Təbrizə hərəkət etdi. Yolüstü Qaradağın Dizmar və Üzümdül mahallarında dincəldi. İlyas xəlifə Toxmaqlı-Ustaclı şah və şahzadəni qonaqladı.

Məhəmmədi xan (Toxmaq) Ustaclı Təbriz civarında, Sufiyan yörəsində osmanlılarla üzləşdi. Öncə qızılbaşlar qələbə qazandılar, sonra osmanlıların çoxluğu öz sözünü dedi. Qızılbaş ordusu geri çəkildi.

Şahzadə Həmzə mirzə Əliqulu xan Ustaclını özündən aralamadığından bəylərbəylikdən çıxarıb Hüseynqulu sultan Fəthoğlunu təyin etmişdi. Təbriz şəhərinin müdafiəsini möhkəmləndirmək işini Pir Qeyb xan Ustaclıya tapşırmışdı. Osman paşa güclü həmlə ilə Təbrizi aldı. Pir Qeyb xan və Hüseynqulu sultan şəhərdən çəkilib Qaradağda, Üzümdil mahalında şaha qoşuldular.

1586-cı ildə sarayda olan Zülqədər, Avşar və Qacar ellərinin nümayəndələri şahzadə Həmzə mirzənin tərsliyindən narazı olduqlarını bildirdilər. Orduya birlik gərək idi. Həmzə mirzənin güzəştə getməsini dilədilər. Həmin ellərin nümayəndələri olan qorçular, qvadiyaçılar qızışdırıcı Əliqulu xanın Təbrizdəki evini yağmaladılar. Harda ustaclı evi vardısa viran qaldı.

Həmzə mirzə Məhəmmədi xan Ustaclını Təbrizdə qoyub sarayı qorumağı tapşırdı. 3 min nəfərlik qoşunla Qəzvinə yola düşdü. Türkman qiyamçıları artıq paytaxtı almışdılar. Həmzə mirzə

Qəzvinə yaxınlaşdı. Burada Avşar və Bayat elindən ona qoşulanlar oldu. Qoşunun sayı 7 minə çıxdı. Qiyamçılar şahzadənin yaxınlaşmasını eşidib, paytaxtdan çıxdılar. 10 min nəfərdən çox olan qiyamçılar şah qoşunu ilə savaşda yenildilər.

1586-cı ildə qiyamı yatıran şahzadə Təbrizə qayıtdı. Həmzə mirzə yenidən qoşun toplamaq istədi. Türkman, Təkəli, Zülqədər ellərinin qırılanı qırılmış, qalanların bir hissəsi osmanlıların tərəfinə keçmiş, bir hissəsi isə ölkəyə səpələnmişdi. Avşar elinin nümayəndələri, əsasən İsfahan, Yəzd, Kerman və Kuhgiluyə qrupları isə ağsaqqaları Məhəmmədqulu xana görə küskün idilər. Xorasandakı ustaclılar və şamlılar Həmzə mirzəni eşitmək belə istəmirdilər. Onlar Abbas mirzəni şah görmək niyyətində idilər. Osmanlılar isə fürsətdən istifadə edib, Azərbaycana hücumlarını genişləndirmişdilər.

Həmzə mirzəni erməni dəlləyinin əli ilə öldürdülər. Qızılbaş əmirlərinin əsas kütləsi Qəzvin sarayından üz döndərib Abbas mirzəni şah kimi irəli sürən Xorasan əmirlərinin tərəfinə keçdi. Kerman, Yəzd, İsfahan və Kuhgiluyə avşarları Xorasan qızılbaşlarının tərəfinə keçdilər. İtaət ərz edən əmirlər arasında Kirman avşarlarından Vəli xan Avşar, Əbərkuh avşarlarından qorçubaşı Qulu bəyin oğlu Yusif xan, Mehdiqulu xan Zülqədər, Şirazlı Mirzə Salmanın oğlu Mirzə Abdullah, Qumdan gələn möhrdar Şahqulu xəlifənin nəvəsi Əliqulu sultan Zülqədər, Əstərabaddan gələn Əmir Həmzə xan Talış, Müseyyib xan Təkəli və Ərdəbil hüdudundan gələn Mehmed xan Türkman vardı[100].

I Şah Abbas Səfəvi taxta çıxandan sonra dövlət islahatlarına və yerdəyişmələrə başladı. Qızılbaşların nüfuzu azaldı. Avşarlar igidlikləri, qəhrəmanlıqları sayəsində bəzi əyalət və vilayətlərin idarəsini əllərində saxladılar.

I Şah Abbasın göstərişi ilə İsmayıl xan Alplı-Avşar 1589-cu ildə Yusif xanı vəzifəsindən kənarlaşdırıb, Vəli xanla birgə Kermanı idarə etməyə başladılar. 1592-ci ilədək Kerman əyalətinə başçılıq

[100]İskender bəy Münşi, Tarix-i Alem Ara-i Abbasi, Çev: Ali Genceli, TTK, İstanbul, 1945, c. II, Kısım I, s. 8.



etdi. I Şah Abbas onu Kerman əyaləti bəylərbəyliyindən çıxarıb Fərəh vilayətinə hakim göndərdi.

I Şah Abbas 1595-ci ildə Kuhgiluyə hakimi Həsən xan Əbdüllətif bəy oğlu Avşarı qardaşı və oğulları ilə tutduraraq Qəhqəhə qalasına saldırmışdı. Qəhqəhə qalasından qaçışa hazırlaşan əsir osmanlı sərkərdələri Mustafa paşa, Əhməd paşa, Şahqulu bəy, Xalid bəy və başqaları qalabəyi Müzəffər bəy Qaradağlını öldürüb, bir müddət qalanı idarə etdilər. Həbsdəki qızılbaşları incidib, əziyyət verirdilər. Üsyançılar qaladan çıxıb, getmək istəyəndə Həsən xan qardaş və oğulları ilə birgə onların qabağını kəsib, tərk-silah etdilər. Əl-qollarını sarıyıb köməyə gələn mühafizəçilərə verdilər. Xəbər I Şah Abbasa çatanda, avşarları zindandan çıxarıb, özəl qorçuları sırasına daxil etdi.

## *Avşar eli Nadir şahın hakimiyyəti dövründə*

Nadir şah Qırxlı-Avşarın hakimiyyəti dönəmində avşarlar yüksəliş yoluna qədəm qoydular. Bilik və bacarıqlarını ortalığa qoyub, mühim vəzifələr əldə etdilər.

Bu dönəmdə yüksələnlərdən biri də Əlirza bəy idi. Əlirza bəy Hüveyzə və Şüştər bölgələrində baş verən qiyamları yatırmağa ezam edilmişdi. Bura da dədə-baba avşar yurdu olduğundan Əlirza bəy müvəffəqiyyət qazana bilmədi.

Nadir şah Əlirza bəyi xəyanətdə və itaətsizlikdə günahlandırıb, öldürtdü.

Nadir şahın hakimiyyəti dönəmində Avşar elinin başçılarının hər birisi bir əyalətə və vilayətə hakim təyin edilmişdi. Məhəmmədmusa xan Məhəmmədqasım xan oğlu Qasımlı Əraq və Kaşana, Heydərqulu xan Qırxlı Şirvana, Bəhram xan Araşlı Şiraza, Məhəmmədqulu xan Araşlı Xorasanın Səbzivarına, Mehdi xan Həsən xan oğlu Qasımlı İrəvanın Qaramehdisinə, Lütfəli xan Kosaəhmədli Kermana, Musa xan Əmirli Taruma, Saleh xan Qırxlı Xorasanın Əbivərdinə, Əmiraslan xan Qırxlı Azərbaycana, Aşur xan Babalı

Arasbara təyin olunmuşdular. İbrahim xan Qırxlı Urmiyanın divanbəyi, Fətəli xan Araşlı orduda çərxçibaşı vəzifəsini tuturdu. Qasım xan Araşlı süvari dəstədə sərkərdə idi. Hüseynəli xan, Bisütun xan, Pero xan və başqaları Nadir şahın yaxınlarından sayılırdı[101].

Avşar eli müstəqil xanlıqlar dönəmində Urmiyada, Xəmsədə və digər yerlərdə öz özgürlüklərini, müstəqilliklərini elan etmişdilər.

## Avşar eli Qacarlar dövründə

Avşar eli Qacarlar sülaləsi dönəmində də dövlətin ictimai-siyasi yaşamında mühim rol oynamışlar. Rus-İran savaşları zamanı səngərlərdə sipər olmuşdular.

Abbas mirzə Qovanlı-Qacar rusların üzərinə hücum zamanı döyüş planı hazırlamışdı. Fransız müəllifi Jan Junior yazır: «Keçən gecə döyüş səflərinin düzülməsi planı tərtib olunmuşdu və zabitlər bilirdilər ki, səhər Şahsevən əsgərləri sağ cinahda dayanacaq, Əbdülməliki tayfası və Dəvəli Qacar tayfasının əsgərləri sol cinahda mövqe tutacaqlar. Qoşunun qəlbində-mərkəzində Avşar və Xocəvənd əsgərləri olacaqlar və cəbhənin arxasında süvarilər ehtiyat qismində mövqe tutacaqlar ki, lazım olan hissələrdə onlardan istifadə etsinlər.

Sağ qolun komandanlığı Mustafaqulu xan Şahsevənə və sol qolun komandanlığı Davud xan Dəvəli-Qacara həvalə olundu.

Abbas mirzə də qəlbdə komandanlığı öz öhdəsinə götürdü. Eyni zamanda bütün cəbhənin komandanı o idi. Allahyar xan Avşar Xəmsə cəbhənin qəlbində Abbas mirzəyə kömək edirdi»[102].

Əminə Pakrəvan yazır: " Abbas mirzə bu ən son əməliyyatını bir şans olaraq dənəmək istəyirdi. Bu üzdən də ən yaxşı və inanılır nəfərlərini, komutanlarını bu hücuma hazırladı. 5000 nəfər piyadə

[101]Mirzə Rəşid Ədibüşşüara, Tarixi Əfşar, Təbriz, «Şəfəq», 1346 hicri şəmsi, səh.86-87.

[102] J.Junior, Unudulmuş qəhrəmanlar, 2004, səh.259.



və 5000 nəfər də Avşar və Şahsevən ellərindən oluşan süvari təşkil etdi. İyirmi səkkiz top da bu hücumda kullanılacaqdı"[103].

## Əmirli oymağı

Avşar elinin qollarından biri də Əmirli oymağıdır. Bizim mülahamizə görə Gündüzlü oymağından yaranıb. F.Sümer bu oymağın adını Əbərli kimi qeyd edir. Tarixçi Məhəmməd Xaliqi Müqəddəm «Aləmarayi-Nadiri» və «Cahanquşayi-Nadiri» adlı əsərlərdən gətirdiyi bilgilərə görə, bu oymağın adı Əyirlidir. Bu oymağın bir hissəsi Tarımda, bir hissəsi isə Zəncanın İçrud və indiki Səidabad bölgələrində yaşayırlar.

Xəmsə avşarları Xəmsə, Qəzvin ilə Zəncan arasındakı idari bölgədə yaşamışdılar. Bu idari bölgənin mərkəzi də Zəncan şəhəri idi. Altı bölük qəzadan meydana gələn bu idari bölgədə avşarlar, bilxassə Qəzvinin cənubi-qərbindəki yörədən başlayıb, Sayınqala və Sultaniyəyə qədər uzanan yerlərdə və şimaldakı Yuxarı Tarum və Aşağı Tarumda və hətta Xalxal çevrəsində qələbəlik bir şəkildə yaşamaqdaydılar. Bunlara ümumi olaraq Xəmsəli avşarı deyilirdi. XVIII yüzilə aid qaynaqlardan, buranı idarə edən Avşar xanları da Xəmsəli, Tarumi və Xalxali nisbələri ilə anılırdı. Xəmsə avşarlarının çoxunun Əmirli oymağından olduğu bilinir.

Əmirlilərin I Şah Abbasın hakimiyyətindən öncə Qəzvin ətrafında yaşadığı bilinir. Şah onları Əbivərd yörəsinə göndərmişdi. Qaraoğlu qulamlardan Cəmşid sultan Gürcünü isə onlara başçı təyin etmişdi.

1719-cu ildə Xorasanda məskunlaşan Əmirli oymağı Nadirqulu xanın ətrafında birləşməyə başladı.

Əmirli oymağının ünlü əmirlərindən biri İmamqulu bəydir. Öncə Nadirqulu xana qarşı çıxmışdı. Sistan hakimi Məlik Mahmudun yanına gedib Nadirqulu xanın güclənməsi xəbərini çatdırmışdı.

[103] Əminə Pakrəvan, Abbas mirzə, Bakı, «Qanun», 2007, 208 s. səh.130.

Əmirli oymağının tanınmış simalarından biri də Musa bəy idi. Musa bəy Nadir şah Qırxlı-Avşarın özəl qvardiyasında qorçu idi.

Musa bəy Nadir şahı öldürən qəsdçilər arasında idi.

Musa bəyin qardaşlarından biri də Əmirgunə xandır. Əmirgunə xan Nadir şahın ölümündən sonra Gilanın valisi olmuşdu. Sonra Tarıma başçılıq etmişdi. Əmirgünə xan Avşar Fətəli xan Araşlı-Avşarla birləşib Kərim xan Zəndə qarşı çıxdı. Sonra Kərim xanın tərəfini tutub Fətəli xanı satdı. Kərim xan onu Şiraza «fəxri qonaqlığa» aparıb ali şuraya daxil etdi.

Kərim xanın vəfatından sonra Əmirgünə xan Tarıma qayıdıb özünün xanlığını elan etmişdi. İranı birləşdirməyə başlayan Ağaməhəmməd xanı tanımaq istəmirdi. 1782-ci ildə başqa xanlarla birləşib Mazandarana hücum etdi. Savaşda yaralanıb qaçdı.

Əmirli oymağının tanınmış simalarından biri Zülfüqar xandır. «Kitabi-məcməül-sultaniyyə»nin 370-ci səhifəsində yazılır: «Əyirli-avşar bir tayfa adıdır ki, Xəmsənin (Zəncanın) ətrafında sakindirlər. Zülfüqar xan Avşar (Zəndiyyə dönəmində) Zəncanın valisi və Kərim xan Zəndin siyasi rəqibi idi. Bugünkü Zülfüqarilərin ulu babası olub və Zəncanın Səbzə meydanında yerləşən imarət onunkudur». «Gülşəni-murad», «Rüstəmüttəvarix» və başqa kitablarda da onun haqqında məlumatlar verilib. Kitabların bir neçə yerində onun iqtidarı və qüdrətinə görə, «Alicah Zülfüqar xan», «Sultan Zülfüqar xan Əmirli-Avşar», «Xaqan» ünvanları ilə xatırlanıb. Zülfüqarilərin daxil olduğu əmirlilərin olduqları yer, Qoltuq qalası Zəncanın cənub yörəsində yerləşirdi.

## *Səidli oymağı*

Avşar elinin qollarından biri. Əsasən Urmiya və Xalxal ətrafında məskunlaşmışdı.

Səidli oymağının tanınmış əmirlərindən biri də Məhəmmədqulu bəydir. Məhəmmədqulu bəy xan ünvanı ilə Şirvana hakim təyin edilmişdi.



Səidli oymağının məşhur əmirlərindən biri də Mirzə Məhəmməd bəydir. Fətəli xan Araşlı-Avşara xidmət etmişdi.

Səidli oymağının tanınmış əmirlərindən biri də Şahməhəmməd bəydir. Şahməhəmməd bəy Fətəli xan Araşlı-Avşara xidmət etmişdi.

Səidli oymağının adıbəlli simalarından biri də Mirzə Mustafa bəydir. Mirzə Mustafa bəy Fətəli xan Araşlıdan başlamış, Hüseynqulu xan Qasımlıya qədər Urmiya xanlarının mustofisi (maliyyə müfəttişi) işləmişdi.

Səidli oymağının səsli nümayəndələrindən biri də Mirzə Məhəmmədhəsən bəydir. Mirzə Məhəmmədhəsən bəy Hüseynqulu xanın hakimiyyəti dönəmində xüsusi işlər vəziri vəzifəsində çalışmışdı.

Səidli oymağının məşhur əmirlərindən biri də Məhəmməd xandır. Məhəmməd xan 1779-cu ildə Xalxalda xanlıq iddiası edirdi. Ərdəbil hakimi Nəzərəli xana, Qarabağ hakimi İbrahimxəlil xana məktub və adamlar göndərib onu dəstəkləmələrini istəmişdi.

## *Şatiranlı oymağı*

Şəqaqi elinin əsas və aparıcı oymağı Şatiranlıdır. Bəzi mənbələrdə Şotlanlı da adlanır. Şatiranlı oymağı Xaltanlı, Külükcanlı (Külükşanlı), Hüyranlı, Muntanlı, Nəsranlı və Dəlikanlı (Dəliqanlı) tayfalarına ayrılır.

Şəqaqi elinin başçıları və Sərab hakimləri bu oymaqdan çıxırdı. Şatiranlı oymağı Sərab və Gərmərud mahallarında məskunlaşmışdı. Oymağın bəzi tayfaları Xalxal ərazisinə yayılıb.

Xalxalın cənubunda Kağızkünan, Xuruşrüstəm və Şahrud bölgələrində Avşar elinin səədli, şatiranlı, təğtəmşili tirələri dövran keçirirlər[104].

Dr. Yaşar Kalafat "Balkanlardan uluğ Türkistana türk halk inançlari II" kitabında yazır: "Yekamət bölgəsindəki Türk oba və

[104] Ənvər Çingizoğlu, Aydın Avşar, Avşarlar, Bakı, "Şuşa", 2008, səh.55.

oymaqları əsasən Şahsevən olaraq bilinirlər. Ayrımlılar bu bölgədə seyrəkdirlər. Bölgələri qonşudur. Bunlar dördə ayrılırlar. Üçü Ərdəbil, Xıyo və Qaradağdadır. Buranın göçəbələri Kelekcalu, Şatiranlı, Delikanlu və İnanlıdur. Dilləri Türkcə, dinləri İslamdır. Məzhəbləri ise Şiə-Oniki imamlıdır. Qışlaqları; Qamış Ağıl, Təpəbaşı (Kapılık), Qırxlar, Qızılqışlaq və Haldır. 2000-ci il etibariylə göçəbə kesimin əhalisi 1700-1800 civarında idi"[105].

Məhəmmədəli şah Qacarın səltənəti zamanında, Şatranlı oymağının bəzi xanları nüfuz və güc qazandılar. Bu dönəmdə ölkənin bir çox nöqtəsində əmniyət zəifiyəti ortaya çıxdı. Buna bağlı olaraq el bəy və xanlar önə çıxmağa başladılar. Bu qarmaşadan yararlanan Şatranlı bəyləri, təxminən iyirmi il müddətə Xalxalı idarələri altında tutdular.

Şatranlı oymağının xanı Əmir Əşair Mirzə Kiçik xan və cəngəllilərin dəvəti ilə Rəşt şəhərinin hakimi olmuşdu.

Əmir Əşairi Xalxali poladlılara yardım etdiyi üçün asılanlar arasında idi.

Əmir Əşairin Şəhabəssəltənə, Əhmədpaşa xan, Cəmşid xan adlı oğlanları vardı.

Cəmşid xan Əmir Əşair oğlu Xalxal şəhərində doğulmuşdu. Əmirpur soyadını daşıyırdı. Milli məclisə məktub göndərib, dövlət tərəfindən müsadirə olunmuş ata mal-mülkünü geri istəyrdi[106].

Əhmədpaşa xan Əmir Əşair oğlu Xalxal şəhərində dünyaya gəlmişdi. Şatranlı oymağının əhalisi ondan şikayət etmişdi[107].

Əmir Əşairin Abış xan adlı qardaşı tutulub Tehrana göndərilmişdi.

Əmir Əşairin bacısı Əzəmət xanım Xalxalın tarixində önəmli rol oynamışdı. Əvvəlcə o, Curuğ bəylə ailə qurmuşdu. Curuğ bəy

[105] Dr. Yaşar Kalafat, Balkanlardan Uluğ Türkistana Türk Halk İnançları II Kaşkayiler, Terekemeler, Elsevenler, Karakoyunlular, Kiresunlular, Avşarlar, İsmaili Hazaralar, Kengerliler, Caferiler, Karamanlılar, Niğariler, Ayrımlılar, Kekailer, Şebekler, Mavıllılar, Sarulular, Babil Yayınları Ankara 2005.

[106] http://dlib.ical.ir/site/catalogue/636173

[107] http://dlib.ical.ir/site/catalogue/656322



1900-cü ildə Şücaüddövlə tərəfindən öldürülmüşdü. Sonra Hüseynəli xan Poladlı ilə həyat qurmuşdu. Bu evlilik nəticəsində poladlılar güclənmiş, Xalxalda xeyli nüfuz qazanmışdılar.

Ş. 1302/ 1923-cü ildə Şatiranlı xanları dövlət gücləri ilə çatışmağa girdilər, ancaq yenildilər. Bu məğlubiyyətdən sonra bölgə mərkəzi hökumətin idarəsi altına daxil oldu.

Şatranlı oymağının başçılarından biri Məhəmmədtağı xan Yusif xan oğlu Əmirəhmədi 1906-cı ildə Givi mahalınınTəbrizəq kəndində anadan olmuşdu. Məmiş xan kimi tanınırdı. İbtidai təhsilini mollaxanada, sonra mədrəsədə oxumuşdu. Şair idi. Atası Yusif xan mahalın böyük maliklərindən sayılırdı.

II Dünya Müharibəsi dövründə Cənubi Azərbaycan ruslar tərəfindən yenidən işgal edildi. Məhəmmədtağı xan Şatiranlı, topladığı silahlı gücü ilə dövlətə qarşı üsyan etdi. Özünə aid 800 nəfərdən ibarət süvari gücü ilə Xalxalın mərkəzi olan Heroabadı ələ keçirdi. Bir neçə ay keçdikdən sonra Gilan Jandarma Birliyi rəisi yavər (mayor) Alai, əmrindəki jandarma gücü ilə Xalxal və Tarumdakı üsyanları yatırmaq üzrə hərəkətə keçdi. Çatışma nəticəsində Məhəmmədtağı xan həyatını itirdi.

Bunun ardından üç ay sonra Şatiranlı oymağı ilə sulh bağlandı. Daha sonra sərhəng (polkovnik) Canpolad bölgədə əmniyət və sakitliyi yaratmaqla vəzifələndirildi. Ş. 1321/ 1942-ci ildə Xalxala gələn Canpolad Şatiranlı oymağının əlindəki silahları topladı. Ərdəbil şəhəri prokuroru Füruğ başçılığında bir komissiya quruldu. Məhəmmədtağı xan Şatiranlı və adamlarının müsadirə etdiyi mallardan təsbit edilə bilənlər geri alınıb, sahiblərinə qaytarıldı[108].

Şatranlı oymağının Nəcəf xan, Məhəmməd xan adlı başçıları vardı.

[108] Xalxal, s.33; İrəc Əfşar, İlha, Çadurnişinan, 1.cild, s.121.

## *Poladlı oymağı*

Şahsevən elinin Poladlı oymağı Qacar səltənəti dönəmindən bəri İranın siyasi həyatına xeyli təsiri olub. Məşrutiyyət inqilabında şahın tərəfində idilər. İnqilabçılara qarşı vuruşublar.

Hicri qəməri 1341-ci ildə dövlət Şahsevən eli arasında təbliğat aparırıb, silahların təhvil verilməsini istədi. Camaat silahını verməkdən boyun qaçırdı. İran qoşunun sərkərdəsi Abdulla xan Təhmasibi bu oymaqla vuruşdu. Oymaq əhli dəfələrlə qoşunu dəf etməsinə baxmayaraq sonda məğlub oldu. Bu oymağın başçılarından olan Sövzü xan öldürüldü. Əmir Firuz və bir çox oymaq başçıları tutulub, Ərdəbil şəhərində asıldılar.

Əmir Əşairi Xalxali poladlılara yardım etdiyi üçün asılanlar arasında idi.

Hüseynəli xan Əmir Divan Poladlı oymağının başçılarından biri idi.

Hüseynəli xan 1923-cü ilin martın 21-də Abdulla xan Təhmasibi tərəfindən öldürüldü.

Hüseynəli xan Əzəmət xanım Şatiranlı ilə ailə qurmuşdu. Firuz xan adlı oğlu vardı.

Rzaqulu xan Poladlı daşnak Yefrem xanın öldürdüyü Şahsevən eli başçılarından biri idi.

Poladlıların qışlağı Muğandakı Poladlı quyusu, yaylağı isə Bağro silsiləsi idi.

## *İspərli oymağı*

İspərli oymağı öz adını İspir qəsəbəsindən alıb. İspirin də indi Ərzuruma tabe bir qəsəbə olduğunu bilirik. İspərlidən I Şah Abbasın ölümü sırasında Şikari sultanı tanıyırıq ki, Sərab və Ərdəbil valisi idi. İspərlilər Osmanlı fəthinə qarşı şiddətlə müqavimət edən oymaqlardan biri idilər.



## *Xalxal el-oymaqlarının gün-güzəranı*

Xalxal vilayəti Monqol yürüşünün sonlarında, Kağızkünan nahiyəsində əyləşən Saadlı/ Sadlı oymağının idarəsi altına daxil oldu. Onlar Fətəli şah Qacarın səltənətinin ilk illərinə qədər bu məntəqənin tamamının sahibiydilər. Saadlı xanlarının gücü zamanla azaldı, əsas nüfuzlarını itirdilər. Xalxal şəhərinin mərkəzi olan Hero/Heroabad, Saadlıların mülkiyətindəydi. Oranı tüccar və əhalinin qatılımı ilə 700 tümənə Saadlı xanlarından satın aldılar.

Xalxal geniş çəmənliklərə və yaylaqlara sahib bir bölgədir. Köçəri el-oymaqlar buralardan yetərli səviyədə yararlanmaqdadır. Şatranlıların köçü, Qızılüzəndən şimala doğru dar bir cığırdan keçərək, Səcabaddan *(Səncəbid)* təxminən 115 km şərqə Arpaçay təpələrinə doğru davam edir. Bu gözəl və zəngin yaylaqlarda bir müddət qaldıqdan sonra, buranın sərhəd-sınırlarından çıxaraq, Qızıl-Özənin şimalındakı dörd nahiyəyə dağılırlar. Heyvandarlığa yararlı olan bu bölgədə əkinçiliklə də məşğul olurlar.

Hələ qədim zamanlardan bu bölgədə Ustaclı, Avşar və Şahsevən ellləri məskunlaşmışdılar. Ustaclı eli İrəvan və Naxçıvan yörələrinə köçürüldü. Naxçıvanda yaşam sürən ustaclıların tərkibində Xalxallı oymağı vardı.

Avşar eli əsasən Tarum mahalında köç-düşlə məşğul olurdu. Şahsevən eli isə əsasən Xalxal ətrafında heyvandarlıqla güzəran keçirirdi.

XVIII əsrdən sonra Sərabda məskunlaşan Şəqaqi eli yavaş-yavaş Xalxalda yaylaqlara yiyələnməyə başladı.

Xalxal köçəriləri dini və ənənəvi bayramları şənlik içərisində keçirirdilər. Əyləncə və oyunu səvirdilər. Novruz, Qurban və Ramazan bayramlarında bir-birlərini ziyarət edirdilər.

Xalxal köçəriləri xanlığın əsas hərbi qüvvələri idilər.

Xalxal köçərilərinə mənsub şəxsiyyətlərdən biri Rəşidəssultan Hüseynqulu xan oğlu Xalxal şəhərində anadan olmuşdu. Hərbi məktəb bitirmişdi. İran Kazak diviziyasında xidmət etmişdi.

1916-cı ildə İbrahim xan Münşizadənin təşəbbüsü ilə ölkənin xainlərindən intiqam almaq ucun "Cəza komitəsi" təskil olundu.

Sonralar bu komitəyə Məmmədnəzər xan Mişkətülməmalik, Kərim Dəvatgər, dövlət buğda anbarının rəisi Mirzə İsmayıl xan Şirazi, Hüseyn Lələ, Ehsanulla xan Dustdar, yazıçı Mirzə Ələkbər Ərdaği, xəttat Hüseyn İmadulküttab və Hacı Zaman xan Kürdüstani Bahadurüssəltənə də daxil oldular.

Komitə üzvləri əvvəlcə məmləkətə xəyanət edənləri və anqlofilləri aradan götürməyə başladılar. Komitəyə təsadufi, mənfəətgudən tamahkarlar daxil olduqda komitənin butun sirləri acıldı.

Hacı Zaman xan Kürdüstani komitənin bütün sirlərini açdı onun hiyləsilə Komitə uzvləri Kürdustana, Bani səhərinə surgun olundular, 9 ay zindanda qaldıqdan sonra azad edildilər.

Komitə üzvlərinin vasitəsi ilə əhalini soyub-talayan bir neçə nəfər öldürüldü. Bu vaxt Kərim Dəvatgər komitənin sirlərini açmaq fikrinə düşdü. 3 aprel 1917-ci ildə Rəşidəssultan Seyid Murtuza ilə birlikdə satqın Kərim Davətgəri cəzalandırmışdı.

1918-ci ildə Həsən Vüsuq (Vüsuquddövlə) Baş nazir təyin olundu və dərhal "Cəza komitəsi"nin butun üzvülərini həbs etdi. Hüseyn Lələni və Rəşidüssultanı dar ağacından asdılar.

| Xalxal ellərinin müxtəlif qaynaqlara görə sayları | | | |
|---|---|---|---|
| *Qaynaq* | *İl* | *Elin adı* | *Sayları* |
| Henry Field | 1920 | Şatranlı | 2.000 xanə |
| Henry Field | 1920 | Xılıqcanlı | 150 xanə |
| Dr. Məsud Keyhan | 1308/1929 | Şatranlı | 1.000 xanə |
| Dr. Məsud Keyhan | 1308/1929 | Kəlişanlı | 200 xanə |
| Dr. Məsud Keyhan | 1308/1929 | Dəliqanlı | 400 xanə |
| Ali Rəzm-ara | 1320/1941 | *(Tamamı)* | 7.000 xanə |
| Elat işləri təşkilatı/ Sazman-i Umur-i Əşayir | İnqilab sonrası | *(Tamamı)* | 4.152 xanə / 24.912 nəfər |



[109]Xalxal şəqaqiləri 1920-ci ildə Şatranlı və Xılıqcanlı olmaq üzrə iki önəmli oymaqdan ibarət idi.

1954-cü ildə Şatranlı oymağının rəisi Cəmşid Əmirpur, xılıqcanlıların rəisi Kərim Sövləti, dəliqanlıların rəisi Əmir Atayi Baxşalı xan idi. Hələ bu bölgənin el-oymaqları; Xılıqcanlu, Şatranlı, Dəliqanlı və inanlulardır.

Xalxal suyu və havası gözəl, geniş yaylaqlara sahib bir bölgədir. Ellər güzəranlarını heyvandarlıqla keçirirlər. Hazırladıqları yağ, pendir, yun və toxuculuq məmulatlarından yaxşı gəlir əldə edirdilər. Xalı, kilim, cicim, yun, şal və qumaş toxumaları əl sənətləri arasındadır[110].

Hüseyn Dəlili yazır: "Xalçaçılıq sənəti eyni zamanda Ərdəbil, Meşkin, Xalxal, Əhər, Şərəbiyan və başqa yerlərdə geniş inkişaf etmişdi. Azərbaycan xanlıqlarında, xüsusilə Ərdəbildə həm də külli miqdarda cecim, palaz, kilim, keçə, xurcun materialları və sairə bu kimi şeylər istehsal edilirdi"[111].

Yaxın illərədək geniş yayılmış toxuculuq məhsulları alıcılarının sayı qiymətin bahalığı səbəbindən tədricən azalmışdır. İran İslam İnqilabından sonra meydana çıxmış peroblemlər də bu qəbildən olan əl sənəti nümunələrinin ixracatının aşağı düşməsinə səbəb olmuşdur. Odur ki, hal-hazırda Muğan varnitura üslubunda toxuculuq məhsulları yalnız daxili bazarın, nadir hallarda xarici bazarın ən zəruri ehtiyaclarının ödənilməsi üçün istehsal edilir.

[109] Mərdumşinasi, s.206; Coğrafiya-yi Nizami İran, Azərbaycan xavəri, s.111; Məcmuə-i ittılaat və amar-i ilat və təvəyif-i əşayiri İran, s.5.
[110]İrəc Afşar, İlha, Çadurnişinan, 1.cild, s.121-122.
[111] H. Ə. Dəlili, Azərbaycanın cənub xanlıqları XVIII əsrin ikinci yarısında, Bakı, Elm, 1979, səh.101.

Ümumiyyətlə, marketinqlər şəbəkəsinin genişlənməsi ilə yaranan çətinliklər və varnitura üslübu ilə toxunmuş məhsulların ixracatına qoyulmuş məhduduyyətlər bu sənətin son illərdə Ərdəbil vilayətində tənəzzül etməsinə gətirib çıxarmışdır.

Cecim toxuculuğu Xalxal vilayətində əl istehsalı sənəti sahələrindən biri sayılmaqla, uzun bir inkişaf yolu keçmişdir. Xalxal bölgəsi, Xuruşi-Rüstəm ərazisinin bəzi hissələri, xüsusilə də Bərəndağ və Təmhil kəndləri cecim toxuculuğunun daha geniş yayıldığı bölgələrdəndir. Yüzlərlə ailə məhz cecim istehsalı üzrə ixtisaslaşmaqla, onun satışından əldə edilən gəlirlər hesabına yaşamaqdadırlar.

Xalxal şəhəri və onun ətraf kəndlərindən başqa, Ərdəbil vilayətinin digər məntəqələrində, o cümlədən, Şahsevən, Təmcid və Meşkinşəhrdə cecim toxuculuğu geniş yayılmışdır[112].

Xalxal köçərilərinin istifadə etdikləri alaçıqlar yurdun ən gözəl hissəsində, göy çəmənlikdə, hündür yerdə tikilirdi ki, yağış, sel ciddi ziyan vurmasın. Müvəqqəti ev olan alaçığın tikilməsi üçün uzunluğu 5 metrə çatan, alaçığın böyüklüyündən asılı olaraq lazım olan qədər düz çubuqlar kəsilir və həmin çubuqlar bir yastı yamacda bir-birinin yanında dairəvi basdırılırdı. Çadır çubuqları arasındakı məsafə 25-30 sm olardı. Çubuqların başlarını əyib iplə bir-birinə dairəvi şəkildə bağlayır və qoyun yunundan hazırlanmış keçəni bir neçə adamın köməyilə həmin çubuqların üstünə salırlar. Keçə çadır elə salınır ki, "ev"in hər tərəfini tutsun. Güclü küləyin, tufanın çadırı atmaması üçün üzərindən aşırma kəndirlər bağlanır, bəzən də kəndirlərin ucundan ağır daşlar bağlayırdılar. Güclü yağış yağan vaxtı selin evə dolmaması üçün çadırın kənarı ilə arx çəkilir, bəzən də keçənin ucları sel tutan istiqamətdən yerə basdırılırdı. Alaçığın ortasından tüstü çıxmaq üçün baca açılırdı və keçədən qoyulan qapı evə xüsusi gözəllik verirdi. Evin içəri hissəsinə isti və rahat olması üçün döşəməyə həsir, onun üzərinə keçə, bəzən də keçənin üzərinə xalça, xalı döşənirdi. Yerindən asılı olaraq yeni düzəlmiş evin içəri

[112] Əfşar İrəc, Niqahi bə Azərbaycani şərqi, Cilidi duvvum, intişarati-Bəhmən, 1369, s.123.



hissəsindən divarına qamışdan toxunma köməkçi örtük çəkilir. Alaçığın dəyə, nəmi adlanan hissəsinə yardımçı əşyaları, ağartını, motalı, tuluğu yığırlar. Adətən tikilən alaçıqlar iki cür olurdu: Qara keçədən, digəri isə qonaq evi kimi ağ keçədən. Ağ alaçıq qonaq evi kimi daha çox bəzədilir, orada ocaq az yandırılırdı.

## *Xalxal kəndlilərinin güzəranı*

Xalxal əsasən dağlıq ərazidir. Dağ bölgələrində də əkinçiliklə məşğul olurdular. Yaqut əl-Həməvinin məlumatına görə, Xalxal vilayətinin əksər kəndləri və əkin yerləri uca dağlarda yerləşirdi.

Tariximizin bu dövründə ölkənin iqtisadi həyatında böyük rol oynamış onlarla kiçik şəhərlər var idi: Miyanə, Xalxal, Kağazkunan (Xunəc), Əhər, Sərab, Unar, Cəbrəvan, ğiz, Uşnuh, Dəhhərrəqan, Bərzənc və b. Əvvəllər olduğu kimi, bu dövrdə də feodal şəhərləri yarımaqrar xarakterli idi. Bağçılıq və heyvandarlıq kiçik şəhərlərin çoxunun iqtisadiyyatında mühüm rol oynayırdı. Bu tipli şəhərlərin bəzilərində (Səlmas, Sərab, Xalxal və b.) sənətkarlıq məhdud xarakterli və yalnız yerli əhəmiyyətli idi. Elə şəhərlər də vardı ki, burada sənətkarlıq və aqrar təsərrüfat eyni səviyyədə idi. Urmiya, Uşnuh, Mərənd, Unar və başqaları belə şəhərlərə aid idilər. Aqrar təsərrüfatın və bununla bağlı kəndlilərin üstünlük təşkil etdikləri bu yaşayış məskənlərinin şəhər adlanması çox vaxt onların müəyyən inzibati vahidlərin mərkəzi olması ilə əlaqədar idi.

XVI əsrin ilk rübündə daxili feodal müharibələrinin, çəkişmələrinin azalması və digər amillər kənd təsərrüfatının, iqtisadiyyatın başqa sahələrinin dirçəliş prosesinə təkan verdi. Əkinçilik əhalinin başlıca məşğuliyyət sahəsi idi. Taxıl bitkiləri (buğda və arpa) təqribən Azərbaycanın bütün bölgələrində (Şirvan, Muğan və Aranda, eləcə də cənub vilayətləri olan Ərdəbildə, Xalxalda) əkilib-becərilirdi. Səfəvi dövləti ərazisində buğdanın bolluğu da təsdiq edilmişdir. Anonim Venesiya tacirinin məlumatına əsasən Təbriz və Xalxal bölgəsində "xeyli arpa, bol buğda və çovdar əkilirdi". Kənd

sakinlərinin əsas və ənənəvi məşğuliyyət sahələri bağçılıq, bostançılıq olmuşdur. Əmin Əhməd Razi Təbriz bölgəsində becərilən almanın, armudun, gavalının, gilənarın, üzümün əla dad keyfiyyətinə malik olduğunu göstərir, Ərdəbil, Xalxal, Marağa bölgələrində barlı meyvə bağlarının mövcudluğunu təsdiq edirdi. Anonim tacir Sufıyan, Mərənd və Xoy bölgələrində də gözəl meyvə bağlarının olduğunu yazırdı. Alessandri qeyd edir ki, "meyvələr keyfiyyətinə və dadına görə dünyanın başqa bölgələrində becərilən meyvələrdən üstün idi". Meyvə bağları və bostanlar Azərbaycan şəhərlərinin həyatında da mühüm yer tutur şəhər sakinlərinin ehtiyacını ödəyirdi.

Xanlıq dövründə Xalxalda maldarlığın müxtəlif tiplərindən asılı olmayaraq oturaq əhali əsasən əkinçiliklə məşğul olurdu. Bunlar maldarlıqdan əlavə taxıl əkinçiliyi ilə yanaşı bağçılıq, bostançılıq, tərəvəzçilik və texniki bitkilərin becərilməsi ilə də məşğul olurdular.

Oturaq maldarlığın düzən tipini səciyyələndirən mədəni-təsərrüfat kompleksləri başlıcı olaraq Kivi, Şahrud və Xuruş Rüstəm ovalıqlarında yayılmışdır. Mülayim iqlim heyvanların demək olar ki, bütün il boyu açıq havada saxlanılmasını təmin edirdi.

Dağətəyi maldarlıq tipi kompleksinin fəaliyyəti zamanı sahibkarlar yay vaxtı öz əkin və biçin işləri ilə məşğul olarkən mal-qaranı kənddən aralı dağlıq ərazilərə çıxarırdılar. 2-3 ay yaylaqda qaldıqdan sonra, olar öz heyvanları ilə yenidən arana enirdilər.

Dövran avşarları say etibariylə digərlərinə görə bir az daha zəifdir. Sayları 5 min ailəyə çatır. Daha öncə yaylamaq üçün Sultaniyənin cənubunda yerləşən dağlıq məntəqəyə, Tarumun şimal-şərqindəki dağlara və Qızılüzən çayının qərbinə gedərdilər. Daha sonraları bu bölgələrin özəl mülk halına gətirilməsindən yana, burada kəndlər qurub yerləşdilər və əkinçiliklə məşğul olmağa başladılar. Bu avşarlar çox sayda dəvəyə sahib topluluqdular. Savaşlar və məruz qaldıqları soyğunlar səbəbiylə sayları zamanla azaldı[113].

Xalxal əhalisinin bir hissəsini təşkil edən əkinçilərin iqtisadi-ictimai vəziyyəti haqqında əldə kifayət qədər məlumat yoxdur.

[113]Mərdumşinasi İran, s.203; Coğrafya-yi Müfəssəl-i İran, Keyhan, II cild, s.112-213; İrəc Əfşar Sistani, İlha Çadurnişinan..., II cild, s.213.



Lakin əkinçilər torpaq sahələrinə xas olan mülkün hamısından istifadə edə bilmirdilər.

Xalxalda XIX əsrin sonu, XX əsrin əvvəllərində iri torpaq sahiblərinin nəzarət dairəsi günü-gündən genişlənir və ixtiyarında olan sahələrdən vergi də toplamalı idilər. Bu səbəbə görə dövlət özü də müəyyən dərəcədə vergilərin toplanmasında feodallardan asılı vəziyyətə düşürdü. Dövlətin isə feodalların nüfuzunu aradan qaldırmaq cəhdi çox vaxt müvəffəqiyyətsizliklə nəticələnirdi.

Böyük torpaq sahələri məhdud müəssisə şəklini almaqla onların əksər hissəsi icarəyə verilirdi. Bu qəbil mülklərdə kəndli dəstələri fəaliyyət göstərir, feodal və əyanların buğda, yağ, ət və meyvəyə olan tələblərini ödəyirdilər. Kəndlilərə natural formasında əmək haqqı verilirdi; vergilər də natural halında toplanılırdı. Mülkədarlar şəhərlərdə deyil, kəndlərdə öz malikanələrində möhkəmləndirilmiş yerlərdə yaşayırdılar.

Xalxalda köçərilər oturaq əhalini "tat" adlandırırdılar. Öz köçəri məişəti ilə fəxr edən türk köçəri tayfaları etnik mənşəyindən asılı olmayaraq onlardan asılı olan ölkələrin bütün əkinçi əhalisini tat adlandırırdılar. Belə ki, «müəyyən mədəni tipə məxsus olmaq əlaməti türklərin nəzərində daha çox fərz idi, nəinki milli və dil əlaməti». Tədqiqatçı Riçard Tapper yazır: «1960-cı illərdə, Şərqi Azərbaycanda yaşayan bir xalq kateqoriyası olaraq Şahsevən, oturaq kəndliliyi bildirən «tat»a qarşı «el» olaraq yaranmış köçəri heyvandarlar olduğunu vurğular. Bu qarşılığın köklərini ekonomik və siyasi tarixdə aramaq gərəkdir.

Bölgədə el bəylərinin hakim vəziyyətdə olduqları 1923-cü ildən qabaq, Şahsevəni tanımlayan ana özəllik, rəsmən qəbul edilmiş bir tayfaya mənsub olmalalarıydılar. El camaatının böyük bir bölümü çadırlarda yaşayan və qoyun yetişdirən köçəri çobandılar; ancaq kəndlərdə oturaq olaraq yaşayan və əkinçiliklə məşğul olanlar da vardı»[114].

[114] Riçard Tapper, İranın sınır boylarında göçəbələr, Ankara, 2004, səh.534-535.

Rusiyanın etnoqraf alimləri Mixail Nikolayeviç Qubuqlo[115], Y. B. Simçenko və başqaları belə hesab edirlər ki, «tat» sözü türk kökənli söz olub, «oturaq həyat tərzi keçirən qeyri-türk əhalini köçəri türklərdən ayırmaq üçün» işlədilən sözdür, sonralar bu söz etnik ada çevrilmişdir.

Xalxal vilayətində talışlar da yaşayırlar. Onlar əsasən Xalxal şəhristanı, Şahrud bəxşinin Külür, Şal və Lerd kəndlərində əkinçiliklə məşğul olurlar[116]. Xalxalda əkinçilik Azərbaycanın digər bölgələrindən fərqli idi. Onlar taxıl-tərnəni satlıq üçün deyil, şəxsi istifadələri üçün əkirdilər. Əyləşib, əkinçi olmalarına baxmayaraq Xalxal avşarların güzəranı, məişəti hələ də köçmə dövrlərində olduğu kimi idi. Məhəmməd Tağı Bəhmən köçərilərinin maddi mədəniyyəti məsələsini araşdırarkən belə bir qənaət söyləyir: «Əhalinin təsərrüfat məişətindən asılı olaraq, yeməklərdə fərq müşahidə olunur. Əkinçilik və bağçılığın geniş inkişaf etdiyi kəndlərdə yeməli bitki məhsulları, xüsusən dənli bitkilər üstünlük təşkil edirdi. Maldar ellərin gündəlik yemək öynəsində isə süd məhsulları və ətli yeməklər üstün yer tuturdu»[117].

Xalxalda əkinçilik sisteminin əsas təyinedici əkin sahələrinin müvafiq strukturudur, bu məhsul vahidinə ən az əmək vəsaiti sərf etməklə sahənin hər hektarından maksimum kənd təsərrüfatı məhsulları götürülməsini təmin etməlidir. Buna görə də əkinçilik sistemləri tərtib edilərkən hər şeydən əvvəl yerli şəraitdə müvafiq olan əkin sahələri strukturunu tərtib edirlər. Bu struktur dövlətə bitkiçilikdən texniki və ərzaq məhsullarının artıqlaması ilə ödənilməsini, eləcə də inkişaf edən heyvandarlığın yemlərə olan tələbatını bütünlükdə təmin etməlidir.

[115] Губогло М. Н. «Языки этнической мобилизации», М., 1998.
[116] http://www.ethnologue.com/show_language.asp?code=shm Shahrudi
[117] Bəhmən M. T. Ürf və adət dər əşayer-e Fars.Tehran, 1324, s.101.



# IV FƏSİL

## Xalxal xanlığının ictimai-siyasi həyatı

### *Əmirgunə xan Əmirli-Avşar*

Əmirgunə xan Avşar elinin Əmirli oymağındandır. Nadir şah Qırxlı-Avşarın ordusunda sərkərdə olmuşdu. Şahın qatillərindən olan Musa xanın kiçik qardaşıdır. Bəzi bilgilərə görə isə oğludur. Onun Musa xan adlı qız nəvəsi olduğuna görə bu versiya ağlabatandır.

Onun əslən Tarumlu olduğu bilinir[118]. Tarum mahalı XVIII əsrdə Xalxal vilayətinin tərkibində idi.

Əmirgunə xan Nadir şahın ölümündən sonra Gilanın valisi olmuşdu. Sonra Taruma başçılıq etmişdi.

Əmirgunə xan Məhəmmədhəsən xan Qovanlı-Qacarın tərəfini tutmuşdu. Məhəmmədhəsən xan 1757-ci ildə Cənubi Azərbaycana, Təbrizə yürüş etdi. Ordan da Urmiyaya gəldi. Müharibənin uzanmasından və Məhəmmədhəsən xanın qalib gələcəyini ehtimal edən bir sıra sərkərdələr Fətəli xanı tərk etdilər. O cümlədən Azad xan Əfqan döyüşçüləri ilə birlikdə Bağdada qaçdı. Şahbaz xan Dünbülü Xoy qoşunu ilə Qacar qoşununa qoşuldu.

Məhəmmədhəsən xan Azərbaycana hücum edəndə Şahbaz xan Dünbili Xoy qoşunu ilə bərabər onun tərəfinə keçdi[119].

Məhəmmədhəsən xan Qovanlı-Qacarın Azərbaycandakı qələbəsini eşidən Kərim xan Zənd öz qardaşı Şeyxəli xan və sərkərdəsi Məhəmməd xanın başçılığı ilə öhdəsindəki bütün qoşunu Mə-

[118] Mehdi Bamdad, *Şərh-i hal-i rical-i İran dər qərn-i 12 və 13 və 14 hicri*, Tehran, 1371 hş., I, səh. 171.
[119] Hadi Hidayət, Tarixe-Zəndiyye, Tehran, 1334, səh.135.

həmmədhəsən xana qarşı göndərdi. İki ordu Astarabad vilayətində üz-üzə gəldi. Məhəmmədhəsən xan ordusunun əsas cinahlarını azərbaycanlı döyüşçülər təşkil edirdi. Baş verən müharibədə Zənd qoşunları darmadağın edildi. Şeyxəli xan çətinliklə xilas olaraq qaçdı.

Vəziyyəti belə görən Kərim xan artıq Məhəmmədhəsən xanla döyüşməyə cəsarət etmədi.

Mirzə Ələkbər xan Dehxuda yazır ki, Əmirgunə xan Məhəmmədhəsən xan tərəfindən İsfahanın hakimi olmuşdu[120].

Məhəmmədhəsən xan Fətəli xan Araşlı-Avşarla və Əmirgunə xanla birləşib Şiraza Kərim xan Zəndin üstünə hücuma keçdi. Şirazın yaxınlığında Fətəli xan Məhəmmədhəsən xanla mübahisə edib geri qayıtdı. Sonra əfqanların bir hissəsi də ayrıldı.

Təklənən Qacar sərkərdəsi savaşdan əl çəkməyə və yenidən qoşun toplamaq məqsədilə Mazandarana qayıtmağa məcbur oldu. Qəzvin ətrafında onları izləyən Zənd qoşunu ilə təkrar savaş baş verdi. Sərkərdə Məhəmməd xan öldürüldü.

Çox keçmədi ki, Dəvəli oymağı da xəyanət yolunu tutdu. Məhəmmədvəli xan qardaşı Hüseyn xanı öyrətdi ki, Məhəmmədhəsən xanı Mazandarana buraxmasın. Hüseyn xan da Məhəmmədhəsən xanla vuruşa bilməyəcəyini düşünüb Damğana qaçdı. Burda bir neçə xanla birləşdi. Onlar da (İbrahim xan Buğayiri və başqaları) Məhəmmədhəsən xandan yanıqlı idilər.

Məhəmmədhəsən xan Damğanı mühasirə etdi. Şeyxəli xan Zəndin Firuzkuha çatdığını eşidib mühasirəni buraxdı. Qorxdu ki, Şeyxəli xan Astrabadı tutar, onun ev-eşiyinə, qohum-qəbiləsinə ziyanlıq vurar. Əmisioğlu Məhəmməd xanı Astarabada hakim təyin etmişdi. Astarabada getdiyini görüb ətrafındakı qoşun yenidən qaçıb-dağıldı. Yanında qalanlar aşağıbaşlılar idilər. Astarabada gəlib qoşun yığmağa, müdafini möhkəmlətməyə girişdi. Hüseyn xan Dəvəli Sariyə gəlib, Şeyxəli xanla birləşdi. Birlikdə Astrabada hücuma keçdilər. İlk vuruşmada tərəflər itki vermədən ayrıldılar. Şeyxəli xan sahil tərəfdən hücuma keçməyi planlaşdırdı.

120 http://words.wikipg.com/mean/لغت-نامه-دهخدا/امیرگونه-خان



Məhəmmədhəsən xan da Astrabadın içindən sahilə getdi. Dənizin sahilində, Gülabad adlı yerdə savaş olmuşdu. Fərli bir sonuc, nəticə alınmamışdı. Şeyxəli xan Sariyə çəkilmiş, Məhəmmədhəsən xan Astarabada qayıtmışdı.

Məhəmmədhəsən xan Astrabad ətrafından, Gəraylı, Hacılar, Kəfşilər, Kətul və başqa oymaqlardan 18 min nəfərlik qoşun topladı. Sonra Astarabadda bütün Qacar elinin ağsaqqalarını məşvərətə çağırmış, Hüseyn xanı da dəvət etmişdi. Dəvəli başçılarının hamısı məşvərətdən sonra, Məhəmmədhəsən xanın göstərişi ilə Səbzəli xanın adamları tərəfindən öldürülmüşdü.

Məhəmmədhəsən xan Mazandaranda Şeyxəli xan Zəndlə döyüşdə məğlub oldu. Astrabada qaçarkən, Sınıqkörpü ətrafında, 1758-ci ildə öldürdülər.

Əmirgünə xan Əmirli-Avşar sonra Fətəli xan Araşlı-Avşarla birləşib Kərim xan Zəndə qarşı çıxdı. Sonra Kərim xanın tərəfini tutub Fətəli xanı satdı. Kərim xan onu Şiraza «fəxri qonaqlığa» aparıb ali şuraya daxil etdi.

1763-cü ildə Yəzd hakimi Tağı xan üsyan etdi. Rüstəmülhükəma Məhəmmədhaşim Asəf yazır: Alicah Tağı xan Darülaman Kirmanda üsyan qaldırıb Xudamurad xan Qeytas xan oğlu Zəndi öldürdü[121]. Üsyanın yatırılması üçün Kərim xan Məhəmmədəmin xan Gərrusini və Əmirgunə xan Avşarı məmur etdi. Yolda iki sərkərdənin arasına ixtilaf düşdü, bir şey bacara bilmədən döndülər. Kərim xan Məhəmmədəmin xanı baş sərkərdə təyin etdi. O, qoşunla şəhərə hücum etdi. Amma məğlub olub ətraf kəndlərə çəkildi. Tağı xan Durrani şəhərdən çıxıb Məhəmmədəmin xanın üzərinə basqın etdi. Vuruşmada Məhəmmədəmin xan məğlub oldu[122].

121 Rüstəmülhükəma Məhəmmədhaşim Asəf, *Rüstəmüttəvarix*, Tehran, "Dünya kitab",1382, səh.388.

122 Məhəmməd Sadiq Nami, *Tarix-e qitiquşa*, təshih S. Nəfisi, Tehran, 1987, səh.47-48.

Məhəmmədəmin xanın məğlubiyyətindən sonra Kərim xan Zənd Əli xan Şahsevəni yeni qoşunla Kirmana göndərdi[123]. Əli xan Şahsevən döyüşdə aldığı güllə yarasından vəfat etdi. Kərim xan bu dəfə Nəzərəli xan Zəndi çoxsaylı qoşunla Kirmana göndərdi. Tağı xan döyüşdə əsir düşdü. Onu zəncirə vurub, Şiraza götürdülər. Kərim xan niyə Əli xan Şahsevəni öldürdüyünü soruşdu. Cavab tapa bilməyən Tağı xanı ipə götürdülər. Bir uca yerdən asdılar.

Kərim xanın vəfatından sonra Əmirgünə xan Taruma qayıdıb özünün xanlığını elan etmişdi.

Əmirgünə xan Nəzərəli xan və Hidayət xanın dava-dartışmasında Gilan hakiminin tərəfini tutmuşdu. General-poruçik Aleksandr Suvorov 28 iyul 1780-ci ildə Həştərxandan Q. A. Potyomkinə məruzəsində yazırdı: «Nəzərəli xan Rəşti alandan sonra Hidayət xan canını qurtararaq gəmidə Rəştin 10 saatlığında Mazandaran tərəfdə Səfidrud çayının mənsəbinə gəlib-çıxmışdır. O. Rəştin 150 verstliyində Təbriz tərəfdə yaşayan xalxallı Əmirgunə xana kömək etməyi xahiş etmişdi və onun tələb etdiyi hər şeyi yerinə yetirməyə boyun olmuşdur. Əmirgunə xan, guya, onun xahişi ilə qoşunla Rəşt yaxınlığına gələrək həmin şahsevənli Nəzərəli xanı ordan qovub-çıxarmış və həmin şəhəri idarə etmək üçün əvvəlki kimi Hidayət xana vermişdir. Nəzərəli xan isə Xalxal xanına müqavimət göstərmək iqtidarında olmadığını görüb, ordan çıxarkən şəhərdəki bütün tikililəri və bağları yandırmışdır. Lakin bu məlumatın təsdiqini gözləmək lazımdır»[124].

Əmirgunə xan İranı birləşdirməyə başlayan Ağaməhəmməd xanı tanımaq istəmirdi. 1782-ci ildə başqa xanlarla birləşib Mazandarana hücum etdi. Savaşda yaralanıb qaçdı.

Jan Gevr yazır: "1196 hicri-qəməri, cümə günü Əmir Günə xanın qoşunu Amol şəhərinə yaxınlaşdı ancaq gecə olduğuna görə hücum edə bilmədilər. Ağa Məhəmməd xan Qacar öz qoşununun fərmandehliyini öhdəsinə götürmüşdü, gecə ikən qoşununu

[123] Rüstəmülhükəma Məhəmmədhaşim Asəf, *Rüstəməttəvarix*, Tehran, "Dünya kitab",1382, səh.390.

[124] ЦГВИА, ф. 52, д. 218, лл. 39-40.



düşərgədən çıxardı. Zəxirədə olan qoşunun fərmandehliyini isə qardaşı Mustafaqulu xana tapşırdı. Ağa Məhəmməd xan qoşunun mərkəz hissəsini üç sıraya düzdü. Birinci sırada duran əsgərlər bir dizini yerə verib tüfənglərini əldə hazır saxlamışdılar. İkinci sıranın əsgərləri onların arxasında ayaq üstə durmuşdular, üçüncü sırada süvarilər idi ki, at üstə, tüfəng əllərində düşməsinin gəlişini gözləyirdilər.

Ağa Məhəmməd xanın əsgərləri növbə ilə elə atışmalı idilər ki, onların əllərində həmişə dolu tüfəng olsun. Belə ki, birinci sıranın əskərlərinin tüfəngləri boşalıb qurtaran kimi ikinci sıranın əsgərləri atışmağa başlayırdı və birinci sıranın əsgərləri vaxtdan istifadə edib boş tüfənglərini doldurmaqla məşğul olurdular. İkinci sıranın da tüfəngləri boşalandan sonra üçüncü sıra, daha doğrusu süvari dəstəsi atışmağa başlayırdı. Bu tövrlə tüfəng atmağın xeyrindən başqa bir çatışmayan cəhəti də var idi. Belə ki, tüfəng bir neçə dəfə dolub-boşalandan sonra qızır, əsgərin əlini yandırırdı, ya da ki, barıtı tüfəngə dolduranda alışırdı. Bütün bunlara baxmayaraq, Ağa Məhəmməd xan bu sayaq tüfəng atmaqdan Amol müharibəsində çox istifadə etdi. Sonrakı müharibələrdə əsgərlərinə iki tüfəng verirdi ki, növbə ilə onlardan istifadə etsinlər, tüfəngin biri qızanda o birisini götürsünlər.

Əmir günə xan süvarilərlə mərdanə, amma ehtiyacsız bir hücum etdi. Onun süvariləri qışqırıqla Ağa Məhəmməd xanın qoşunun mərkəzi hissəsində hücuma keçdilər. Amma Qacar tüfəngçiləri sərrast atəşlə onları ot kimi biçdilər. Əgər süvari dəstəsi, düşmən piyadasına hücum edirsə, nə qədər tələfat versə belə, yenə bir neçə nəfər özünü düşmənin piyadasına hücum edirsə, nə qədər tələfat versə belə, yenə bir neçə nəfər özünü düşmənin piyadasına çatdıra bilir və onlarla vuruşur. Amma o gün arası kəsilməyən atışma aman vermədi ki, Əmir Günə xanın süvariləri özlərini düşmənin piyadasına çatdıra. Ağa Məhəmməd xan Qacar Əmir Günə xanın süvarilərini tamamilə darmadağın etdikdən sonra sağ və sol cinahını hərəkətə gətirdi. Əmir Günə xan özünü itirib tamam

çaşdı. Ağa Məhəmməd xanın təlim görmüş qüvvətli qoşunun qarşısını almaq qeyri-mümkün idi.

Qarışılıqda Əmir Günə xana güllə dəydi. O, atdan yıxıldı, nökərlərindən birisi onu yerdən qaldırıb atın üstünə qoydu və müharibə meydanından kənara çıxartdı. Ağ Məhəmmədqulu xan vəziyyəti belə gördükdə qoşunun fərmandehliyini öz öhdəsinə götürdü, ancaq tezliklə ona da güllə dəyib müharibə meydanındaca həlak etdi.

Əmir Günə xan Əfşar yaralanıb qaçdı. Ağ Məhəmmədqulu öldürüldü, onun cəsədi mühairbə meydanında qalıb, atların və əsgərlərin ayaqları altında tikə-parça oldu. Qara Məhəmmədqulu xan isə əsir düşdü.

Əmir Günə xan Gilan sərhədinə çatanda qanaxmanın şiddətindən dayanmağa məcbur oldu. Nökəri onun üçün yorğan-döşək hazırladı, ancaq Əmir Günə xanın başı bir də yastıqdan qalxmadı"[125].

Əmirgunə xan Avşarın qızı Mehdiqulu xan Məhəmmədəmin ağa oğlu Qovanlı-Qacar ilə evlənmişdi. Musa xan adlı oğlu vardı.

## Fərəculla xan Əmirli-Avşar

Fərəculla xan Əmirgunə xanın qohumudur. Qohumluqlarının dərəcəsi bilinmir.

O, 1782-ci ildən sonra Tarumda xanlığını elan etdi. Bütün Xalxal vilayətinin hakimi oldu.

Zəncan hakimi Əli xan Zairli-Avşar bir müddət idi ki, Əlimurad xandan üz döndərmişdi, sevincək halda Urmiya avşaları ilə birləşdi. Onları ağırlayıb məsləhət gördü ki, əvvəl evin içi, sonra çölü. Bildirdi ki, gəlin Azərbaycanı iç düşmənlərdən təmizləyək, sonra Əlimurad xanın üstünə gedərik. Bu məsləhəti Urmiya hakimi İmamqulu xan Qasımlı-Avşar (1772-1883) qəbul edib İrağa getməkdən əl çəkdi. Birləşdiyi Əli xanın sərkərdələrindən olan Vəli bəyi qoşunla Azərbaycana göndərdi. Dost bildiyi Azərbaycan

[125] Jan Gevr, Xacə şah, Bakı, "Gənclik", 1993, səh. 204-205.



xanlarına məktub yazıb onlara qoşulmağı təklif etdi. Xalxalın hakimi Fərəculla xan Sərab xanlığının Miyanə mahalında ona qoşuldu. Sərab hakimi Əli xan Şəqaqi böyük oğlu Sadıq sultana qoşun götürüb onlara qoşulmasını tapşırdı. Onlar Təbrizin bir ağaclığında toplanıb oturaq etdilər. Qış həmin il soyuq gəldiyindən şəhəri mühasirə etməyə tablamayıb Urmiyaya yollandılar.

Fərəculla xan 1786-cı ilədək Xalxal xanlığına başçılıq etdi.

## Fətəli xan Xalxali

Fətəli xan 1786-cı ildən sonra Xalxal xanlığının taxtına əyləşdi.

Sadıq xan Şəqaqi 1787-ci ildə Xalxal xanlığına hücim etmişdi. Qızılüzən çayının yaxasında düşərgə salmışdı. Həmin vaxt Xalxalın hakimi Fətəli xan 3 min nəfərlik qoşunla düşərgəyə yaxınlaşdı. Onlar barışıq əldə edib, Xalxalda Fətəli xanın qonağı oldular[126].

Fətəli xan Gilan xanlığına hücumları ilə tarixin yaddaşında qalıb.

## Məhəmmədhüseyn xan Əmirli-Avşar

Məhəmmədhüseyn xan Fərəculla xanın kiçik qardaşı idi. Avşar elinin Əmirli oymağından olub, Tarum mahalında anadan olmuşdu. Mükəmməl saray təhsili almışdı.

Məhəmmədhüseyn xan qardaşının hakimiyyəti dövründə Xalxal xanlığının sərkərdəsi idi.

General-poruçik Aleksandr Suvorov 15 fevral 1780-ci ildə Həştərxandan Q. A. Potyomkinə məruzəsində yazırdı: «Məhəmməd xan Ərdəbil və Gilan arasındakı Xalxal şəhərində rahat yaşayır.

[126] İbadifərd İbrağani, Tarix və coğrafiyayi Sərab, Sərab, 1375, səh.57.

Hidayət xanın Şirazdan Rəştə qayıtmasından əvvəl Kərim xanın oğlu Əbülfət xanın əmri ilə Gilanı yuxarıda adı çəkilən Fərəculla xanın qardaşı, Xalxallı Məhəmməd xan idarə edir».

Kərim xanın Rəştdəki keçmiş etibarlı naibləri Hacı Səfər, Hacı Murad, Hacı Mustafa»[127].

Məhəmmədhüseyn xan Fətəli xandan sonra Xalxal xanlığına başçılıq etdi.

Ağaməhəmməd xan Xalxala yürüş edərkən, oranın hakimi Məhəmmədhüseyn xan Sadıq xan Şəqaqini və İbrahimxəlil xan Cavanşiri yardıma çağırmışdı.

[127] ЦГВИА, ф. 52, оп. 1/194, д. 218/а, л. 1.



# V FƏSİL

## Xalxal xanlığının inzibati quruluşu

Xanlıq mərkəz Xalxal şəhərindən və mahallardan ibarət idi. Mahallar nahiyələrə, nahiyələr kəndlərə, obalara bölünürdü.

Xanlıq dönəmindən əvvəl mövcud olmuş inzibati-ərazi quruluşu xanlıqlar dövründə də olduğu kimi saxlanmışdı.

Xanlıq şimaldan Ərdəbil, şərqdən Gilan, cənubdan Qəzvin, qərbdən Sərab xanlıqları ilə əhatə olunmuşdu.

Topoqrafik cəhətdən Xalxal vilayəti hündür yayla kimi görünən dağlıq ərazidir.

### *Xalxal şəhəri*

Xanlığın mərkəzi qədim və zəngin tarixə malik olan Xalxal şəhəri idi. Şəhər Qəzvindən Rəştə gedən yol üzərində yerləşirdi.

Həmdullah Mustovfi "Nüzhətül-qulub" adlı əsərində bunu yazmaqdadır: "Xalxal, orta hallı bir şəhər olub, kənd xüsusiyyəti daşımaqdadır. Xanəndəbil, Səcəsrud və Əncilabad nahiyələri ilə yanaşı, təxminən yüzə yaxın yaşayış məntəqəsi var. Qədimdən Firuzabad adındakı şəhər Dəlinir təpəsində, bölgəyə hakim bir mövqedə quruluydu. Bölgə hakimi burada əyləşir, bu hakimlərə Ağacəriyan/ Ağaçərilər (Ağaç+əri+yan) deyilirdi. Firuzabad xaraba halına gəlincə, Xalhal hakimlik mərkəzi/ hakimnişin oldu…".

Xanəndəbil, Xalxala bağlı kiçik bir bölgənin adıdır[128].

[128] Həmdullah Mustovfi Qəzvini, Nüzhətül-Qülub, s.81-82.

Xalxal haqqında Yaqut əl-Həməvi öz əsərində məlumat vermişdir. Müəllif Qəzvindən 7, Ərdəbildən isə 2 günlük uzaqlıqda olan bu şəhəri Gilan vilayəti ilə həmsərhəd, dağlar qoynunda səfalı və gözəl təbii şəraitə malik bir yer kimi təsvir etmişdi. Yaqut əl-Həməvi Xalxal ətrafındakı dağlarda bir sıra alınmaz qalaların olduğunu bildirmişdir[129].

Qədim dövrlərdə qələmə alınan coğrafiya kitablarında Xalxalın Azərbaycanda kiçik bir şəhər olduğu, bu bölgədə əsasən buğda və arpa yetişdirildiyi qeydlidir. Ayrıca burada xalı, kilim, çul, palaz, bəzən qumaş toxunmaqda və əmtəə kimi satılmaqda idi.

Xalxal şəhərinin salındığı tarix hələlik dəqiq müəyyənləşdirilməyib. İran alimləri buna cəhd etməyiblər. Azərbaycan alimlərinin isə bu şəhərin tarixini yerindəcə araşdırmasına imkan verilməyib.

Şəhər əhalisinin suya olan ehtiyacı bulaqlar və Qızılüzən çayı adlanan çay vasitəsilə təmin edilirdi. Əhalinin əsas peşəsi bağçılıq, xüsusilə üzümçülük, sənətkarlıq, ticarət, əkinçilik və maldarlıq idi.

Xanlıqlar dövründə şəhər qalın və möhkəm daş hasarla əhatə edilmişdir. Qala divarlarının ətrafında geniş və dərin xəndəklər qazılmışdı.

Xalxal şəhəri XVIII yüzilin önlərində 12 məhəlləyə bölünmüşdü. Xalxal şəhərinin məhəllələri: Aşağı küçə, Qazılar, Yuxarı küçə, Qalabaşı, Rövşən məhəlləsi, Bazar, Həmzəabad, Puçdibi, Xarabahasar, İyişnə küçə, Çuldərə və Güney.

Xalxal böyük şəxsiyyətlərin, alimlərin, şairlərin doğma yurd yeridir[130].

## *Xalxal mahalı*

Xalxal mahalı Ərdəbil əyalətinin cənubunda yerləşir. Mahal mərkəzi Xalxal şəhəridir. Mahal şimaldan Kövsər mahalı, şərqdən Gilan əyaləti, cənubdan Zəncan əyaləti və qərbdən Miyana mahalı

[129] Yaqut əl-Həməvi, Mucəmül-Büldan, C. III, s. 145.
[130] Seyid Məsud Nəqib. Xalxal və Məşahir. Təbriz, 1379, 814 səh.



ilə əhatə olunub. 2754 kvadrat kilometr ərazisi olan Xalxal mahalı əyalət mərkəzi Ərdəbil şəhərindən 120 kilometr aralıda yerləşir. Dəniz səviyyəsindən 1843 metr yüksəkdə yerləşən Xalxal mahalı mülayim yaz-yay və soyuq payız-qış aylarına görə özünəməxsus iqlimə malikdir. Mahalda Qızılözən və onun qolları olan Arpaçayı, Şingava şimaldan cənuba axaraq Xəzər dənizinə tökülür.

Xalxal şəhərinin olduğu məntəqə, Azərbaycandakı Talış dağlarının qərbində dağlıq bir bölgədir. Xalxal məntəqəsinin iqlimi, Talış dağlarının şərq bölümü soyuq, şimal, cənub və qərbi mötədil, Qızılüzən çayı sahili isə istidir[131].

Hazırda inzibati ərazi bölgüsünə görə Xalxal mahalı üç bölgə, 8 kənd rayonu və 3 şəhərdən ibarətdir.

**Mərkəzi bölgə**: Mərkəzi Xalxal şəhəri. Kənd rayonları: Qərbi Xanandbel, Şərqi Xanandbel, Qərbi Sənebənd.

**Xuruşi-Rüstəm bölgəsi**: Şimali Xuruşi-Rüstəm, Cənubi Xuruşi-Rüstəm kənd rayonları. Bölgə mərkəzi Heşəcin şəhəri.

Xuruşi-Rüstəm bölgəsinin tanınmış şəxslərindən biri Şücaləşkər Xalxalidir. Rza xan Paşa xan oğlu 1882-ci ildə Xalxal vilayətinin Xuruşi-Rüstəm bölgəsinin mərkəzi Həşəcin kəndində doğulmuşdu. Orta təhsilini doğma kəndlərind almışdı. Sonra Tehranda oxumuşdu. Əvvəlcə Əmir Müzəffər, sonra Şücaləşkər ləqəbini daşıyırdı. Atası "Xancan ağa" kimi tanınan Paşa xan Xuruşi-Rüstəm bölgəsinin maliklərindən idi.

Şücaləşkər hələ Tehranda oxuyarkən azadxahlara qoşulmuşdu. Heydər xan Əmioğlu ilə dostluq edirdi.

Şücaləşkər Ərdəbil hakimi Rəşidülmülkün ordusuna daxil olmuşdu. Qırx nəfərdən ibarət qafqazlı mücahidə başçılıq edirdi. Rəşid Nizam Gərrusinin yardımı ilə 1907-ci ildə Xalxal şəhərinə daxil olub, Nasir-Dəftərin mənzilində məskunlaşdı.

Şücaləşkər Məşrutə dövründə Xalxal şəhərinə və mücahidlərinə başçılıq etmişdi.

[131] Lüğətnamə-i Dehxuda, 21-ci cild, "Xalxal" maddəsi, s.683.

1907-ci ildən baçlayaraq Xalxal vilayətində xalq hərəkatı genişlənməyə başladı. 1908-ci ilin oktyabr ayına qədər Azərbaycanın bir çox vilayətləri, o cümlədən Xalxal irticaçılardan təmizlənir. Ölkədə inqilabi hərəkatın güclənməsindən qorxuya düşən şah-irtica qüvvələri Tehranda Şura Məclisinin yenidən açılmasına icazə verməyə məcbur olurlar.

Xalxal mücahidləri daim Ərdəbillə əlaqə saxlayırdılar. Ərdəbil doğrudan da inqilabın genişlənməsi və dərinləşməsi nöqteyi-nəzərindən ikinci Təbrizə çevrilmişdi.

Üsyanın qələbəsindən sonra Ərdəbil vilayət əncüməninə yeni seçkilər keçirildi. Həmin seçkilərdə Ağa Mir Tahir (sədr), molla Ağa Mirzə Lütvəli, Hacı Mirzə Yaqub, tacirlərdən Abdulla Xanık, Mirzə İbrahim Ərbab gəlmə fədailərin başçısı Mir Mahmud inqilabi əncümənə üzv seçdilər.

Əncümənə seçilmiş yeni nümayəndələrin ictimai tərkibindən göründüyü kimi, vilayət əncüməninə burjua-mülkədar nümayəndələri ilə birlikdə, yoxsul xalqın mənafeyini ifadəçiləri olan nümayəndələrin tərkibinə və istərsə də gördüyü tədbirlərə görə yeni əncümən əvvəlkilərə nisbətən demokratik xarakterli idi.

Vilayət əncüməni bir sıra inzibati idarələr yaratdı. Bunlardan məhkəmə-"Əncüməne" ədliyyə"ni göstərmək olar. Həmin əncümənə dörd nəfər daxil idi və onlar kiçik məhkəmə işlərinə baxırdılar.

Şəhərdə qayda-qanunu gözləmək üçün yerli fədilərdən şəhər nəzmiyyə hissələri yaradıldı. Nəzmiyyə idarəsinə 150 nəfər polis, on nəfər polis zabiti və onların rəisi Ağa xan daxil oldu (Gürcüstan MDTA, f. 15, siyahı, 1, iş 170, v. 150-158).

1909-cu il avqustun axırlarında Səttar xan Kirmanşahlı Yarməhəmməd xan və Hüseyn xan, Mirzə Əli xan Yavərzadə və Ağayi Mirzə Ələkbər xan Ətailə birlikdə 70-80 nəfərlik kiçik bir dəstə ilə Təbrizdən yola düşdü. Həmişə Səttar xanla olan Hacı İsmayıl ağa Əmirxizi və Ağa Mirzə İsmayıl Yekani də onlarla idilər. Sarabda onları çox təntənə ilə qarşıladılar və bir çoxları onun dəstəsinə qoşuldu. Onun dəstəsi artaraq 250-300 nəfərə çatdı.



Sentyabrın 6-da Səttar xan öz dəstəsi ilə Ərdəbilə çatdı. Milli qəhrəman onu qarşılamağa gəlmiş əncümən üzvləri, başqa siyasi xadimlər və demək olar ki, bütün şəhər əhalisinin alqışları altında təntənəli surətdə şəhərə daxil oldu (Əhməd Kəsrəvi, Tarixe-Məşruteye-İran, 3-cü cild, Tehran, 1323, s.422).

Buradakı fədailər, xüsusən gəlmə fədailər öz qəhrəmanlarını qarşılamaq üçün hazırlaşaraq, şəhərin bir neçə kilometrliyində yaxşı təşkil edilmiş düşərgələr yaratdılar və onun pişvazına çıxmaq üçün Konstutusiya tərəfdarlarından xüsusi nümayəndəlik yaradıb Saraba göndərdilər.

Şahsevən başçıları da, demək olar ki, hamısı Ərdəbilə gələrək Səttar xanla tanış oldular. Lakin bir neçə gün keçdikdən sonra onlar çıxıb getdilər.

1911-ci ilin avqust ayında Marağa valisi Hacı Səməd xan Şücaüddövlə özünü keçmiş monarx Məhəmmədəli şahın tərəfdarı elan etdi. 4.000 nəfərlik qoşun və hərbi texnika ilə Təbrizə yaxınlaşaraq, əncümənə göndərdiyi telqramla Məhəmmədəli şah tərəfindən Azərbaycana vali təyin edildiyini bildirdi. Təbrizlilərə müraciətlə Məhəmmədəli şahın hakimiyyətinə tabe olmalarını tələb etdi. [Əhməd Kəsrəvi, Tarixe-Məşruteye-İran, 2-ci cild, Tehran, 1323, səh.204.].

Eyni zamanda, Məhəmmədəli şahın yaxın adamı Mücəlalüssultanın təhriki ilə Ərdəbil, Meşkin və Xalxalda yaşayan Şahsevən elinin xanları da keçmiş şahın tərəfinə keçdilər. Onlar avqust ayının əvvəlində Ərdəbili, sentyabr ayında Xalxalı tutdular.

Hələ Müxbirüssəltənə Mehdiqulu xan Hidayət vali olduğu zaman, 1911-ci ilin may ayından başlayaraq, Azərbaycan əyalət əncüməni Şahsevən və Qaradağ feodallarının əksinqilabi yürüşlərinin qarşısını almaq məqsədilə Sərab bölgəsinə 4 min nəfərlik silahlı qüvvə toplanmışdı. Vali Müxbirüssəltənə tərəfindən marağalı Hacı Səməd xan Şücaüddövlə onlara başçı təyin edilmişdi. Müxbirüssəltənə valilikdən götürüldükdən sonra əncümən bu qüvvənin tərkibində dəyişiklik aparmamışdı. Mücəllalüssultan Şahsevən elinin qüvvələrilə Ərdəbil üzərinə hücuma keçdikdə Azərbaycan əncüməni həmin qüvvənin Ərdəbili müdafiə etməsinə göstəriş

verdi. Lakin Şücaəddövlə əncümənin əmrini həyata keçirmədi, hətta Məhəmmədəli şah tərəfindən Azərbaycana vali təyin olunduğunu elan etdi. [СДД, вып. VII, стр.110.] Hacı Səməd xan Şücaüddövlə Cənubi Azərbaycanın əksinqilabi qüvvələrini öz ətrafına toplamaq, Təbriz üzərinə hücuma keçmək məqsədilə və Qaradağ feodalları və digər əksinqilabi qüvvələrlə əlaqə yaradaraq Təbriz yaxınlığında yerləşən Basmınc qəsəbəsində hərbi düşərgə saldı. ["İrani-nou" qəzeti, №103, 29 iyul 1911-ci il.]

**Şahrud bölgəsi**: Palanga, Şal, Şahrud kənd rayonları. Bölgə mərkəzi Kəlur şəhəri.

Xanəndəbil (Mərkəz: Hirov) Xalxalın şərqində və Talış dağlarına yapışmışdır.

**Səncəbət ya ya Səncəbəd bölgəsi** (Mərkəz: Givi) Xalxalın şimalında yerləşir. Kövsər/ Givinin əski adı "Küyü"dür. Mərkəzi "Küyü" olan bölgənin torpaqlarının adı Səncəbəddir. Pəhləvi dönəmində, Şahnamədə adı keçən "Giv"dən təsirlənərək, "Küyü"nün adı "Givi" olaraq dəyişdirilmişdir. 1979-cu ildən sonra, "Səncəbəd"in adı "Kövsər"ə çevrilmişdir. "Küyü" adı, Türkcə bir kəlimə olub, "Dərənin dibi" deməkdir. "Küyü/ Küy+ü" iki bölümdən ibarətdir. "Küy/ Kuy/ Guy", "Gömmək" anlamındaki "Kuyulamak" felli kökənlidir. İkinci bölümdəki "ü" isə, mənsubiyət şəkilçisidir.

**Kağızkünan bölgəsi** (Mərkəz: Aqkənd) Xalxalın şərqindədir.

## *Tarum mahalı*

Tarum Cənubi Azərbaycanın mahallarındandır. Tarum bölgəsi hazırda Zəncan, Qəzvin, və Gilan əyalətləri arasında üç yerə bölünübdür. İki Tarum nahiyəsi vardır. Bunlardan Tarum-ülya (Yuxarı Tarum), Zəncanın bir parcasıdır. Bölük-ü Tarum-sufla (Aşağı Tarum nahiyəsi), Qəzvinin şimali-qərbində və Məncilin cənubundadır.

Türkcə olan Tarım adı, "tarımaq, toxum əkmək" feilindən, "Tala əkilən yer" anlamındadır. Tarum ayrıca bir çayın qoludur.



"Tarum"un, yerli ləhcədə "Cənnət" anlamına gəldiyi də ifadə edilməkdədir.

Yaqut Həmavi, yerli əhalinin "Tarum/Tarım" tələffüzünü işlətdiyini bildirməkdədir. Həmdullah Mustovfi Tarum adının Türkcə olduğunu və "Təla, qızıl/ altın"dan qaynaqlandığını ifadə edir. Burada olan Qızılüzən çayının adı da Tarum adı ilə yaxından ilgildir[132].

Tarum mahalının adı bəzi qaynaqlarda Tarom, Tarım kimi də yazılır.

Tarum mahalının tarixi haqqında bir çox mənbələrdə məlumat var. İskəndər bəy Münşi yazır: "Rəşt valisi Əmir Hüsaməddinin xoşagəlməz davranışından əşrəfin kefi pozulduğundan 911-ci ildə (04.06.1505 - 23.05.1506) onu cəzalandırmaq üçün üzərinə qoşun göndərdi. Şahın məiyyəti də Tarumdan Rəştə gəldi. Əmir [Hüsaməddin] acizlik və çarəsizlik göstərərək, tərcüman rüsumu şəklində layiqli töhfə və hədiyyələr göndərdi və Əmir Nəcməddin Rəştinin vasitəçiliyi ilə [Şah İsmayıl] onun təqsirindən keçərək, geri döndü[133].

Əbdi bəy Şirazi "Təkmilətül-Əxbar" əsərində bu barədə yazır: "Zəfər rəmzli bayraqlar (Şah İsmayıl) o vaxt Əmirə Dubacın atası Əmirə Hücaməddinə tabe olan Gilanın Biyəh-pəsinə yürüş etməyi qərara aldı. Nəhayət, xaqan (Şah İsmayıl), fələyə bənzər dərgahına yaxın olan adamlardan olan Şeyx Nəcm Zərgər Gilaninin xahişi ilə oraya olacaq qəsddən imtina etdi. [Şah İsmayıl] zəfər təsirli əsgərlərinin düşərgəsi olan Zəlrud Altunkeşə geri qayıtdı. Tarımın hakimi Çəlipa bəy Xalxalı cəzalandırdı"[134].

Tarum mahalı Səfəvilər dövlətinin ilk illərində ustaclılar tərəfindən məskunlaşdırılmışdı. Sonralar bu mahalı Ustaclı elinin nümayəndələri tərəfindən idarə olunurdu. İskəndər bəy Münşi yazır: "Tarum, Xalxal və bəzi [digər] mahallar Pirə Məhəmməd xana

---

[132] http//astara-ənzəli-az.blogspot.com

[133] İskəndər bəy Münşi Türkman, Tarixi-aləmarayi-Abbasi, Bakı, "Təhsil, 2009, I cild, 792 səh. s.76.

[134] Xacə Zeynalabidin Əli Əbdi bəy Şirazi, Təkmilətül-Əxbar, Bakı, "Elm", 1996, s.28.

tapşırıldı"[135]. İskəndər bəy Münşi daha sonra yazır: "Müxtəsər, [Həmzə mirzə] cah-calalla Tarum ölkəsinə gəlib çatdıqdan sonra bir neçə gün qalibiyyətli əsgərlərin cəmləşdirilməsindən ötrü orada qaldı. Tarum hakimi Pirqeyb xan Ustacluya mühafizə üçün körpünün üstündə mövqe tutmaq əmri verildi. Qızılüzən çayının daşması səbəbindən kəndlilərin ali orduya gediş-gəlişi az baş verirdi. Bunun nəticəsində [orduda] ərzaq azaldı və əsgərlər bir neçə gün qıtlıq çəkdilər. Nəvvabi-Cahanbani (Sultan Məhəmməd Xudabəndə-Ə.Ç.) öz ali sərkarının bütün qızıl və gümüş əşyalarını parça-parça etdirib, qızılbaş qaziləri arasında bölüşdürdü"[136].

XVIII əsrdə Tarum mahalı başdan-ayağa Ustaclı yurdu idi. İskəndər bəy Münşi yazır: "Müxtəsər, onun gəlişindən sonra ali məiyyət çayı keçib, Mahan çəmənliyində dayandı. Onlar orada olarkən Xalxalda və Tarumda olan ustaclı tayfasını da öz yanlarına cəmləşdirərək, oradan köç edib, Sultaniyyə çəmənində dayandılar. Rey və Rudbarda yaşayan Məhəmməd Hüseyn sultan başda olmaqla Eymur camaatı bu məkanda tərtibə salınmış qoşunla ali məiyyətə qoşuldular.

Türkman və təkəlülərin soyğunçuluğu və qarətkarlığı [Qəzvin ətrafındakı] ellərə və oymaqlara çatıb, onları vahiməyə salmışdı və imkanı olan hər kəs öz eli və ulusu ilə birgə Sultaniyyə çəməninə gəlib, ali orduya qoşulmuşdu"[137]. Maraqlıdır ki, XVIII əsrdə Tarum mahalında nə Ustaclı adına, nə də elin oymaqlarının birinin adına rastlanmır. Ancaq, görünür, zaman keçdikcə bu el və oymaqların həmin ərazilərdə yerləşən çoxsaylı kiçik yaşayış məntəqələrinin əhalisi ya başqa tayfalara qarışmış, bəziləri zorla köçürülmüş və tarixi adlar silinmiş, bəzi adlar sonralar dəyişdirilmişdir.

XVIII əsrin ortalarında Tarum mahalında yaşayan avşarlar Sərab ərazisində məskunlaşan şəqaqiləri yurdlarından qovdular. Riçard

[135] İskəndər bəy Münşi Türkman, Tarixi-aləmarayi-Abbasi, Bakı, "Təhsil, 2009, I cild, 792 səh. s.385.

[136] İskəndər bəy Münşi Türkman, Tarixi-aləmarayi-Abbasi, Bakı, "Təhsil, 2009, I cild, 792 səh. s.538.

[137] Yenə orda, s.541.



Tapper yazır: "Bu torpaq başa düşməzliyi və Kərim xana boyun əymə söhbətindəki yavaş davranmış olmaları səbəbiylə buradakı qrupların sorunlu olaraq tanınmış olmalıdırlar. Digər tərəfdən, şəqaqilərin şərqindəki və cənubundakı qonşuları, Xəmsə və Tarumdakı avşarlar və duveyranlarla anlaşmazlıq içində olmaları da ola bilərdi.

1760-cı ilin yazında, Şəqaqi Əli xan, Gilcili Azad xanın dəqiq məğlubiyyətə uğratılması üçün avşarlardan Fətəli xanın ordusuna qatılmışdır. Miyanənin ötəsində şəqaqilərin və şahsevənlərin öndəri olaraq Kərim xan 1762-ci ilin yayında Azərbaycana qayıtdığında zəndlərə əsgər və heyvan verirdilər.

Azərbaycanın yatışdırılması və son Avşar bəylərinin təslim olması üstünə Kərim xan, Dunbulli Nəcəfqulı xanı Təbriz və dolaylarının ətraflı valiliyinə gətirmişdir. Ətrafı valiyə verdiyi təlimatlar arasında, əyalətdəki Şəqaqi tayfalarına və digər tayfalara sevgiylə yaxınlaşılması, öz yurdlarında yerləşmələrinin nəzarətdə olması və dolasıyla əkinçiliklə və hökümətə xidmətlə məşğul olmalarının sağlanması vardı. Bu təlimatlar yalnızca buralar yeni geri qayıtmış olan Şəqaqilərə deyil, Meşkin və Muğandakı yurdlarına geri qayıtmış olan Şahsevənlərə də uyqulanmışdır. Şəqaqilərin yeni torpaqlarından ayrıldıqları və ya Şahsevənlərə köhnə torpaqları söhbətindəki anlaşılmazlıqlarını davam etdirdikləri yoluna hər hansı bir bilgi yoxdur. 1772-ci ildə Zəncanlı Avşar Zülfiqar xanın nəticəsiz qalan ayaqlanmasını dəstəkləmələri xaricində, Kərim xanın höküm sürdüyü zamanda sükunətlərini qorumuşdular"[138].

Sonralar avşarlar öz yaşadıqları və məskunlaşdıqları əraziləri genişləndirərək, dağlıq sahələri də mənimsəyib, pərakəndə yaşayış tərzinə nail olmuşlar.

Bir faktı da xüsusi qeyd etmək lazımdır ki, xanlıqda bütün yüksək, sonralar hətta orta, bəzən aşağı, hərbi və mülki vəzifələrə ilk növbədə Tarumlu avşarlar təyin edilirdi.

[138] Riçard Tapper, İranın sınır boylarında göçəbələr, Ankara, 2004, səh.

## *Xunə mahalı*

Xalxal vilayətinin inzibati-ərazi vahidlərindən biri də Xunə mahalıdır. Yaqut əl-Həməvi Azərbaycanın böyük olmayan Xunə şəhər haqqında məlumat verərkən Marağa ilə Zəncan arasında, Zəncandan iki günlük məsafədə yerləşən bu şəhərin adını "Xunəc" kimi yazsa da "Xunə" kimi yazılmasının daha doğru olacağını da qeyd etmişdi[139]. Müəllif bu şəhərin həmçinin "kağız istehsalçıları" mənasını ifadə edən Kağezkonan da adlandığını bildirmiş, əhalinin öz şəhərinin Xunə adlandırılmasından xoşlanmadıqlarını yazmışdı[140]. Həmidullah Qəzvini Xunə ilə Ərdəbil arasında 7 fərsəx (39,79 km) məsafə olduğunu qeyd etmişdi[141].

BOA-da saxlanılan Xalxal və Urmiya livalarının müfəssəl dəftərindən (N-910) aydın olur ki, Xalxal livasının ancaq Əzdəgin (Kağızkenan) nahiyəsində 101 kənd, 19 məzrə»ə, 1 yaylaq, 2 qışlaq və 1 duz mədəni varmış. Nahiyədə dənli bitkilərdən buğda, darı və mərcimək əkilirmiş. «Dəftər»dən nahiyə sakinlərinin maldarlıqla məşğul olduğu da anlaşılır[142].

Xalxalın Kağızkünan bölgəsinə sərhəd ərazilərdə köç-düşlə məşğul olan Avşar elinin tirələri: heydərli, musalı, rüstəmli, bəndəli, rəsullu, zareli, rəşidli, rzalı, bəyməhəmmədli, mirzəxanlı, muxtarlı, nəbili, muradlı, parçəmli, müslümlü, iydəli, məlikli, kazımlı.

Xalxalın cənubunda Kağıkünan, Xuruşrüstəm və Şahrud bölgələrində avşar elinin səədli, şatiranlı, təğtəmşili tirələri dövran keçirirlər. Qacar hakimiyyətinə qədər Xalxalın başçıları Avşar elinin Səədli oymağından olublar[143].

Bu mahalın mərkəzi Ağkənd idi.

[139] Yaqut əl-Həməvi, Mucəmül-Büldan, C. III, s. 181.
[140] Yenə orda, s.180.
[141] Həmidullah Mustovfi Qəzvini, Nüzhətül-Qülub, s. 83.
[142] BOA, N.N., № 910, v.1-35.
[143] Məhəmməd Xaliqi-Müqəddəm, Ostani-Zəncan sərzəmini əqvami-əfşar, 1380/2001, səh.133-135.



## *Hir mahalı*

Xalxal vilayətinin inzibati-ərazi vahidlərindən biri də Hir mahalıdır.Hazırda müstəqil bölgədir.

Maraqlı faktdır ki, Lənkəran xanlarının sülaləsinin əsasını Seyid Abbas qoymuşdur. Seyid Abbasın atası Xalxal mahalının Hir kəndindəndir[144]. Seyid Abbasın səfəvi nəslindən olduğu bildirilir. Teymur bəy Bayraməlibəyova görə isə Seyid Abbasın nəsil şəcərəsi Məhəmməd peyğəmbərə gedib çatır[145]. Bunu Səid Əli də təsdiq edir: «Xəlifə Mir Abbas xanın nəsəbi iyirmi səkkiz nəfərin vasitəsi ilə şəhid Zeyd ibn Əli bin Hüseyn ibn Əli Əbu Talibə çatır və kəramətli ulu babalarından biri xəlifə Əlidir[146] ». Ümumiyyətlə, Seyid Abbasın hakimiyyəti illəri və xanlığın əsasının nə vaxt qoyulması haqda həm mənbələrdə, həm də tarixi ədəbiyyatlarda bir-birinə zidd və dəqiq olmayan fikirlər mövcuddur. Belə ki, «Azərbaycan tarixi»ndə[147] Seyid Abbasın nə vaxt xan olduğu göstərilmir. «Əxbarnamə»də isə bu hadisəni Nadirin hakimiyyəti dövrünə aid edir və onun kasıb bir adamdan Lənkəran xanı səviyyəsinə çatmasını göstərir[148].

Hir mahalının əsas əhalisi Şahsevən elinin Poladlı oymağı idi.Mahalda bir neçə Poladlı obası vardı. Oykonim şahsevənlərin Poladlı oymağı ilə bağlıydı.

[144] Mirzə Əhməd Mirzə Xudaverdi oğlu. Əxbarnamə (tərcümə Əli Hüseynzadənindir). B., 1975., s.34.
[145] Bayramalibekov Teymur-bek. İstoriə Talışinskoqo xanstva.// AMEA Əlyazmalar İnstitutunun Elmi Arxivi. D-687-8597., v.1.
[146] Səid Əli Kazımbəy oğlu. Cəvahirnamei-Lənkəran (tərcümə Rauf Şeyxzamanlınındır). B., 2000., s.23.
[147] Azərbayjan tarixi. III cild (XIII-XVIII əsrlər), B., 1999., s.410.
[148] Mirzə Əhməd Mirzə Xudaverdi oğlu. Əxbarnamə (tərcümə Əli Hüseynzadənindir). B., 1975., s.28-29.

# VI FƏSİL

## Xalxal xanlığının qonşu xanlıqlarla münasibəti

### *Xalxal və Ərdəbil xanlığı*

Nəzərəli xan Ərdəbil, Xalxal və Muğanda yaşayan Şahsevən tayfasını ayrılmaz və vahid dövlət ətrafında birləşdirə bilmişdi[149]. Onun hakimiyyəti dövründə xanlığın təsərrüfat həyatında nisbi canlanma hiss olunurdu.

Kərim xan Zəndə tabe olmayan, hədiyyə, peşkəş və sairə adlarla vergilər verməkdən imtina edən Ərdəbil hakimi Nəzərəli xanı məhdudlaşdırmaq, sıradan çıxarmaq məqsədilə Gilan hakimi Hidayət xanı səfərbərliyə aldı. O, dolayı yollarla Hidayət xanı Nəzərəli xana qarşı qaldırdı və onu pul, silah və sairə vəsaitlə təmin etdi.Kərim xan Zəndin hərtərəfli yardım və himayəsindən istifadə edən Hidayət xan Nəzərəli xanı tutdu və Ənzəli limanında həbsxanaya saldı[150].

Kərim xanın vəfatından sonra şahsevənlər Ənzəliyə hücum edib, Nəzərəli xanı xilas etdilər[151].

İbrahimxəlil xan 1779-cu ildə Şəkili Hüseyn xanın qətlindən sonra qaynı Şahsevən Nəzərəli xanı çoxlu sayda atlı dəstə ilə Gilan və Rəşt tərəfə göndərdi. Nəzərəli xan göstərilən məntəqəyə hücum edərək onu viran qoyub çoxlu malla geri döndü.

[149] ЦГВИА, фонд, 446, дело 172, лист 2.
[150] Mirzə Məhəmmədsadıq Musəviye (Namiye) İsfəhani, səh.229. Tarixe-Kitiquşa, Tehran, 1317, səh. 229.
[151] Yenə orda, səh. 229.



General-poruçik Aleksandr Suvorov 30 iyun 1780-ci ildə Həştərxandan Q. A. Potyomkinə məruzəsində yazırdı: «Hidayət xan gedəndən sonra Rəşt şəhərini idarə edən Nəzərəli xan Sərdar Əlimurad xan tərəfindən İsfahandan göndərilmiş qoşunun yaxınlaşmasını eşidib, Rəşt sakinlərindən ən yaxşı var-dövləti ələ keçirərək şəhərdən Muğan düzünə yola düşmüşdür, indi isə son məlumatlara görə öz qohumu şuşalı İbrahim xanın torpağında köçəri həyat sürür. Rəştdən çıxmamışdan qabaq çoxlu ev və bağ yandırmışdır»[152].

Nəzərəli xan köhnə düşməni Hidayət xanı Rəştdən didərgin salmışdı. General-poruçik Aleksandr Suvorov 28 iyul 1780-ci ildə Həştərxandan Q. A. Potyomkinə məruzəsində yazırdı: «Nəzərəli xan Rəşti alandan sonra Hidayət xan canını qurtararaq gəmidə Rəştin 10 saatlığında Mazandaran tərəfdə Səfidrud çayının mənsəbinə gəlib-çıxmışdır. O. Rəştin 150 verstliyində Təbriz tərəfdə yaşayan xalxallı Əmirgunə xana kömək etməyi xahiş etmişdi və onun tələb etdiyi hər şeyi yerinə yetirməyə boyun olmuşdur. Əmirgunə xan, guya, onun xahişi ilə qoşunla Rəşt yaxınlığına gələrək həmin şahsevənli Nəzərəli xanı ordan qovub-çıxarmış və həmin şəhəri idarə etmək üçün əvvəlki kimi Hidayət xana vermişdir. Nəzərəli xan isə Xalxal xanına müqavimət göstərmək iqtidarında olmadığını görüb, ordan çıxarkən şəhərdəki bütün tikililəri və bağları yandırmışdır. Lakin bu məlumatın təsdiqini gözləmək lazımdır»[153].

Bu arada Təbrizdə ixtişaşlar baş verdiyi üçün İbrahimxəlil xan onu Təbrizə ezam etdi.

[152] ÜQVİA, f. 52, d. 218, ll, 20-21.
[153] ÜQVİA, f. 52, d. 218, ll. 39-40.

## *Xalxal və Sərab xanlığı*

Sərab xanlığına Şəqaqi elinin Şatıranlı oymağından çıxan feodallar başçılıq edirdilər. Öncə Əli xan Sərab xanlığına başçılıq etmişdi. Əli xan Şəqaqi Urmiya xanlığı ilə Təbriz xanlığı üstündə çəkişirdi. Hər iki tərəf öz təsiri qorumaq istəyirdi.

Əmirgunə xan Əmirli-Avşar Nadir şah Qırxlı-Avşarın ölümündən sonra Gilanın valisi olmuşdu. Sonra Taruma başçılıq etmişdi. Əmirgünə xan Avşar Fətəli xan Araşlı-Avşarla birləşib Kərim xan Zəndə qarşı çıxdı. Sonra Kərim xanın tərəfini tutub Fətəli xanı satdı. Kərim xan onu Şiraza «fəxri qonaqlığa» aparıb ali şuraya daxil etdi.

Kərim xanın vəfatından sonra Əmirgünə xan Taruma qayıdıb özünün xanlığını elan etmişdi. İranı birləşdirməyə başlayan Ağaməhəmməd xanı tanımaq istəmirdi. İlk növbədə Urmiya hakimi Məhəmmədqulu xan Qasımlı-Avşara müraciət etdi. Məhəmmədqulu xan ona etina etmədi.

Əmirgunə xan 1782-ci ildə başqa xanlarla birləşib Mazandarana hücum etdi. Savaşda yaralanıb qaçdı.

1780-ci ildə Ərdəbil hakimi Nəzərəli xan Şahsevən Sərab hakimi Əli xan Şəqaqi ilə bərabər Təbrizə hücuma keçmişdi. Tarixçi Mirzə Rəşid Ədibüşşüəra yazır: «Nəzərəli xan Təbriz zəlzələsindən istifadə edib, Təbrizə yürüş etmişdi. Nəcəfqulu xan Dünbili onun qarşısını ala bilməyəcəyini düşünüb, Xoya qaçmışdı. Xoyda qardaşıuşaqları Əhməd xan, Salman xan, Məhəmməd bəylə məsləhətləşib, Urmiya hakimi İmamqulu xana yardım məqsədilə müraciət etmişdi. İmamqulu xan bir şərtlə ona kömək etməyə razılaşmışdı ki, Təbriz xanlığı ondan asılı olacaq. Nəcəfqulu xan qohumları ilə məsləhətləşib, həmin şərtlə razılaşmışdı. İmamqulu xan ağır qoşunla Təbrizin müdafiəsinə gəlmişdi. Təbrizin Təsuc şəhərində Dünbili xanları İmamqulu xanı qarşılayıb, gəlişinə qurbanlar kəsdilər. Sərabın hakimi Əli sultan Şəqaqi Nəzərəli xanın müttəfəqi olduğundan, ilk hücumu Səraba etdilər. Əli sultan Şəqaqi müdafiə etməyə gücü olmadığından Xalxala qaçdı. Nəcəfqulu xan



onu izləmək istədi. İmamqulu xan məsləhət görməyib, birlikdə Təbrizə qayıtdılar. Nəzərəli xan da Təbrizi tərk edib, Ərdəbilə çəkilmişdi. İmamqulu xan Təbrizdə 8 gün qalandan sonra Urmiyaya qayıtdı»[154].

1787-ci ildə Sadıq xan hakimiyyətə gəldi. İlk vaxtlarda qardaşı Əli bəyi (Məhəmmədəli sultanı-Ə. Ç.) Zəncan şəhərinə hakim göndərdi[155]. Xalxal xanlığına da göz tikdi. Miyanə mahalının başçısına Xalxalı ələ keçirməsini tapşırdı. Xalxal xanlığının qoşunu miyanəliləri dəf etdi.

Sadıq xan Şəqaqi 1787-ci ildə Xalxal xanlığına hücim etdi. Qızılüzən çayının yaxasında düşərgə saldı. Həmin vaxt Xalxalın hakimi Fətəli xan 3 min nəfərlik qoşunla düşərgəyə yaxınlaşdı. Onlar barışıq əldə edib, Xalxalda Fətəli xanın qonağı oldular[156].

Ağaməhəmməd xan Xalxala yürüş edərkən, oranın hakimi Məhəmmədhüseyn xan Sadıq xan Şəqaqini və İbrahimxəlil xan Cavanşiri yardıma çağırmışdı.

## *Xalxal və Urmiya xanlığı*

Urmiya xanlığını Avşar tayfasından çıxmış hakimlər idarə edirdilər. İlk müstəqil xan Fətəli xan Araşlı-Avşar idi. Fətəli xan əlində olan ərazi ilə kifayətlənməyərək şahlığı dirçəltmək qənaətinə gəlmişdi. Bu məqsədlə müraciətnamə hazırladı. Müraciətnamələri birər-birər Azərbaycan xanlarına göndərdi. Heç bir xan müsbət cavab vermədi. Ona görə də böyük ordu toplayıb, qonşu xanlıqların ərazisinə soxuldu.

Əmirgünə xan Avşar Fətəli xan Araşlı-Avşarla birləşib Kərim xan Zəndə qarşı çıxdı. Sonra Kərim xanın tərəfini tutub Fətəli xanı

[154] Mirzə Rəşid Ədibüşşüara, Tarixi Əfşar, Təbriz, «Şəfəq», 1346 hicri şəmsi, səh.194-195.

[155] Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 г. Ч. I.. СПб., 1869. Стр. 308.

[156] İbadifərd İbrağani, Tarix və coğrafiyayi Sərab, Sərab, 1375, səh.57.

satdı. Kərim xan onu Şiraza «fəxri qonaqlığa» aparıb ali şuraya daxil etdi.

Kərim xanın vəfatından sonra Əmirgünə xan Taroma qayıdıb özünün xanlığını elan etmişdi. Iranı birləşdirməyə başlayan Ağaməhəmməd xanı tanımaq istəmirdi. Ilk növbədə Urmiya hakimi Məhəmmədqulu xan Qasımlı-Avşara müraciət etdi. Məhəmmədqulu xan ona etina etmədi.

Əmirgunə xan 1782-ci ildə başqa xanlarla birləşib Mazandarana hücum etdi. Savaşda yaralanıb qaçdı.

"Ancaq Qacar sayıq idi, o bilirdi ki, düşmənləri təxribatla məşğuldurlar və Əmirgünə xan Əfşari Tarumilə birləşmişlər. Ona görə də qoşununu Saridən Amola köçürdü"[157].

## *Xalxal və Zəncan xanlığı*

Xəmsəli Zülfiqar xan bu zaman Zəncan və Qəzvindən hazırladığı bir böyük qoşun ilə Tehrana tərəf hərəkət edir. Sepəhdar Xosrov xan Qışlaqda Zülfiqar xanın qoşunun qarşılayır. Bu işin nəticəsində Zülfiqar xan Zəncana qayıdır və bir böyük ordu ilə Gilan əyalətini fəth edib və Əlişəkər Baharlı Türkmanın (Qulomrovi-Əlişəkkər –Ə.Ç.) ərazısini işğal edir. Əlimurad xan Zülfiqar xanın ikinci qiyamından və Gilanın fəthindən xəbərdar olaraq onu sıxmaq üçün bir böyük ordu ilə Zəncana gəlir. İki ordu arasında güclü müharibə gedir nəticədə zülfiqar xan qoşunu məğlub olur və Zəncana qayıdır. Düşmən onun təqib etdiginə görə Xalxala qaçır. Xalxalda yaxalanır, Əlimərdan xana təhvil verilir sonra öldürülür".

Bugünkü Zülfüqarilərin ulu babası olub və Zəncanın Səbzə meydanında yerləşən imarət onunkudur». «Gülşəni-murad»[158] ,

[157] Jan Gevr, Xacə şah, Bakı, "Gənclik", 1993, səh. 203.

[158] Mirzə Məḥəmməd Əbülhəsən Qaffari Kaşani, *Gülşən-e murad*, nəşr. Q.-R. Ṭəbaṭəbai Məcd, Tehran, 1990.



«Rüstəmüttəvarix» və başqa kitablarda da onun haqqında məlumatlar verilib.

## *Xalxal və Gilan xanlığı*

Əmirgunə xan Əmirli-Avşar Nadir şahın ölümündən sonra Gilanın valisi olmuşdu. Yerli əyanlardan Hidayətulla xan Gilanda hakimiyyət uğrunda mübarizə başladı. Bir tərəfdən Əmir Dibac Fuməninin törəmələri, bir yandan da Şah Sultan Hüseyn Səfəvinin dönəmində Gilan hakimi olan Ağa Kamalın övladları. Ağa Safi Gilanı ələ keçirib, özünü xan elan etdi. Məhəmmədhəsən xan Qacar və Kərim xan Zəndin arasında gedən taxt-tac qovğasından istifadə edib, yerini möhkəmlətdi. 1752-ci ildə Ağa Camal Fuməninin qızı ilə evlənib, köklü ailə tərəfindən dəstək qazandı. 1753-cü ildə Ağa Hadi Şəfti ilə ədavəti nəticəsində öldürüldü. Ağa Hadi Mirzə Zəki Kəskərinin yardımı ilə Gilanda xanlıq taxtına əyləşdi. Onun xanlığı 4 ay çəkdi. Qacar xanlarını bir həmləsi ilə tutulub, edam edildi. Bundan sonra Gilan taxtına Hacı Camalın gənc oğlu Hidayətulla xan əyləşdi[159].

Hidayətulla xan Müzəffər sultan kimi tanın Əmir Dibacın törəmələrindən idi.

Kərim xan Zənd Hidayətulla xana fərman göndərib, xanlığını təsdiqlədi və onu bütün ətrafdakı xanlara nəzarətdə saxlamağa məmur etdi.

[159] Əbülhəsən Gülestana, *Mücməl əl-təvarix*, red. M.-T. Müdərris Rəżəvi, Tehran, 1320 ş./1941. səh. 350-51; H. L. Rabino di Borgomale, *Les provinces caspiennes de la Perse: Le Guilan*, RMM32 (1915-16), Paris, 1917., p. 473; İdem Idem, "*Rulers of Lahijan and Fuman in Gilan, Persia*," JRAS 34, 1918, pp. 85-100, p. 98; S. Gmèlin et al., *Histoire des découvertes faites par divers savants voyageurs dans plusieurs contrées de la Russie et de la Perse* I, Berne, 1779. I, pp. 417-18; Perry, John R., *Karīm Khān Zand: a history of Iran*, 1747–1779 University of Chicago Press, 1979, pp. 207-208.

1767-ci ildə Kərim xan Hidayətulla xanın bacısını oğlu Əbülfəth xana aldı[160]. Bundan sonra Hidayətulla xanın vəziyyəti daha da yaxşılaşdı. Ətraf xanların torpaqlarına göz tikməyə başladı. Tez bir zamanda Talış xanlığını özündən asılı etdi. Tarixçi Mirzə Əhməd Mirzə Xudaverdi oğlu yazır: "Gilanın Rəşt mahalında Hidayət xan meydana çıxıb Mazandarandan Talış sərhədi olan Denyaçal çayına kimi [yerləri] öz əlinə keçirdi. O, belə təsəvvür edirdi: «Mən də müstəqil padşaham. Bütün Gilan vilayətləri gərək mənim hökmümə tabe olsun»[161].

Talış xanı ətraf xanlarla birləşib, Hidayətulla xana qarşı çıxdı. Tarixçi Mirzə Əhməd Mirzə Xudaverdi oğlu yazır: "Nəmin hakimi Mehrəli bəy 1768-ci ildə Lənkəran hakimi Qara xanla əlbir olub Gilan hakimi Hidayət xana qarşı çıxmışdı. Mirzə Əhməd Mirzə Xudaverdi oğlu bu barədə yazır: "Qara xanın bu hərəkətini eşidən rəştli Hidayət xan qoşun toplayıb (Talışa gəlmək) fikrinə düşdü. O zamanlar Vilkic mahalında bir tayfa (müstəqil) hökumət iddiasında idi. Qara xan onlar ilə birləşib (Hidayət xana qarşı sadiq bir dost olmağa) and içdilər. Şindan qalasını özlərinə istehkam seçdilər. Rəştli Hidayət xan öz qoşunu ilə gəlib çatana qədər onlar bütün ərzaq və azuqələrini Şindan qalasına aparıb orda anbara yığdılar. Rəştli Hidayət xanın qoşunu Korganrud vilayətinə (mahalına-Ə. Ç.) çatdıqda, içdikləri anda müvafiq olaraq öz köçləri ilə Şindan qalasına getdilər. Rəştli Hidayət xan gəlib gördü ki, Qara xan, Mir Mustafa xan, Mir Əsgər bəy, Şahpələng bəy və onların müttəfiqi olan Mehrəli bəy, Ağa Qəni, Ağa Əbdül və digər şəxslər Şindan qalasına çəkilib möhkəm istehkam arxasına yerləşmişlər. Onlarla bir neçə dəfə müharibə etdisə də, rəştli Hidayət xan məqsədinə çata bilməyib məğlub oldu. Nəhayət, (qalanı) mühasirəyə aldı. İki il

[160] Əbühəsən xan Qaffari Kaşani, *Gülşən-e murad*, red. Q. Təbatəbai, Tehran, 1369 h.ş../1990., vər. 198-99; Gmelin, pp. 164-65; Perry, pp. 207-8; 251-52; see also Məhəmmədhaşim Rüstəm-al-Hükəma, *Rüstəm ət-təvarix*, təshih. M. Müşiri, Tehran, 1348 h.ş./1969., vər. 371-72; 442-43.

[161] Mirzə Əhməd Mirzə Xudaverdi oğlu, Əxbarnamə, Bakı, "Elm", 2000, səh. 32.



Şindan qalasını mühasirədə saxladı.Qaladakılar ərzaq çatışmazlığından çox çətinlik çəkdilər. Aman istədilər"[162].

Gilan işğalçılarına qarşı Lənkəranda müdafiə fəaliyyəti daha da genişləndi. Güclü qoşuna malik olan bacarıqlı sərkərdə Qara xan işğal olunmuş Azərbaycan torpaqlarını gilanlılardan geri ala-ala cənuba doğru hərəkət etdi. Tarixçi Mirzə Əhməd Mirzə Xudaverdi oğlu yazır: "Xudavəndi-aləm Qara xana bir neçə oğul verdi. Onlardan böyüyü Mustafa xan idi. Biri də Şahpələngin bacısı oğlu Mir Əsgər bəy idi. Həqiqətən Qara xanın hər iki oğlu çox igid və zirək idi. Qara xanın bu oğlanları böyüdükdən sonra dünyada kimsəni tanımaq istəmirdilər. O vaxtlarda Mehrani övladından Aslan xan Qəhhar və İbrahim ağa [adında] iki qardaş vardı. Onlar Gorganrud və Asalim mahalında müstəqil hakim idilər. Onlar da Qara xan kimi rəştli Hidayət xanın itaətindən çıxmış və Qara xan ilə əhd bağlayıb belə and içmişdilər ki: «Gedib Rəşt vilayətini alsınlar və Hidayət xanı da ortadan götürsünlər»[163].

Fəaliyyətinin birinci dövründə ölkəni xarici müdaxiləçilərdən təmizləyən Qara xan, xan olduqdan sonra apardığı müharibələrlə Gilan asılığından çıxmaq istəyirdi. Lakin Hidayətulla xan əzmlə öz istilaçılıq mücadiləsini davam etdirirdi. Tarixçi Mirzə Əhməd Mirzə Xudaverdi oğlu daha sonra yazır: "[Qara xan] təxminən bir ay Gorganrud və Asalim mahallarında qalıb hökumət işlərini idarə etdi. Hər kəndə yeni kədxuda təyin etdikdən sonra Lənkərana qayıtdı. Qara xanın bu hərəkətini eşidən rəştli Hidayət xan qoşun toplayıb [Talışa gəlmək] fikrinə düşdü. O zamanlar Vilgic mahalında bir tayfa [müstəqil] hökumət iddiasında idi. Qara xan onlar ilə birləşib [Hidayət xana qarşı sadiq bir dost olmağa] and içdilər. Şindan qalasını özlərinə istehkam seçdilər. Rəştli Hidayət xan öz qoşunu ilə gəlib çatana qədər onlar bütün ərzaq və azuqələrini Şindan qalasına aparıb orada anbara yığdılar. Rəştli Hidayət xanın qoşunu Gorganrud vilayətinə çatdıqda, içdikləri anda müvafiq ola-

[162] Mirzə Əhməd Mirzə Xudaverdi oğlu, Əxbarnamə, Bakı, "Elm", 2000, səh. 38-39.

[163] Mirzə Əhməd Mirzə Xudaverdi oğlu, Əxbarnamə, Bakı, "Elm", 2000, səh. 35.

raq öz köçləri ilə Şindan qalasına getdilər. Rəştli Hidayət xan gəlib gördü ki, Qara xan, Mir Mustafa xan, Mir Əsgər bəy, Şahpələng bəy və onların müttəfiqi olan Mehrəli bəy, Ağa Qəni, Ağa Əbdül və digər şəxslər Şindan qalasına çəkilib möhkəm istehkam arxasında yerləşmişlər. Onlarla bir neçə dəfə müharibə etdisə də, rəştli Hidayət xan məqsədinə çata bilməyib məğlub oldu"[164].

Gilanla Talış xanlığının mübarizəsi Mir Mustafa xanın hakimiyyəti dövründə də davam etmişdi. Hidayətulla xan Mir Mustafa xanı əsir tutub Rəştdə dustaq kimi saxlamışdı.

Hidayətulla xan Ərdəbil xanlığı ilə də gərgin mübarizə şəraitində idi. Kərim xan Zəndə tabe olmayan, hədiyyə, peşkəş və sairə adlarla vergilər verməkdən imtina edən Nəzərəli xanı məhdudlaşdırmaq, sıradan çıxarmaq məqsədilə Gilan hakimi Hidayət xanı səfərbərliyə aldı. O, dolayı yollarla Hidayət xanı Nəzərəli xana qarşı qaldırdı və onu pul, silah və sairə vəsaitlə təmin etdi. Kərim xan Zəndin hərtərəfli yardım və himayəsindən istifadə edən Hidayət xan Nəzərəli xanı tutdu və Ənzəli limanında həbsxanaya saldı[165].

Kərim xanın hökmranlıq dövrü haqqında geniş məlumat verən Gilanlı Hidayət xanın nəvəsi Etimadi-hümayun Əmiri-Gilanşah yazır: "Kərim xan guya müharibələrə son qoymaq və ölkədə əmin-amanlıq yaratmaq naminə nüfuzlu şəxslərlə (əyalətdə hökmranlıq edən şəxslərlə) sazişə getməyi məqsədəuyğun hesab edirdi. Lakin müstəqil hökmdarların və müxtəlif ellərin tabe olmaması, nəhayət Zənd sülaləsinin dağılmasına səbəb oldu"[166].

Kərim xanın vəfatından sonra, 1779-cu ildə şahsevənlər Ənzəliyə hücum edib, Nəzərəli xanı xilas etdilər. Nəzərəli xan taxtında möhkəmləndi. Ətrafına adamlar toplamağa başladı[167].

---

[164] Mirzə Əhməd Mirzə Xudaverdi oğlu, *Əxbarnamə*, Bakı, "Elm", 2000, səh. 38.

[165] Mirzə Məhəmmədsadıq Musəviye (Namiye) İsfəhani, səh.229. Tarixe-qitiquşa, Tehran, 1317, səh. 229.

[166] Əmiri-Gilanşah Etimadi-hümayun, *Yeksəd-o pəncah sal səltənət dər İran*, Tehran, 1340, səh.80.

[167] Yenə orda, səh. 229.



İbrahimxəlil xan 1779-cu ildə Şəkili Hüseyn xanın qətlindən sonra qaynı Şahsevən Nəzərəli xanı çoxlu sayda atlı dəstə ilə Gilan və Rəşt tərəfə göndərdi. Nəzərəli xan göstərilən məntəqəyə hücum edərək onu viran qoyub çoxlu malla geri döndü. Hidayətulla xan Rəştdən qaçdı.

General-poruçik Aleksandr Suvorov 30 iyun 1780-ci ildə Həştərxandan Q. A. Potyomkinə məruzəsində yazırdı: «Hidayət xan gedəndən sonra Rəşt şəhərini idarə edən Nəzərəli xan Sərdar Əlimurad xan tərəfindən İsfahandan göndərilmiş qoşunun yaxınlaşmasını eşidib, Rəşt sakinlərindən ən yaxşı var-dövləti ələ keçirərək şəhərdən Muğan düzünə yola düşmüşdür, indi isə son məlumatlara görə öz qohumu şuşalı İbrahim xanın torpağında köçəri həyat sürür. Rəştdən çıxmamışdan qabaq çoxlu ev və bağ yandırmışdır»[168].

Nəzərəli xan köhnə düşməni Hidayət xanı Rəştdən didərgin salmışdı. General-poruçik Aleksandr Suvorov 28 iyul 1780-ci ildə Həştərxandan Q. A. Potyomkinə məruzəsində yazırdı: «Nəzərəli xan Rəşti alandan sonra Hidayət xan canını qurtararaq gəmidə Rəştin 10 saatlığında Mazandaran tərəfdə Səfidrud çayının mənsəbinə gəlib-çıxmışdır. O, Rəştin 150 verstliyində Təbriz tərəfdə yaşayan xalxallı Əmirgunə xana kömək etməyi xahiş etmişdi və onun tələb etdiyi hər şeyi yerinə yetirməyə boyun olmuşdur. Əmirgunə xan, guya, onun xahişi ilə qoşunla Rəşt yaxınlığına gələrək həmin şahsevənli Nəzərəli xanı ordan qovub-çıxarmış və həmin şəhəri idarə etmək üçün əvvəlki kimi Hidayət xana vermişdir. Nəzərəli xan isə Xalxal xanına müqavimət göstərmək iqtidarında olmadığını görüb, ordan çıxarkən şəhərdəki bütün tikililəri və bağları yandırmışdır. Lakin bu məlumatın təsdiqini gözləmək lazımdır»[169].

Hidayətulla xanın Qubalı Fətəli xanla da arası açılmış, münasibətləri pozulmuşdu. Fətəli xan Ağaməhəmməd xan tərəfindən qovulmuş Hidayətulla xanı yenidən yerinə bərpa etmişdi. Abbasqulu ağa Bakıxanov yazır: "Ağa Məhəmməd xan Qacar

---

[168] ЦГВИА, ф. 52, д. 218, лл, 20-21.

[169] ЦГВИА, ф. 52, д. 218, лл, 39-40.

hüdud boyunu tutduğu zaman, Gilan hakimi Hidayətulla xan məğlub olub, kömək tələbilə Bakıya, buradan da, Qubaya gəldi. Fətəli xan Səlyan və Talış yolu ilə, Mirzə bəy Bayatın komandası altında 9.000 qoşun göndərib, onu Rəştdə əvvəlki yerində oturtdu"[170]. Hidayətula xan da bu yaxşılıq əvəzində ona xərac ödəməyə boyun olmuşdu. Sonra bu boyun borcundan imtina etmişdi. Ona görə də Fətəli xan ona qulaqburması vermək qərarına gəlmişdi. Əvvəlcə Ərdəbilə getmək qərarına gəldi.

Bəzi məlumatlara görə, Fətəli xan İbrahim xanla haqq-hesabı çürütdükdən sonra Ərdəbil əyalətinə getməyə hazırlaşırdı. Çünki bu vilayətin hakimi ölmüşdü. Ərdəbil xanı İbrahim xanın qohumu olduğundan Fətəli xana qarşı müxalif mövqe tuturmuş. Fətəli xan daha sonra Gilana hücum edib Hidayət xanı devirmək, yerinə ayrısını taxta çıxarmaq niyyətində imiş. Fətəli xanın Hidayət xandan narazılığının

başlıca səbəbi bir müddət əvvəl Məhəmməd Həsən (əslində Ağa Məhəmməd xan) Qacar Gilana hücum edib Hidayət xanı oradan qovduqdan sonra Fətəli xanın yardımı ilə yenidən hakimiyyətini bərpa etsə də, Quba döyüşçülərinə razılaşdırılmış məbləği verməkdən imtina etməsi olmuşdu. Hidayət xan hətta döyüşçülərin atlarını əllərindən alıb özlərini buraxmışdı[171].

Fətəli xanın aprel ayında P.S. Potyomkinə yazdığı məktubdan aydınlaşır ki, o, yəni Fətəli xan yanına gələn «Misir Abbasini» Salyanda saxlayır. P.S. Potyomkinin Fətəli xanın yanına göndərdiyi mayor Qauzenə xan demişdi ki, guya Gilana rus konsulu Tumanovskini azad etmək üçün gedir. Mayorun ehtimalına görə isə əslində Fətəli xan Hidayət xanın xəzinəsini ələ keçirməyə gedirdi. Sonra lənkəranlı Qara xan və Aslan xanla birləşib Ərdəbilə gedərək «Misir Abbasini» şah elan etmək istəyir. Sonra da «şahın» adından Rusiyaya elçi göndərəcək. Bu məsələ ilə bağlı rus hökumətinin mövqeyini soruşan P.S. Potyomkin hələlik rus hökumətinin mövqeyini öyrənənədək II İrakliyə məktub göndərib Təbriz, İrəvan və Xoy xanlarını Fətəli xanla birləşməyə yol verməməyə çağırmışdı[172].

1783-cü ildə Tarku şamxalı, Buynak hakimi Bamat və başqaları razılaşıb Fətəli xanı dəstəkləməyə başladılar. Fətəli xan Qarabağlı İbrahim xanla ittifaq bağlayıb, Gilanlı Hidayət xana qarşı yürüş edəcəkdi[173].

Quba, Qarabağ, Ərdəbil və Gilan xanları arasında olan ixtilaflar müxtəlif səbəblərdən törəmişdi. Bu barədə Rusiyanın Hərbi arxivində xeyli sənədlər var. Sənədlərin birində yazılır: İbrahim xanın yazdığına görə Kərim xanın kürəkəni olan gilanlı Hidayət xan qanuni hakim Nəzərəli xanı həbsdə saxlayırdı. Kərim xanın ölümündən sonra o, bir yolla azad olmuş və Məhəmməd Həsən (oxu: Ağa Məhəmməd) xanın köməyilə Gilan taxtına yiyələnmişdir. Öz xəzinəsini itirməkdən qorxan Hidayət xan onu gəmiyə yükləyib Rusiyaya qaçmaq istəmiş, lakin Fətəli xan onu qaçmağa qoymayıb bildirmişdi ki, 6 min nəfər dağıstanlı döyüşçünün köməyi ilə onu taxta bərpa edəcək. Lakin döyüşçülər Gilanda elə vəhşiliklər törətmişlər ki, Hidayət xan onları qovmalı olmuşdur[174].

---

[170] A. Bakıxanov, Gülüstani-İrəm, Bakı, «Elm», 1991, səh..

[171] RQVİA, f. 52, siy. 1, iş 286, his. 1, v. 7.

[172] RQVİA, f. 52, siy. 1, iş 286, his. 1, v. 48.

[173] *Русско-дагестанские отношения в XVIII – начале XIX в.* Сб. М., 1988., с.130, 164–165; 175-176.

[174] RQV□A, f. 52, siy. 1, i□ 286, his. 1, v. 55 a.ğ.

# VII FƏSİL

## Qacarlar dövründə Xalxal hakimləri

### *Əliqulu mirzə Qovanlı-Qacar*

Fətəli şahın qırxsəkkizinci oğlu Əliqulu mirzə (anası Gülpirxan xanım gürcü) 7 dekabr 1822-ci ildə Tehran şəhərində anadan olmuşdu. Mükəmməl saray təhsili almışdı. Etizadəssəltənə ləqəbi daşıyırdı. O, Məhəmməd şahın hakimiyyəti zamanı anasının kargüzarlıq işləri ilə məşğul idi. Nasirəddin mirzə Təbrizdən Tehrana gələnədək, Məhdi Ülyanın yardımçısı olmuşdu. Bir müddət Tehran şəhərini idarə etmişdi.

Əliqulu mirzə Nasirəddin şahın hakimiyyətinin ilk dövründə Xalxalın hakimi olmuşdu. Əliqulu mirzə 1857-ci ildə Tehran Darülfünunun rəisi, 1858-ci ildən isə İranın maarif naziri olmuşdu. Bu vəzifələrdən əlavə Sənaye, Mədənlər, Ticarət və Teleqraf nazirlikləri, dövlətin qəzet təsisinə, nəşriyyat işlərinə rəhbərlik ona tapşırılmışdı. O, Məlayir və Tuysərkanın hakimi olmuşdu.

Əliqulu mirzə 1871-ci ildə Böyük Şura məclisinə seçilmiş və bir ildən sonra Borucerdin hakimliyi də ona verilmişdi.

Əliqulu mirzə bir neçə elmi-tədris kitabının müəllifidir.

Əliqulu mirzə 14 dekabr 1880-ci ildə vəfat edib.

Əliqulu mirzə Fəxricahan xanım Avşarla, Tacmah xanım və Mahsultan xanımla ailə qurmuşdu. Abbasqulu mirzə adlı oğlu vardı.



### *Əzizulla mirzə Qovanlı-Qacar*

Əzizulla mirzə Cəlaləddin mirzə oğlu 1850-ci ildə Tehran şəhərində doğulmuşdu. Saray təhsili almışdı. Müzəffərüssəltənə ləqəbini daşıyırdı. 1886-cı ildə Xalxalda bir hərbi dəstənin rəisi olmuşdu. Sonra həmin vilayətə hakim təyin edilmişdi. 1897-ci ildə Salmas, Urmiya və Xoyun valisi olmuşdu. O ilin yayında İran-Osmanlı sərhədlərinə göndərilən ordunun baş komandanı təyin edilmişdi. Müzəffərəddin şahın vəliəhdliyi dönəmində Azərbaycan ordusunun komandanı olmuşdu.

Əzizulla mirzə Müzəffərüssəltənə 1900-cü ildə Həmədana vali göndərilmişdi. Bir az sonra ordan dəyişilib Kermana getdi. 1903-cü ilədək bu əyalətin valisi oldu. 1904-cü ilin mart ayında Hacı Mirzə Məhəmmədrza Müctəhid cəzalandırılandan sonra onu Tehrana çağırdılar. 1905-ci ildə yeni sistemdə qurulan hərbi hissənin 6000 nəfərlik dəstəsinin komandanı təyin edildi. Lorustan, Ərəbistan (Əhvaz və ərəblər yaşayan bölgə) əyalətlərinin müdafiəsi ona tapşırıldı.

Əzizulla mirzə Müzəffərüssəltənə 1907-ci ildə Hüseynqulu xan Mafi Nizamüssəltənəninin kabinəsində hərbi nazir vəzifəsinə yüksəlmişdi. Sonra Tehran şəhərinin hakimi təyin olunmuşdu.

### *Məhəmmədrəhim mirzə Qacar*

Abbas mirzənin ondoqquzuncu oğlu Məhəmmədrəhim mirzə Təbriz şəhərində anadan olmuşdu. Mükəmməl saray təhsili almışdı. Ziyaəddövlə ləqəbini daşıyırdı[175]. Azərbaycanın bəzi vilayətlərinə (Xoy (1851), Səlmas (1857), Urmiya, Ərdəbil, Meşkin, Qaradağ, Sərab, Xalxal və Marağa) başçılıq etmişdi.

---

[175] http://www.arianica.com/articleteaser/26755.

Məhəmmədrəhim mirzə bir müddət müdafiə vəziri vəzifəsində çalışmışdı.

Məhəmmədrəhim mirzənin Ənuşirəvan mirzə adlı oğlu vardı.

## *Hacı Məhəmmədqulu xan Cavanşir*

Xalxal hakimlərdən biri də Hacı Məhəmmədqulu xan Cavanşirdir. Onun haqqında daha geniş məlumat verək. Məhəmmədqulu xan Əbülfət xan oğlu Sarıcalı-Cavanşir Şuşa şəhərində doğulmuşdu. Təlim-tərbiyəsini sarayda almışdı. Təbrizdə ali hərbi təhsilə yiyələnmişdi. Qacar ordusunda sultan (kapitan) rütbəsində xidmətə başlamışdı. Bir müddət «Qəhrəmaniyyə» qoşununda yavər (mayor) rütbəsi ilə xidmət etmişdi. Sərhəng rütbəsində bir çox yerlərdə qoşun hissəsinin başçısı olmuşdu. Sonra sərtip (general-mayor) rütbəsi almışdı. Əmir tümən (diviziya generalı) rütbəsinədək yüksəlmişdi.

Məhəmmədqulu xan müqəddəs Məkkəyi-müşərrəfi ziyarət etmişdi.

Hacı Məhəmmədqulu xanın Hüsaməddövlə ləqəbi vardı.

Yasəmən bəyim Məhəmməd xan qızı Cavanşir Məhəmmədqulu xanla bağlı araşdırma aparıb İran tarixi əsərlərində yazılan qeydlərdən iqtibas etmişdir. Həmin iqtibası olduğu kimi yazımıza köçürürük.

Nadir mirzə Qacar yazır: «Naibüs-səltənənin səkkizinci oğlu ... 1251-ci ildə Təbrizə gəldi... Qəhrəman mirzənin padşahlıq kimi hakimiyyəti var idi... Bu şahzadə Təbriz cavanlarından seçdiyi hamısı gözəl oğlanlardan ibarət olan bu hərbi dəstəyə «Qəhrəmaniyə» adını qoydu və bu orduya rəhbərliyi Əbülfət xan Cavanşirin oğlu Məhəmmədəli xana, yavərliyi də onun kiçik qardaşı Məhəmmədqulu xana tapşırdı»[176].

[176]Nadir mirzə, Tarix və coğrafiye dar-üs-səltəneye Təbriz, Təbriz, "Setodəh", 1373, səh. 247.



Hacı Məhəmmədqulu xan 1852-ci ildə (1268-ci ildə) Xalxal hakimi, [Etimadüssəltənə. Göstərilən əsəri, səh. 1113. ]. 1885-ci ildə (1303-cü ildə) Marağa hakimi idi. Məsud Qulamiyyə yazır ki, Hüsaməddövlə ləyaqətli bir şəxs olub. Onun hakimiyyəti dönəmində Marağa əmin-amanlıq içində idi[177].

Hacı Məhəmmədqulu xan 1888-ci ildə Urmiya hakimi, 1892-ci ildə (1310-cu il rəbiül-sani ayının 7-də) İbrahim xan Zəhirəddövlənin nəvəsi, Rüstəm xanın oğlu Xanbaba xan çıxarıldaqdan sonra Xoy hakimi təyin edildi[178]. Onun möhri-səci «Məhəmmədqulu ben Əbülfət» idi.

Hüsamüddövlə əvvəlcə Xoy ordusunun komandanı briqada generalı Heydər xanı Naibülhökumə etdi. Həmin günlərdə Heydər xan Xoy qoşunu ilə Şiraza getdiyi üçün Əsgər xan bəylərbəyliyini teleqraf hökmü ilə Naibülhökumə etdi. Yeni hakim rəbiül-əvvəl ayının 22-də Firuğa daxil olub iki gün orada qaldı. Cəmadiül-əvvəl ayının 26-da hərbi istiqbal qoşunu ilə şəhərə girib qalada (Ərak) salama oturdu və 21 dəfə topdan ataş açdılar.

Hüsamüddövlə şeyxiyyə müridlərindən idi. Hacı Mirzə Siğğətulla Səlam şəhidi-mərufun atasını Xoya dəvət edib on gün onu qəbul etdi. Mollayi Şeyxi olan Şeyx Fəzlulla Xoyi üçün şahzadə Müzəffərəddin mirzədən «Höccətül-İslam» ləqəbi aldı. Bunu bilmək lazımdır ki, bu ləqəbin o zaman əhəmiyyəti var idi və hələ «təbiri» kimi dini işlər vəzifəsində olanların hamısına verilmirdi. Bundan əvvəl alim və şair ləqəbi ilə tanınan Mirzə Məhəmmədtağı Təbrizinin təxəllüsü «Niər» idi.

Hüsamüddövlə bir il dörd ay hakimiyyətdə oldu. Xoş niyyətli, işgüzar və müqtədir bir insan idi. Onun hakimiyyətindən sonra əvvəlki hakim Xanbaba xanın zəifliyi tamamilə aydın görünürdü. Hüsamüddövlədən əvvəl belə bir xoşagəlməz qayda var idi ki, aşura günü qəmə vuran dəstələr hakimin yanına gedər və hakim müqəssir dustaqları onlara bağışlayıb zindandan azad edərdi. O, bu qaydanı (rəs-

[177]Məsud Qulamiyyə, Tarixi Marağa bə rəvayəti təsvir, Tehran, "Övhədi", 1385(h.ş.), səh.78.

[178]Riyahi, Məhəmməd Əmin. Xoy tarixi. I cild. Tehran, Tus, 1372, səh. 421.

mi) qadağan etdi və hətta onun qüdrəti qarşısında dəstələr heç bir fikir söyləməyə cürət etmədilər[179]. Ancaq məqbərədə oturmaq rəsmi olaraq öz yerində qaldı. Oğrular, yolkəsən və günahkarlar oraya pənah aparır, təqibdən xilas olur və Divanın əlindən bir iş gəlmirdi.

Osmanlı Şəhbəndərxanəsi (Konsulluq), başqa bəstlər təxribat mərkəzi idi. Osmanlıların sərhədlərdə törətdikdəri təxribat və təcavüzlər də böyük başağrısı idi. Rəbiül-sani ayının 10-u 1310-cu ildə kürdlər Osmanlı piyada və süvari qoşunları təbil və şeypurla Qotura hücum etdilər və mal-qara sürüsünü qarət kimi apardılar. Qasım ağa onları təqib etdi, sürüsünü alsa da, özü öldürüldü. 1310-cu ilin baharında İsmayıl ağanın atası Məhəmməd ağa Şəkkakın bəd əməlləri böyük çətinliyə səbəb olmuşdu. O, osmanlıların təhriki ilə Səlmas nahiyəsində ixtişaş yaratmışdı.

Hüsamüddövlə Əmir Tüman Xoyda dövlət qoşunları, köçəri tayfa atlıları və dörd topdan ibarət ordu yaratdı. Şəvval ayının ortalarında Seyistanlı briqada generalı Abbasqulu xanın komandanlığı ilə Səlmasa göndərdi. Beş ay Səlmasda qaldılar. Nəhayət, dəfələrlə vuruşduqdan sonra Məhəmməd ağa Osmanlı torpağına pənah apardı. Ordu rəbiül-əvvəl ayının 11-də Xoya qayıtdı. O il zərbxana müdirinin saxtakarlığı nəticəsində ortaya çıxan qara pul məsələsi tacir və sənətkarların narahatlığına səbəb oldu. Bazarın yanması bazar adamlarına yüz min tümən hüdudunda zərər vurdu. Mühüm məsələlərdən biri də gömrük və yol işçilərinin tutulması idi. Bu məsələ tacirlərin teleqrafda bəstə oturmasına səbəb oldu. Tacirlərin malları şəhərin kənarına töküldü. Iş o yerə çatdı ki, 1310-cu il, səfər ayının ortalarında Hüsamüddövlə telefonçu istefa verdi. O, bir il dörd aylıq hakimiyyətindən sonra 1311-ci il şəvval ayının 12-də Xoyu tərk edib Əruma (Urmiyaya) gəldi və o illər Xoyda işləyən Əli xan Nazimül-olumu öz yerinə qoydu[180].

Beşinci gün rəcəb ayının 11-i 1314-cü ildə (17 dekabr 1896-cı il) Təbrizdə nəşr olunan «Nasiri» qəzetinin üçüncü il 29-cu sayında Məhəmmədqulu xanın ölümü haqqında verilmiş elanda belə

[179]Riyahi, Məhəmməd Əmin. Xoy tarixi. I cild. Tehran, Tus, 1372, səh. 421, 423.
[180]Riyahi, Məhəmməd Əmin. Xoy tarixi. I cild. Tehran, Tus, 1372, səh. 423.



deyilirdi: «İranın əzəmətli və şanlı sahib mənsəblərindən olan və gözəl xidmət göstərən Əbülfət xan Cavanşirin oğlu Hacı Məhəmmədqulu xan Əmir Tüman 80 il dövlət qulluğunda olmuş rəcəbül-mürəccəb ayının səkkizinci gününün səhəri podoqra xəstəliyindən haqqın dəvətinə «ləbbeyk» deyib həyat yatağını başqa dünyaya çəkdi. Bu qabil mənsəb sahibinin əvvəlinci xidməti vəzifəsi hərbi sahədə olmuş, 15 yaşından bu sahədə mərtəbə ilə ucalmış, saysız-hesabsız təhlükələrlə üzləşmiş, çoxlu fəthlər etmiş, özünün müsbət keyfiyyətləri və ləyaqətinə görə «sultan» dərəcəsindən (Əmiri-tüman) diviziya generalı dərəcəsinə qədər ucalmışdır. Böyük və ümdə dövlət imtiyazına və avtoritetə malik idi. Son zamanlar yaşının çox olması üzündən orduda xidmət edə bilmədiyi üçün ona dövlət tərəfindən vacib işlər tapşırılmış və xidmətdən boyun qaçırmamışdır. Həqiqətən də elə mənsəb sahibi idi ki, onun yoxluğu minlərlə kədər və təəssüfə səbəb oldu»[181].

Hacı Məhəmmədqulu xan 17 dekabr 1896-cı ildə vəfat edib.

## *Sultanəli xan Vəziri-Əfxəm*

Sultanəli xan 1882-ci ildə anadan olmuşdu. Məhəmməd xan Salarülmülkün oğlu və Mirzə İbrahim xan Zəhirəddvölə Qacarın qız nəvəsi idi. O, Azərbaycanın vergi müfəttişi (mistovfisi) vəzifəsində çalışmışdı. Sonra Xalxalın hakimi oldu və Şatıranlı və Şahsevən tayfalarının fitnə və fəsadlarının aradan qaldırılması üçün effektiv tədbirlər gördü. Nasirəddin şah Qacarın öldürülməsindən sonra, hesablamalar naziri oldu və bir il sonrada Yəzd əyalətinə başçılıq etdi. Eynəddövlə Əbdülməcid mirzə Qovanlı-Qacar və Müşirəddövlə Mirzə Nəsrulla xan kabinetlərində daxili işlər naziri vəzifəsini icra etmişdi. Mirzə Nəsrulla xan Müşirəddövlənin istefasından

[181] Səməd Sərdariniya, İbrahimxəlil xan Cavanşir. Gös. əsəri, «Varlıq» nəşriyyatı, səh. 125.

sonra, Qacarlar dövlətinin baş nazir oldu[182]. Həmin tarixdən bəri İranda baş nazirə "sədr əzəm" ləqəbinin əvəzinə, "rəyasate vüzəra"(nazirlərin rəisi) deyildi.

Mirzə Sultanəli xan Vəziri-Əfxəm həm nazirlərin rəisi, həm də daxili işlər naziri vəzifəsini daşıyırdı.

1907-ci ildə, Məclis nümayəndələri yekdilliklə, onun işdən kənarlaşdırılmasına səs verdilər və beləliklə, Əfxəmin təxminən qırx günlük hökuməti tamamlandı.

Vəziri-Əfxəm işdən kənarlaşdırılmadan sonra,Məhəmmədəli şah Qacar əmri ilə dərbar (saray) naziri oldu.

Sultanəli xan Vəziri-Əfxəm 1914-ci ildə vəfat etdi.

Vəziri-Əfxəm böyük əmlak sahiblərindən idi və Zəncan və Kirmanda çoxlu əmlakı vardı. Onun törəmələrinin bəzisi "Əfxəmi" və bəzisi isə "Əfxəm-İbrahimi" soyadını daşıyırlar.

Sultanəli xan Vəziri-Əfxəmin Məhəmmədhəsən xan adlı oğlu, Münəvvərəddövlə xanım, Bədirəddövlə xanım adlı qızları vardı.

---

182 بامداد، مهدی، شرح حال رجال ایران، تهران، گلشن، چاپ سوم



# VIII FƏSİL

## Mədəniyyət

Xalxal şəhəri ətrafında indiyə qədər arxeoloji qazıntı işlərinin aparılmaması onun nə vaxt bina edildiyinin dəqiq müəyyənləşdirilməsini çətinləşdirir. Lakin təsadüfi hallarda Xalxal və onun ətrafında tapılmış bir sıra maddi-mədəniyyət nümunələri və bəzi abidələr bizi eramızdan əvvəl bu ərazidə yaşayanların mədəniyyəti ilə tanış edir.

Xanlıq dövründə Xalxalda qiymətli xalça və parçaların istehsalı çiçəklənir. Miniatürlərdəki təsvirlərə və bizə gəlib çatmış nadir nümunələrə əsaslanaraq belə bir nəticəyə gəlirik ki, bunlar əsas etibarilə naxışlı və gül-çiçəkli şəkillərlə, həmçinin ərəb rəsmlərilə, Qurandan parçalarla, şeirlər və müdrik kəlamların yazısı ilə bəzədilirdi. Süjetli xalça və parçalar da çox dəbdə idi. Saray geyimləri, xan çadırları, pərdələr, örtüklər, mütəkkələr üçün çox gözəl süjetli və ornamentli parçalar, qara və gümüş saplı parçalar istehsal edilirdi. Bu parçalardan hazırlanmış məmulatlar adi, qızıl və gümüş saplı gözəl bədii tikmələrlə bəzədilirdi. Toxuculuq mərkəzləri Xalxal, Hir və Gividə yerləşirdi. Xalxal xalçaları və parçalarına bütün Şərqdə böyük tələbat var idi.

XVIII əsrdə Xalxalda xəttatlıq və miniatür sənəti inkişaf etmişdi. Xalxal şəhəri Şərqdə bədii yaradıcılığın, kitab sənəti, kalliqrafiya və miniatür boyakarlığının qüdrətli mərkəzlərindən birinə çevrilmişdi. Xalxal məktəbi qonşu ölkələrlə yaradıcılıq əlaqəsi saxlamış, məktəbin nümayəndələri müxtəlif vaxtlarda bir çox Şərq ölkələrində fəaliyyət göstərmişlər.

Xalxal xanlığı kiçikliyinə, müyyən mənada zəifliyinə baxmayaraq mədəniyyətin, ədəbiyyatın və sənətin inkisafında müəyyən xidmətlər göstərmişdi.

# Ədəbiyyat

XVI əsrin sonu və XVII əsrin əvvəllərində Səfəvi-Osmanlı müharibələri xalqın mədəni inkişafı prosesinə sarsıdıcı zərbə vurmuşdu. Bir çox məşhur Azərbaycan alimi əsir alınmış, İstanbula aparılmış, bəziləri isə Qəzvinə və İsfahana köçürülmüşdü. İstanbula aparılan Xalxallı şair və alimlərdən biri **Əllamə Hüseyn ibn Həsən əl-Hüseyni Xalxali** idi. İmam Hüseynin nəslindən olan əllamə Hüseyn Xalxali sultan III Murad (1574-1595) və III Mehmedin (1595-1603) hakimiyyəti illərində Osmanlı imperiyasında yaşamış tanınmış müfəssir, filoloq, kəlamçı və astronom idi. Əllamə Hüseyn Xalxali Mirzə Can Şirazinin tələbəsi olmuşdu. O, müxtəlif elm sahələrinə dair ərəbcə, farsca və türkcə qələmə aldığı bir sıra əsərlərin müəllifi idi. Digər biri **Nəsrullah ibn Muhəmməd əl-Ömərі Xalxali** Şafii məzhəbinə mənsub fəqih, müfəssir, mütəkəllim, əxlaq nəzəriyyəçisi, riyaziyyatçı və şair idi. Nəsrullah Xalxali Səfəvilərin təzyiq və təqibləri nəticəsində vətəni tərk etmək məcburiyyətində qalan alimlərdən biri idi. Alim Osmanlı imperatorluğu idarəsində olan Şam diyarına getmiş, Hələb şəhərində məskunlaşmışdı. Nəsrullah Xalxali Hələbdəki Əsruniyyə mədrəsəsində dərs vermişdi[183].

XVII əsrin ortalarında Azərbaycanda elm və maarifin inkişafında müəyyən canlanma nəzərə çarpırdı. Bu dövrdə Mirzə Məhəmməd, Məczub Təbrizi, Molla Mömin İman, **Əliqulu Xalxali, Molla Vaqif Xalxali**, Nəcibəddin Rza Təbrizi, uzun müddət ərzində Təbrizin şəriət məhkəməsinə başçılıq etmiş Mövlana Rəcəbəli Vahid Təbrizi, Yusif Məhəmmədcan oğlu Qarabaği, Hüseyn Xələf oğlu Təbrizi, Sadiq bəy Avşar, Əlirza Təbrizi Səfəvi imperiyası ərazisində müxtəlif elm sahələrinin inkişafında mühüm rol oynamışlar.

Şiəlik, şəriət ehkamları və islamın əsasları Azərbaycanda ilahiyyatın tanınmış nümayəndələri olan **Ağa Hüseyn Xalxali**nin (XVII əsr) əsərlərində geniş, hərtərəfli əksini tapmışdır. Alim bu və digər əsərlərində islamın, onun şiə məzhəbinin, islam əxlaqının

[183] Nəfisi S. *Tarixi-Nəzm və Nəsr*, C. II, s. 706.



təbliğatçısı və ideoloqu kimi çıxış edirdi. Ağa Hüseyn Xalxali sufi panteizminə, xüsusilə Yusif Qarabağinin fəlsəfi baxışlarına qarşı fəal mübarizəsi ilə tanınırdı.

Mədrəsələrdə dərs deyən müdərrislər arasında dövrün tanınmış alimləri, o cümlədən Mirzə Məhəmməd Məczub Təbrizi, Molla Mömin, Mövlana Əbdülsəməd, Qazi Şıxəmi, Təbrizli Mirzə Baqi, Mövlana Rəcəbəli Vahid, **Mövlana Nəsrulla Xalxali** də olmuşdur.

Xalxal xanlığı dövründə yaşayan şairləri ayrıca verməyi gərəkli bildik.

## Sadıq bəy Xalxali

Sadıq bəy Xalxal şəhərində anadan olmuşdu. Əslən Şəqaqi elinin İspərli oymağındandır.

Sadıq bəy şair idi. Sabit təxəllüsü ilə xoştəb şeirlər yazırdı. Ünlü bioqraf Mirzə Məhəmmədəli xan Tərbiyyət onun haqqında yazır: "Sabit Xalxali – adı Sadıq bəydir. O, İspərlu elindən, Xalxal mahalının vəkilürrüayası idi. Sabit arif olmuş və fars, türk dillərində bir sıra şeirlər qoşmuşdur. O, qoca yaşlarında da eşqini, həvəsini itirməmişdir. Sabitin günü-ruzigarı yaxşı olmuş və dövründəki böyük şəxsiyyətlərə möhtac olmamışdır. O, həyatı sevən, səmimiyyətli, xoşsöhbət və arifməslək olaraq, gözəl məzmunlu şerlər yaratmışdır. Aşağıdakı şerlər onundur:

Salma hörülmüş sünbülü gül kimi üzünə.
Niyə salırsan günəşi bulud pərdəsinə.

Ürəyin çarəsi döyünməkdir ancaq,
Nə etsin ki, sənsiz aram olmayacaq.
Təkcə ayrılığın törətmir iztirab,
Cəmalın görcək də qalmır onda tab.
Könlümün bağbanı o çiçək bağından,
Baxmaq diləyir tək, dirmək yox, sən inan!

Rəqiblə bir yerdə necə görüm səni,
Tabım yox eşitmək rəqibin səsini.
Sabit, hicri odundan qurtarmaq istəsən,
Əcəl badəsini gərək sən içəsən.

***

Qoy açılmasın gündüz heç qiyamətəcən,
Bəlkə də qucaqladım ayı bir gecə mən.

***

Hər kim istərsə yar kuyundan keçsin,
Ona əvvəl gərək canından keçsin.
Ölüm mənə yeydir bu yaşayışdan,
Sabit istər belə ömürdən keçsin.

Aşağıdakı türk dilində şeir də Sabitdəndir:

Dağıdıb qamətinə sərv səmənbər geysu,
Kim görüb sərvdə bir bəylə müənbər geysu.
Kah zəncirim olur, gah könül murğuna dam,
Gətürür başimə Sabit, nə bəladır keysu.
("Nigaristani-Dara")

## Ağa Mirzə Məhəmmədbağır Xalxali

Ağa Mirzə Məhəmmədbağır Xalxali 1829-cu ildə Xalxal vilayətinin Qarabulaq kəndində dünyaya gəlib. Şairin bu günümüzə cəmi bir əsəri "Sələbiyyə" (Tülkü) gəlib çatıb. Onun başqa əsərlərinin mövcud olduğu haqda heç bir mənbədə məlumat yoxdur.

Xalxalinin həyatı barəsində də çox az məlumat var. Bu məlumatlar da əsasən onun əsərindən alınmışdır. Əsərdən belə



məlum olur ki, o Nasirəddin şahın dövründə - hicri tarixi ilə 1310-cu ilə "Sələbiyyəni" yazıb tamamlayıb. Şair bu əsərini nəzmlə yazıb. Əsəri "tülkünün nağılı" da saymaq olar. Tülkü haqqında danışmaqla Xalxali çox dərin fəlsəfi, mənəvi, məişət məsələlərinə toxunur. "Sələbiyyə"də o, demək istədiklərinin o dövrün savadsız camaatı başa düşsün deyə çox sadə dillə ifadə edir. Əsərdə sırf tülkünün hekayəti onun onda biri qədərdir. Əsər əsasən nəsihətlərdən ibarətdir.

Ağa Mirzə Məhəmmədbağır Xalxali 1901-ci ildə vəfat edib.

Bihəmdillah, kitabi-"Sələbiyyə"
Tamam oldu əcəb şirin qəziyyə.
Zamani-Nasirəddin şahi-Qacar,
Şəhənşahi-cahangirü cahandar.
Mənə yoxdur yolu şahı edim mədh,
Neçün ki, qorxuram mədhim ola qədh.
Və lakin şahımız çox yaxşı şəhdir.
Xilafət bürcünə rəxşəndə məhdir.
Onun əhdində asudə dolannıq,
Ədalət kölgəsində daldalannıq....
Xudaya, daimi qıl tacü təxtin,
Bülənd et himməti tək cahü bəxtin.
Özün, oğlanların, əhlü əyalın,
Hamı nökərlərin, cahın, calalın
Həmişə bu cahanda paydar et,
Onun bədxahına bərpayi-dar et....
Xəbər alsa biri adımı bilfərz,
Özüm öz adımı qoy eyləyim ərz.
Fünuni-mərifətdən xaliyəm mən,
Məhəmməd Bağıri-"Xalxaliyəm" mən.

## Ağa Seyid Məhəmməd Saleh Xalxali

Ağa Seyid Məhəmməd Saleh Məhəmməd Səid oğlu Xalxal şəhərində anadan olmuşdu. Məktəb yaşına çatdıqda atası onun yüksək səviyyədə olan istedadını görüb həddindən artıq elmi məşğuliyyətinə, tədrislərinin və eləcə də müraciət edənlərin çoxluğuna baxmayaraq, oğlunun təlim-tərbiyəsi ilə şəxsən məşğul olmağa başladı. Hövzə elmlərinin ən yüksək səviyyəsinə qədər onunla yanaşı oldu. O, özünün fitri istedadı, elmə həddindən artıq olan məhəbbəti və ciddiyyəti sayəsində qısa bir vaxtda bu mərhələləri keçdi. Sonra Mirzə Həsən Cilvənin (?-1896) yanında fəlsəfə və kəlamı öyrəndi.

Seyid Saleh Xalxali bir çox kitablar qələmə almışdı. Onlardan ən görkəmli əsəri "Şüruhi-sələsə" (üç izah)dır. O, Mühyəddin ibn əl-Ərəbinin (?-1240) "On iki imam" əsərini, Mir Findiriskinin (?-1640) "Qəsideyi-yaiyyə" əsərinin və Şeyx Mürtəza Ənsarinin (?-1864) "Fəraid" əsərinin izahını yazmışdır. Həmin əsərlər Tehranda çap olunmuşdur.

Seyid Saleh Xalxali 7 sentyabr 1888-ci ildə vəfat edib.

## Kərbəlayı İmamyar Şəqaqi

Kərbəlayı İmamyar Şəqaqi Şatıranlı 1806-cı ildə Xalxal böhgəsinin Ute ülya (Mustafalı) kəndində anadan olmuşdu. Mükəmməl mədrəsə təhsili almışdı.

Kərbəlayı İmamyar Şəqaqi şair idi. Qəmgin təxəllüsü ilə gözəl şeirlər yazırdı.

Şairin əruzun demək olar ki, bütün oynaq bəhrlərində yazılmış əsərləri arasında 4 beytdən başlamış 16 beytə qədər həcmdə qəzəllərə rast gəlmək mümkündür. Lakin onların böyük əksəriyyəti ənənəvi 6-7 beytlik qəzəllərdən ibarətdir. Qəzəllər əsasən həcəz, rəməl, müzare, xəfif bəhrlərində yazılmışdır. Məhəbbət mövzusu onların demək olar ki, hamısının mərkəzindən qırmızı bir xətlə keçir.



Şair şeirlərini şirin Xalxal ləhcəsində yazdığına baxmayaraq, həmin dialektdə işlənən fars sözlərindən olduqca az istifadə etmiş və Cənubi Azərbaycanda dilimizin saflığını poeziyada qoruyub saxlamağa cəhd etmişdir

Kərbəlayı İmamyar Şəqaqi 1906-cı ildə vəfat edib və Xanqahe Sadat kəndində İmamzadə Seyid Daniyalın türbəsinin civarında dəfn olunub.

## Molla Cəlal Xalxali

Molla Cəlal Xalxali 1812-ci ildə Xalxal şəhərində doğulmuşdu. İbtidai təhsilini molla yanında almışdı. Sonra mədrəsədə oxumuşdu. Ustad yanında xəttatlığı öyrənmişdi.

Molla Cəlal Xalxali nəstəliq xəttinin ustadı idi. O, məşhur "Şahnamə"ni, bir neçə kitabın üzünü köçürmüşdü. 1864-cü ildə işlədiyi əsərlərdən bəziləri Azərbaycan Əlyazmaları İnstitutunda saxlanır.

Molla Cəlal Xalxali xəttatlıq sahələrində klassik irsimizlə bağlı olan bir sıra dəyərli əsərlər yaratmışdır.

Qeyri-adi fiziki və yaradıcılıq enerjisinə malik olan Molla Cəlal Xalxali gözəl şeirlər də qələmə alınmışdır.

# NƏTİCƏ

Xalxal xanlığı tarixinin kompleks şəkildə öyrənilməsinin aktuallığı nəzərə alınaraq, problem xüsusi tədqiqat obyekti olmuşdur.

Mövzu üzrə tarixşünaslıq tədqiqatı problemin öyrənilməsi səviyyəsini müəyyən etməyə, nailiyyətlərlə birgə mövcud boşluqları, dövr üzrə qarşıda duran vəzifələri ortaya çıxarmağa imkan vermişdir. Müəyyən olunmuş məqsədi və ona uyğun vəzifələri həll etmək üçün geniş və hərtərəfli mənbə bazası yaradılmışdır. Bütün bunlar problemin əhatə etdiyi hər bir məsələni yüksək səviyyədə araşdırmağa və onu yeni elmi müddəalarla zənginləşdirməyə imkan vermişdir.

Nadir şahın ölümündən sonra genişlənən xanlıqyaranma prosesində meydana gələn Xalxal xanlığı Azərbaycanın xanlıqlar sistemində özünəməxsus yer tutmuşdu.

Sənədlərin, arxiv materiallarının araşdırılması göstərir ki, Xalxal xanlığı Azərbaycan xanlıqları arasında öz yeri olan müstəqil bir qurum olub.

Xalxal xanlığı iqtisadi həyatının əsasını kənd təsərrüfatı və sənətkarlıq təşkil edirdi. Taxılçılıq, heyvandarlıq, bağçılıq və üzümçülük, ipəkçilik, pambıqçılıq kənd təsərrüfatının əsas sahələrindən idi. Torpaq mülkiyyətinin xəzinə, sahibkar və ruhani idarələrinə məxsus olan vəqf formaları üstün idi. Xanlıq dövründə tiyul torpaqları hələ də mövcud idi.

XVIII yüzilin ikinci yarısında Xalxal xanlığının yaranması və onun apardığı müstəqil siyasət vilayətin təsərrüfat həyatının inkişafına təkan verdi, dağılmış iqtisadiyyat dirçəlməyə başladı. Xanlığın iqtisadiyyatında kənd təsərrüfatı əsas yeri tuturdu. Əhali əkinçilik, heyvandarlıq, bağçılıq və bostançılıqla məşğul olurdu. Əkinçilikdə süni suvarma sistemindən geniş surətdə istifadə olunurdu.

Kənd təsərrüfatı ilə müqayisədə sənətkarlıq istehsalı Xalxal əhalisinin məşğuliyyətində həlledici əhəmiyyətə malik deyildi.



Azərbaycanın digər yerlərində olduğu kimi, burada da sənətkarlıq istehsalı daha çox kənd təsərrüfatı ilə bağlı olub, əsasən, yardımçı xarakter daşıyırdı. Kənd əhalisinin xeyli hissəsinin başlıca olaraq istehsal edilmiş kənd təsərrüfatı məhsullarının emalı ilə bağlı olan ev sənətkarlığı ilə məşğul olması da əsasən onun nəticəsi idi. Ərdəbil xanlığında ev sənətkarlığının inkişafına təsir göstərən amillər sırasında ticarət mərkəzlərindən uzaqlığı, natural təsərrüfat hökmranlığı, rahat yolların olmaması və s. göstərmək olar.

Müstəqil xanlıqlar dövründə siyasi hadisələrin təsiri altında Xalxal xanlığının xarici sərhədləri müəyyən dəyişikliklərə məruz qalmışdır. Belə ki, bu dövrdə Xalxal xanlığı Sərab, Gilan və Ərdəbil xanlıqları arasında fasiləsiz mübarizə obyektinə çevrilmişdir.

Əsərdən göründüyü kimi xanlığın siyasi tarixi qarşılıqlı ərazi iddiaları ilə, baş vermiş məhəlli müharibələrlə səciyyəvi idi. Şəxsi iddialar nəticəsində yaranmış gərgin vəziyyət xanlıqlar arasında birliyin, anlaşmanın yaranmasını çətinləşdirir, xarici müdaxiləçilərin Azərbaycana qarşı təcavüzünü isə asanlaşdırırdı.

Xalxal xanlığı uzun müddət müstəqil qala bilmədi. Çünki xanlığın müstəqil yaşamı üçün gərək olan hər cür təbii və qeyri-təbii əsaslar mövcud idi.

1797-ci ildən etibarən Xalxal xanlığı özünün siyasi müstəqilliyini itirərək qacarların hakimiyyəti altına düşmüş və İranın ucqar vilayətlərindən birinə çevrilmişdi.

Xanlıqlar dövrünə dair demoqrafik-statistik mənbələrin yoxlugu əhalinin təbii hərəkətinin (nigah, dogum, ölüm, təkrar istehsal və sair kimi demoqrafiya problemlərini) araşdırılmasını xeyli çətinləşdirmişdir. Əhalinin tərkibinin öyrənilməsi xüsusi elmi metodun tətbiqi nəticəsində nisbətən aradan qaldırılmışdır.

# SƏNƏDLƏR

№ 1

Рапорт

Ваша светлость мне великодушно простит, ежели, особливо в случайных известиях, обрящете какие недостатки: иных плодовитость для всей связи и последствиев казалась при начале быть необходимою.

Александр Суворов

15 февраля 1780 года
Астрахань

Qaynaq: ЦГВИА РОССИЯ, ф. 52, д. 218/а, л. 1.

[Приложение а]

Бакинский Аджимелик-хан с согласия дербентского Фетали-хана отъезжал к шушинскому Ибраим-хану для заключения общей дружбы и сим последним задержан.

Шемахийские Мамат Сеит и Мамат Агасыханы, два брата, в дружбе с дербентским и бакинским ханами.

Шакинский Усеин-хан в союзе с дербентским Фетали-ханом; по некоторым известиям отправились в 20 000 войска против шушинского Ибраим-хана для выручки задержанного им бакинского Аджимелик Магмет-хана.

Генджинский Мамат-хан с сим шакинским Ханом в союзе, якобы с шушинским Ибраим-ханом имевши сражение, потерял свою вольность и тем ослеплен.



Ардевенские два брата Назарали и Учиук-ханы ныне в союзе с шушинским.

Между Ардевилью и Гилянью город Хархачь, в нем Мамат-хан живет спокойно.

До возвращения из Шираза в Рящ Адиат-хана по приказу Керимова сына Абдул Фаты-хана правит Гилянью реченного Халхалского Мамат-хана брат ФералиДжилла-хан. Доверенные бывшего Керима наибы в Рящс. Аджижафар, Аджимират, Аджи Мустафа.

13 февраля 1780 года

№ 2

Рапорт

После отправленных мною от 20-го числа сего месяца вашей светлости известнее следующие имею честь приложить.

Генерал-поручик Александр Суворов

28 июля 1780 года
Астрахань

[Приложение]

При взятии Назар-Али-ханом Ряща Гедаст-хан спасся на судне и вплыл в устье реки Сефитры, лежащей от Ряща в десяти часах к стороне Мазандрана; и писал к хальхальскому Амир-Гуне-хану, живущему от Ряща в 150 верстах к стороне Тевриза о вспоможении и обещая все им требуемое исполнять; Амир-Гуна -хан, якобы по просьбе сей прибыв с войском под Рящ, выгнал из оного Назар-Али-хана шахсеванского и по-

прежнему отдал оный город в правление Гедает-хану; Назар же Али-хан, видя себя не в силах сделать сопротивление хальхальскому хану, пред выходом своим выжег все строение и сады в городе; но о сем известии подтверждения ожидать надлежит.

От командующего турецким войском при городе Карсе начальника присланы подарки, состоящие в лучших лошадях и парче к ханам дербентскому и шемахинскому.

28 июля 1780 года
Астрахань

Qaynaq: ЦГВИА РОССИЯ, ф. 52, д. 218, лл. 39-40.

№ 3

Рапорт

После отправленных мною от 28-го числа прошедшего месяца вашей светлости известнее следующие имею честь приложить.

Генерал-поручик Александр Суворов

10 августа 1780 года
Астрахань

[Приложение]

Царь Ираклий с войском, состоящим в восьми тысячах грузин и нанятых лезгинцев, выступил аз Тифлиса против эриванского Гусейн-аль-хана. Сим пользуясь, дербентский Фетали-хан и шемахинский Агасий-хан тож пошли в поход,



каждый имея своею войска до трех тысяч и нанятых вообще лезгинцев до пяти тысяч против шушинского Ибраим-хана.

Управляющий областью Шеки Кабала Гусейн-хан чрез разные насилия пришел у народа в ненависть и по домогательству племянника своего лишен власти правления и принужден выехать из оной области в лезгинское местечко Джар, а на место его выбран народом вышепомянутый его племянник.

Последнее отправленное от 28-го числа прошедшего месяца известие об Адиат-хане рященском (якобы оный чрез помощь хальхальского Амир-Гуны-хана, возвратясь в Рящ, попрежнему вступил в правление), подтверждения никакого не имеет.

10 августа 1780 года
Астрахань

Qaynaq: ЦГВИА РОССИЯ, ф. 52, д. 218, п. 44.

№ 4

Halhal ülkesi

Hala Halhal ülkesinde ikamet iden Mehmed-Kulu Hanın tarafı Devlet-i Aliyyete istikametinden gayri mugaylı-i itaat haraketli zuhür itmeyüp bundan böyle dahi sadakat ile hidmeti memül olduğundan maada Devlet-i Safeviyyenin sahib-i itibarı ve miyane-i a camda nüfuzu olan herkesin kendüsüne rağbet ü mütabbatı olmağla Tebriz Seraskeri Vezir Ali Paşa-nın kaime ve iltiması mücebince rütbe-i mir-i mirani ile şanı terfi ve muhafazası şartıyla Hal-hal ülkesi muma-ileyhe verilmişdir, 25 R. 131

Qaynaq: F. Başar, Osmanlı eyalet Tevcihatı (1717-1730), Ankara, 1997, səh.162.

№ 5

Liva-i Zencan ve Sultaniya ve Tarum ve Ebher

Memalik-i İrandan zikr olunan mahallerin hıfz-u hıraseti ve perakende olan reayasına istimalet verilmekle iskan ve abadan olması lazım olmağla, Hemedan Seraskeri Vezir Ahmed Paşanın bundan akdem kethüdası olan Mehmed Paşa-zade Ahmed zide mecduhuya, muhafaza itmek şartıyla vezir-i müşarün-ileyh tarafından Beylerbeylik ile 38 Recebinin yirminci gününde tahvil virildüğün kaimesiyle ilam itmekle Devlet-i Aliyye tarafından dagu Beylerbeyilik ile verilmişdir, 20 L 138.

Qaynaq: F. Başar, Osmanlı eyalet Tevcihatı (1717-1730), Ankara, 1997, səh.161.

№ 6

Liva-i Pişküh

Halhal ve Gilan arasında vaki, Pişküh sancağı ahalisi bi t-tav ve rıza taraf-ə Devlet-i Aliyyeye inha etmeleriyle Mehmed-Kulu Han-ın birader zadesi Hızır Ali, yarar ve mahal ü müstahikk oldiğu ecilden live-i mezbür, han-ı mezkurun iltimasıyla, Tebriz Seraskeri Vezir Abdullah Paşa tarafından tevcih olunduğun, vezir-i müşarün-ileyh kaimesiyle ilam ve Devlet-i Aliyye tarafından dahi tevcih olunmasın iltimas itmekle iltimasları mücebince mümaileyh Hızır Aliye mirlivalık ile verilmişdir. 10 L 138

Qaynaq: F. Başar, Osmanlı eyalet Tevcihatı (1717-1730), Ankara, 1997, səh.168.



## Xalxal xanlığının xəritəsi, tarixi şəxsiyyətləri, memarlıq əsərləri və mənzərələri




Азербайджанские ханства
XVIII - начало XIX вв.


























# ƏDƏBİYYAT


1. Yaqut əl-Həməvi, Mucəmül-Büldan, C. III, s. 145.
2. Həmdullah Mustovfi Qəzvini, Nüzhətül-Qülub, s.81-82.
3. Qəzvini, Nüzhətül-Qülub, s. 84.
4. Toğan Z.V. Ümumi türk tarixinə giriş, c. 1, s. 171.
5. Toğan Z.V. Azerbaycan etnografisine dair, Azerbaycan Yurt Bilgisi, c.II, sayı 14, İstanbul,1933, s. 56.
6. Zeynəddin bin Həmdullah Qəzvini, Zeyle-tarixe-qozide, Bakı, "Elm", 1990, səh.49.
7. Faruk Sümer, Kara Koyunlular: Başlangıcından Cahan-Şaha qədər, I. Cilt, TTK Basımevi, 1967.
8. F. Sümer, gös. əsəri, s. 13-32.
9. Çingizoğlu Ə. Baharlılar, Bakı, "Mütərcim", 2012, 176 s.
10. F. Sümer, Kara Koyunlular, Ankara, 1984, səh. 84; O. A. Əfəndiyev, "Институт Суйуркал Тсентраллистыская Политика Правителей Аккойунлу и Первых Сефевидов" Форми Феодалной Земелной Собственности и Владенийа на Ближнем и Среднем Востоке. Бартолдовскийе Чтенийа 1975, səh. 168.
11. İskəndər bəy Münşi Türkman, Tarixi-aləmarayi-Abbasi, Bakı, "Təhsil, 2009, I cild, 792 səh. s.66.
12. Cahanqüşa-yi xaqan, s. 89; Əhsənüt-təvarix, s. 41.
13. Aləm-ara-yi Şah İsmayıl, s. 44.
14. Həbibüsiyər, s. 448.
15. Cahanqüşa-yi Xaqan, s. 9; Əhsənüt-təvarix, s. 41; Minorski, Saziman-i İdari, s. 246; Xüld-i Bərin, s. 79.
16. Cahan-qüşa-yi Xaqan, s. 9; Əhsənüt-təvarix, s. 41.
17. Aləm-ara-yi I Şah İsmayıl, s. 44.
18. Fərhəng-i coğrafiyai-yi İran, c. IV, s. 88; Yusif Cəmali, s. 127.
19. Cahan-qüşa-yi Xaqan, s. 90; Xüld-i Bərin, s. 79.
20. Əhsənüt-təvarix, s. 42.
21. Fərhəng-i coğrafiyai-yi İran, c. IV, s. 178.
22. İskəndər bəy Münşi, Tarixe-aləmaraye-Abbasi, Bakı, "Təhsil", 2009, 792 s. səh.455.

23. Qazi Əhməd Qumi. Xülasət ət-təvarix, Berlin nüsxəsinin fotosurəti, vərəq 493a.
24. Başbakanlıq Osmanlı Arxivi, NN, № 910, v.1-35.
25. BOA. Name-i Humayun Defteri, nr. 7, s.78. Belgeler, II c., nr.21, s.32-33, 286-287.
26. Архив Внешней Политики Российской Империи (АВПРИ), f.89, op.1, d.1724 q., d.6, ç.2, ll.380-382.
27. AVPRİ, f.89, op.1, 1724 q.,, d.6, ç.2, l.374-376.
28. AVPRİ, f.77 (SRT), op.1.
29. BOA. Hatt-ı Hümayun, nr.6700 B.
30. BOA. Hatt-ı Hümayun, nr.1700-A.
31. BOA. Hatt-ı Hümayun, nr.6680-B.
32. BOA. Hatt-ı Hümayun, nr.6721-F.
33. Küçük Çələbizadə Asim Ismail, Tarixi Çələbizadə, İstanbul-1153 hicri (1740 miladi), vər.96.
34. Æ. Von Hammer – Purqstale. Vekke. İ, band 7-8. Geschite des Osmanishen Reicher. Gras (Austriya), 1965, s.VIII, his. II, p. 351-354.
35. Çələbizadə A., g.ə., v.147.
36. AVPRİ, 1729-cu il, iş.6, v.155-156.
37. AVPRİ, f. 77, op.1, 1729 q., d.6. l.82. l.103 ll. ob.
38. AVPRİ, SRP, f.77, siy.1, 1730, iş 9, v.75; 3, s.375.
39. AVPRİ, SRP, f.77, siy.1, 1730, iş 14, v.225 arxa.
40. AVPRİ, SRP, f.77, siy.1, 1730, iş 14, v.97 və arxa.
41. Ənvər Çingizoğlu, Aydın Avşar, Avşarlar, Bakı, "Şuşa", 2008, səh.183-184.
42. Dəlili H.Ə., XVIII əsrdə Azərbaycanın siyasi həyatı haqqında əfşarların mövqeyinə dair. Azərb.E.A. xəbərləri, fəls., hüquq ser., 1964, № 3, s.34-41.
43. AVPRİ, f.77, op.1, 1732 q., d.5, ll.98 ob. – 99.
44. Məhəmməd Hüseyn Quddusi, Nadir şah, Bakı, «Gənclik», 1999, səh.111.
45. Faruk Sümer, "Avşarlar", TDAD, S. 62, Ekim 1989, s.119.
46. M.Kaşğari, Divanü lügat-it Türk, Ankara, 1939-1941, I, səh. 56.
47. F. Rəşidəddin, Oğuznamə, Bakı, 1987. səh.65.
48. Nəsrullah Fəlsəfi, Zəndəgani Şah Abbas-i Əvvəl, I cild, Tehran, 1958, s.214.



49. Ataniyazov, Soltanşa, Şəcərə, Türkməniñ Nəsil Daragtı, Aşqabad, "Turan-1", 1994, 288 s., səh.164-165.
50. Дурдыев М., Кадыров Ш., Туркмены мира, (историко-демографический обзор). Ашхабад, Харп, 1991; 72 с. стр.58.
51. Савина В. И. Этнонимы и топонимии Ирана // Ономастика Востока. – М.: Наука, 1980. – С.150.
52. Adnan Menderes Kaya, Avşar türkmənləri, Keçit Yay., Qayseri, 2004, səh. 24-25.
53. F. Sümər, Oğuzlar, Bakı, 1992, səh. 163.
54. Ə. Z. V. Toğan, Azərbaycan, Bakı, 2007, səh. 52.
55. Бларамберг И. Ф. Статистическое обозрение Персии. Саркт-Петербург, 1853, с.360. стр. 14-15.
56. Корсун Н.Г. Персия, Москва, 1923, С. 36-40.
57. Колюбакин А.М. Состав населения Персии по племенам и провинциям. Сборник географических, топографических и статистических материалов по Азии. Выпуск 4, СПб., 18883 // История Ирана. Киев-Москва, 2003, с. 298-305.
58. Yəhya bin Əbdüllətif Qəzvini, Lubbüt-Təvarix, s.240-241.
59. Əfəndiyev Oqtay, Azərbaycan Səfəvilər dövləti, Bakı, "Azərnəşr", 1993, 301 s. səh.65-66.
60. Məhəmməd Möhsin Mustofi, Zübdətüt-təvarix, təshih Gudərzi Bəhruz, Tehran Universiteti nəşriyyatı 1375 h.ş. c.1 s. 289
61. Шараф-хан ибн Шамсаддин Бидлиси. Шараф-наме. Т.2. Серия: Памятники письменности Востока. XXI, 2. М., Наука. 1976 г. 350 с. стр.191.
62. Məhəmməd Möhsin Mustofi, Zübdətüt-təvarix, təshih Gudərzi Bəhruz, Tehran Universiteti nəşriyyatı 1375 h.ş.; c.1 s. 316.
63. Həsən Rumlu. Əhsənüt-təvarix, Tehran, h.1349, səh. 466.
64. Əfəndiyev Oqtay, Azərbaycan Səfəvilər dövləti, Bakı, "Azərnəşr", 1993, 301 s. səh.127.
65. Məhəmməd Möhsin Mustofi, Zübdətüt-təvarix, təshih Gudərzi Bəhruz, Tehran Universiteti nəşriyyatı 1375 h.ş; c.2 s. 686.
66. İskəndər bəy Münşi, Tarixe-Aləm arayi-Abbasi, c. 1, 2,3., təshih Rizvani İsmayıl, Dünyaye-kitab nəşriyyatı, 1377 h.ş.Tehran; c.1 s. 422.
67. İskəndər bəy Münşi, Tarixe-aləmaraye-Abbasi, Bakı, "Təhsil", 2009, 792 s. səh.561.

68. İskender bəy Münşi, Tarix-i Alem Ara-i Abbasi, Çev: Ali Genceli, TTK, İstanbul, 1945, c. II, Kısım I, s. 8.
69. Mirzə Rəşid Ədibüşşüara, Tarixi Əfşar, Təbriz, «Şəfəq», 1346 hicri şəmsi, səh.86-87.
70. J.Junior, Unudulmuş qəhrəmanlar, 2004, səh.259.
71. Əminə Pakravan, Abbas mirzə, Bakı, «Qanun», 2007, 208 s. səh.130.
72. Ənvər Çingizoğlu, Aydın Avşar, Avşarlar, Bakı, "Şuşa", 2008, səh.55.
73. Dr. Yaşar Kalafat, Balkanlardan Uluğ Türkistana Türk Halk İnançları II Kaşkayiler, Terekemeler, Elsevenler, Karakoyunlular, Kiresunlular, Avşarlar, İsmaili Hazaralar, Kengerliler, Caferiler, Karamanlılar, Niğariler, Ayrımlılar, Kekailer, Şebekler, Mavıllılar, Sarulular, Babil Yayınları Ankara 2005.
74. Xalxal, s.33; İrəc Əfşar, İlha, Çadurnişinan, 1.cild, s.121.
75. Mərdumşinasi, s.206; Coğrafiya-yi Nizami İran, Azərbaycan xavəri, s.111; Məcmuə-i ittılaat və amar-i ilat və təvayif-i əşayiri İran, s.5.
76. İrəc Afşar, İlha, Çadurnişinan, I.cild, s.121-122.
77. H. Ə. Dəlili, Azərbaycanın cənub xanlıqları XVIII əsrin ikinci yarısında, Bakı, Elm, 1979, səh.101.
78. Əfşar İrəc, Niqahi bə Azərbaycani şərqi, Cilidi duvvum, intişarati-Bəhmən, 1369, s.123.
79. Mərdumşinasi İran, s.203; Coğrafya-yi Müfəssəl-i İran, Keyhan, II cild, s.112-213; İrəc Əfşar Sistani, İlha Çadurnişinan..., II cild, s.213.
80. Riçard Tapper, İranın sınır boylarında göçəbələr, Ankara, 2004, səh.534-535.
81. Губогло М. Н. «Языки этнической мобилизации», М., 1998.
82. Bəhmən M. T. Ürf və adət dər əşayer-e Fars.Tehran, 1324, s.101.
83. Mehdi Bamdad, *Şərh-i hal-i rical-i İran dər qərn-i 12 və 13 və 14 hicri*, Tehran, 1371 hş., I, səh. 171.
84. Hadi Hidayət, Tarixe-Zəndiyye, Tehran, 1334, səh.135.
85. Rüstəmülhükəma Məhəmmədhaşim Asəf, *Rüstəməttəvarix*, Tehran, "Dünya kitab",1382, səh.388.
86. Məhəmməd Sadiq Nami, *Tarix-e qitiquşa*, təshih S. Nəfisi, Tehran, 1987, səh.47-48.



87. Rüstəmülhükəma Məhəmmədhaşim Asəf, *Rüstəməttəvarix*, Tehran, "Dünya kitab",1382, səh.390.
88. ЦГВИА, ф. 52, д. 218, лл. 39-40.
89. Jan Gevr, Xacə şah, Bakı, "Gənclik", 1993, səh. 204-205.
90. İbadifərd İbrağani, Tarix və coğrafiyayi Sərab, Sərab, 1375, səh.57.
91. ЦГВИА, ф. 52, оп. 1/194, д. 218/а, л. 1.
92. Həmdullah Mustovfi Qəzvini, Nüzhətül-Qülub, s.81-82.
93. Yaqut əl-Həməvi, Mucəmül-Büldan, C. III, s. 145.
94. Seyid Məsud Nəqib. Xalxal və Məşahir. Təbriz, 1379, 814 səh.
95. Lüğətnamə-i Dehxuda, 21-ci cild, "Xalxal" maddəsi, s.683.
96. Xacə Zeynalabidin Əli Əbdi bəy Şirazi, Təkmilətül-Əxbar, Bakı, "Elm", 1996, s.28.
97. İskəndər bəy Münşi Türkman, Tarixi-aləmarayi-Abbasi, Bakı, "Təhsil, 2009, I cild, 792 səh. s.385.
98. Riçard Tapper, İranın sınır boylarında göçəbələr, Ankara, 2004, səh.
99. Yaqut əl-Həməvi, Mucəmül-Büldan, C. III, s. 181.
100. Həmidullah Mustovfi Qəzvini, Nüzhətül-Qülub, s. 83.
101. BOA, N.N., № 910, v.1-35.
102. Məhəmməd Xaliqi-Müqəddəm, Ostani-Zəncan sərzəmini əqvami-əfşar, 1380/2001, səh.133-135.
103. Mirzə Əhməd Mirzə Xudaverdi oğlu. Əxbarnamə (tərcümə Əli Hüseynzadənindir). B., 1975., s.34.
104. Bayramalibekov Teymur-bek. İstoriə Talışinskoqo xanstva.// AMEA Əlyazmalar İnstitutunun Elmi Arxivi. D-687-8597., v.1.
105. Səid Əli Kazımbəy oğlu. Cəvahirnamei-Lənkəran (tərcümə Rauf Şeyxzamanlınındır). B., 2000., s.23.
106. Azərbayjan tarixi. III cild (XIII-XVIII əsrlər), B., 1999., s.410.
107. ЦГВИА, фонд, 446, дело 172, лист 2.
108. Mirzə Məhəmmədsadıq Musəviye (Namiye) İsfəhani, səh.229. Tarixe-Kitiquşa, Tehran, 1317, səh. 229.
109. ÜQVİA, f. 52, d. 218, ll, 20-21.
110. ÜQVİA, f. 52, d. 218, ll. 39-40.
111. Mirzə Rəşid Ədibüşşüara, Tarixi Əfşar, Təbriz, «Şəfəq», 1346 hicri şəmsi, səh.194-195.
112. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 г. Ч. I.. СПб., 1869. Стр. 308.

113. İbadifərd İbrağani, Tarix və coğrafiyayi Sərab, Sərab, 1375, səh.57.
114. Jan Gevr, Xacə şah, Bakı, "Gənclik", 1993, səh. 203.
115. Mirzə Məhəmməd Əbülhəsən Qaffari Kaşani, *Gülşən-e murad*, nəşr. Q.-R. Ṭəbaṭəbai Məcd, Tehran, 1990.
116. Əbülhəsən Gülestana, *Mücməl əl-təvarix*, red. M.-T. Müdərris Rəžəvi, Tehran, 1320 ş./1941. səh. 350-51; H. L. Rabino di Borgomale, *Les provinces caspiennes de la Perse: Le Guilan*, RMM32 (1915-16), Paris, 1917., p. 473; İdem Idem, "*Rulers of Lahijan and Fuman in Gilan, Persia,*" JRAS 34, 1918, pp. 85-100, p. 98; S. Gmèlin et al., *Histoire des découvertes faites par divers savants voyageurs dans plusieurs contrées de la Russie et de la Perse* I, Berne, 1779. I, pp. 417-18; Perry, John R., *Karīm Khān Zand: a history of Iran*, 1747–1779 University of Chicago Press, 1979, pp. 207-208.
117. Əbühəsən xan Qaffari Kaşani, *Gülşən-e murad*, red. Q. Ṭəbaṭəbai, Tehran, 1369 h.ş../1990., vər. 198-99; Gmelin, pp. 164-65; Perry, pp. 207-8; 251-52; see also Məhəmmədhaşim Rüstəm-al-Ḥükəma, *Rüstəm ət-təvarix*, təshih. M. Müşiri, Tehran, 1348 h.ş./1969., vər. 371-72; 442-43.
118. Mirzə Əhməd Mirzə Xudaverdi oğlu, Əxbarnamə, Bakı, "Elm", 2000, səh. 32.
119. Mirzə Məhəmmədsadıq Musəviye (Namiye) İsfəhani, səh.229. Tarixe-qitiquşa, Tehran, 1317, səh. 229.
120. Əmiri-Gilanşah Etimadi-hümayun, *Yeksəd-o pəncah sal səltənət dər İran*, Tehran, 1340, səh.80.
121. ЦГВИА, ф. 52, д. 218, лл, 20-21.
122. ЦГВИА, ф. 52, д. 218, лл, 39-40.
123. A.Bakıxanov, Gülüstani-İrəm, Bakı, «Elm», 1991, səh..
124. RQVİA, f. 52, siy. 1, iş 286, his. 1, v. 7.
125. RQVİA, f. 52, siy. 1, iş 286, his. 1, v. 48.
126. *Русско-дагестанские отношения в XVIII – начале XIX в.* Сб. М., 1988., с.130, 164-165; 175-176.
127. RQVİA, f. 52, siy. 1, iş 286, his. 1, v. 55 a.ü.
128. Nadir mirzə, Tarix və coğrafiye dar-üs-səltəneye Təbriz, Təbriz, "Setodəh", 1373, səh. 247.
129. Məsud Qulamiyyə, Tarixi Marağa bə rəvayəti təsvir, Tehran, "Övhədi", 1385(h.ş.), səh.78.



130. Riyahi, Məhəmməd Əmin. Xoy tarixi. I cild. Tehran, Tus, 1372, səh. 421, 423.
131. Səməd Sərdariniya, İbrahimxəlil xan Cavanşir. Gös. əsəri, «Varlıq» nəşriyyatı, səh. 125.
132. سوم چاپ، گلشن، تهران، ایران رجال حال شرح مهدی، بامداد
133. Nəfisi S. *Tarixi-Nəzm və Nəsr*, C. II, s. 706.
134. http://dlib.ical.ir/site/catalogue/636173
135. http://dlib.ical.ir/site/catalogue/656322
136. http://www.ethnologue.com/show_language.asp?code=shm Shahrudi
137. http://words.wikipg.com/mean/لغت-نامه-دهخدا/ام‌ی-گونه-ر-خان
138. http://www.arianica.com/articleteaser/26755.
139. http//astara-ənzəli-az.blogspot.com

# MÜNDƏRİCAT


GİRİŞ ... 3

**I FƏSİL**

Xalxalın tarixinə nəzər ... 7

**II FƏSİL**

Xalxal xanlığının yaranması tarixindən ... 20

**III FƏSİL**

Xalxal xanlığını qurmuş el və oymaqlar ... 35
- Avşar eli ... 35
- Avşar eli Səfəvilər dövründə ... 41
- Avşar eli Nadir şahın hakimiyyəti dövründə ... 51
- Avşar eli Qacarlar dövründə ... 52
- Əmirli oymağı ... 53
- Səidli oymağı ... 54
- Şatiranlı oymağı ... 55
- Poladlı oymağı ... 58
- İspərli oymağı ... 58
- Xalxal el-oymaqlarının gün-güzəranı ... 59
- Xalxal kəndlilərinin güzəranı ... 63

**IV FƏSİL**

Xalxal xanlığının ictimai-siyasi həyatı ... 67
- Əmirgunə xan Əmirli-Avşar ... 67
- Fərəculla xan Əmirli-Avşar ... 72
- Fətəli xan Xalxali ... 73
- Məhəmmədhüseyn xan Əmirli-Avşar ... 73

**V FƏSİL**

Xalxal xanlığının inzibati quruluşu ... 75
- Xalxal şəhəri ... 75
- Xalxal mahalı ... 76
- Tarum mahalı ... 80
- Xunə mahalı ... 84
- Hir mahalı ... 85





**VI FƏSİL**

Xalxal xanlığının qonşu xanlıqlarla münasibəti ... 86
- Xalxal və Ərdəbil xanlığı ... 86
- Xalxal və Sərab xanlığı ... 88
- Xalxal və Urmiya xanlığı ... 89
- Xalxal və Zəncan xanlığı ... 90
- Xalxal və Gilan xanlığı ... 91

**VII FƏSİL**

Qacarlar dövründə Xalxal hakimləri ... 98
- Əliqulu mirzə Qovanlı-Qacar ... 98
- Əzizulla mirzə Qovanlı-Qacar ... 99
- Məhəmmədrəhim mirzə Qacar ... 99
- Hacı Məhəmmədqulu xan Cavanşir ... 100
- Sultanəli xan Vəziri-Əfxəm ... 103

**VIII FƏSİL**

Mədəniyyət ... 105

Ədəbiyyat ... 106

Sadıq bəy Xalxali ... 107

Ağa Mirzə Məhəmmədbağır Xalxali ... 108

Ağa Seyid Məhəmməd Saleh Xalxali ... 110

Kərbəlayı İmamyar Şəqaqi ... 110

Molla Cəlal Xalxali ... 111

NƏTİCƏ ... 112

SƏNƏDLƏR ... 114

ƏDƏBİYYAT ... 119

*Kitab «Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzində səhifələnmiş və çap olunmuşdur.*

Çapa imzalanıb: 10.05.2016.
Format: 60x84 1/16. Qarnitur: Times.
Həcmi: 8 ç.v. Tiraj: 100. Sifariş № 119.

**TƏRCÜMƏ VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ**

Az 1014, Bakı, Resul Rza küç., 125
596 21 44; 497 06 25; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru

www.mutercim.az

106832

Ar 2016/497



**Ənvər Çingizoğlu**

**1962-ci ildə Qarabağda anadan olub. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. Etnoqrafiyaya, tarixə, genealogiyaya, folklora aid incələmələri və araşdırmaları ilə tanınır. Ə.Çingizoğlunun ssenarisi əsasında «Avşarlar», «Nida», «Xurşidbanu Natəvan», «Nəvvab» adlı televiziya filmləri çəkilib. Ə.Çingizoğlu «Soy» dərgisinin baş redaktoru, «Azərbaycantelefilm» YB-nin baş redaktorunun müavinidir. Avrasiya Yazıçılar, Azərbaycan Jurnalistlər birliklərinin üzvüdür. 70-dən artıq elmi, elmi-publisistik kitabın müəllifi, 10-dan artıq kitabın tərtibçisidir.**